www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Çağdaş milli poeziya”

# Simuzər Baxışlı

# Mənim göz yaşlarım çevrildi daşa...

Şairənin qürbətdə - Avropada yaşadığı vaxtlarda qələmə aldığı lirik-fəlsəfi şeirləri, səfərnamələri...

2012

Yeni Yazarlar və Sənətçilər Qurumu. e-nəşr N 91 (2012)

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumu ilə http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Çağdaş milli poeziya" kulturoloji-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 91

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 91 (2012)

## Simuzər Nüsrətbəyli

# Mənim göz yaşlarım çevrildi daşa...

**Şairənin qürbətdə - Avropada yaşadığı vaxtlarda qələmə aldığı lirik-fəlsəfi şeirləri, səfərnamələri...**

Virtual redaktoru və e-nəşrə hazırlayanı:
Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2012



SİMUZƏR NÜSRƏTBƏYLİ



# MƏNİM GÖZ YAŞLARIM ÇEVRİLDİ DAŞA

SİMUZƏR NÜSRƏTBƏYLİ

# MƏNİM GÖZ YAŞLARIM ÇEVRİLDİ DAŞA

"VEKTOR" Nəşrlər Evi

Bakı – 2007

Redaktor və ön söz müəllifi:

*Prof. Dr.* ***Elçin İsgəndərzadə***

*Kitabda tanınmış Kosovalı rəssam*

*ZEYNEL* BEKSAÇIN rəsmlərindən istifadə olunub.

Cildin rəssamı:

MAHMUD FERŞÇİN (İİR)

SİMUZƏR NÜSRƏTBƏYLİ

"MƏNİM GÖZ YAŞLARIM ÇEVRİLDİ DAŞA"

Bakı, 2007. 346 səh.

*İstedadlı şairə Baxşiyeva – Simuzər Nüsrətbəyli Abdulla qızının yeni kitabında onun Avropa ölkələrində yazdığı vətən həsrətli poetik və yüksək ideya-məzmunlu şeirləri, publisistik qeydləri təqdim olunur. Vətənpərvərlik hissləri, məhəbbət motivləri ilə zəngin olan bu kitabdakı rübailərin, bayatıların, uşaq şeirlərinin, təmsillərin və poemaların oxuculara xoş ovqat bəxş edəcəyinə inanırıq.*

N 4702060207-215 (*qrifli nəşr*)

121

© "VEKTOR" BEYNƏLXALQ ELM MƏRKƏZİ, 2007

**Simuzər NÜSRƏTBƏYLİ**

**"MƏNİM GÖZ YAŞLARIM ÇEVRİLDİ DAŞA"**


Redaktor: **Elçin İsgəndərzadə**

Mətbəənin direktoru: **Rafiq Əsgərli**

Dizayner: **Aydan Elçin**

Texniki redaktor: **Azad Əsgərli**

Korrektor: **Afaq Cabbarqızı**

Bilgisayar yığımı: **Pərvanə Məmmədova**

Yığılmağa verilmiş: 20.09.2006

Çapa imzalanmış: 20.12.2006

Kağız formatı: 60x84 1/16

Fiziki çap vərəqi: 15

Sifariş: 215

Sayı: 500

*Qiyməti müqavilə yolu ilə*

"VEKTOR" BEYNƏLXALQ ELM MƏRKƏZİ

"VEKTOR" NƏŞRLƏR EVİ

Ünvan: AZ1018. Bakı şəh, Əhmədli qəs, Zığ yolu, 20q

tel: (050) 562 70 00 (012) 447 14 04

faks: (012) 472 92 34

e-mail: isgenderzadeh@ rambler.ru

*www. vector.az*

## *QÜRBƏTDƏ VƏTƏN QOXUSU*

Çağdaş ədəbi mühitimizdə öz yaradıcılıq fəallığı ilə seçilən xanım şairlərimizdən biri də Simuzər Nüsrətbəylidir. Simuzər xanımla qəzet və jurnal səhifələrindən ədəbi tanışlığımızın tarixçəsi xeyli illər öncəyə təsadüf edir. Nə vaxtsa Simuzər xanım haqqında tanınmış söz adamlarımız Qabilin, Hüseyn Abbaszadənin, Seyfulla Əsədullayevin, Arif Əmrahoğlunun, Minəxanım Təkəlinin, Səyavuş Sərxanlının, Həmid Abbasın, Səyavuş Məm-mədzadənin və başqa qələm dostlarımızın xoş ovqatla yazılmış düşüncələrini sərgilənən bir xüsusi buraxılış da oxumuşdum.

Ədəbi ictimaiyyətə "Dəniz anamdır mənim", "Gecəni çıraq edib", "Daşlarda yaddaş mənəm", "Zaman özü deyəcək" və digər kitabları ilə çoxdan tanış olan Simuzər xanımın poetik dünyası ilə mən "Mənim göz yaşlarım çevrildi daşa" kitabının əlyazması vasitəsilə yaxından tanış olmaq fürsəti əldə etdim.

Həmən, səmimi söyləyim ki, şairənin ədəbi aurası bir sıra bədii-ekoloji çirklənmələrə rəğmən mənə xoş təsir bağışladı.

Kitabda müəllifin əsasən son zamanlar qələmə aldığı şeirləri və publisistik səfər təəssüratları toplanmışdır. Şeirlərin janr rəngarəngliyi ilkin olaraq diqqəti çəkir. Kitabda toplanmış rübailərin, bayatıların, təmsillərin, poemaların və uşaq şeirlərinin mövzu diapazonu da çox genişdir.

Hansı janrda, hansı mövzuda yazırsa yazsın, Simuzər Nüsrətbəyli hər zaman öz nəfəsi, öz deyim tərzi, öz kişisəlliyi ilə seçilir:

***Şiş dağlara duman gəldi, şad oldum,***

***Gül çəmənlər ipəklədi – yaşadım.***

***Yerdə ocaq tüstülədi, od oldum,***

***Göydə durna lələklədi – yaşadım.***

tablosunun və yaxud:

***Əllərimə sığışır***

***Sirli-soraqlı dünya,***

***Əli çıraqlı dünya.***

***Ucalardan, ucadan***

***mənə taleyim baxır –***

***dünyanın dolu gözləri***

***gözlərimə qarışır,***

***axır...***

misralarının və yaxud:

***Taleyim ağrım-acım,***

***Tanrıdan qismət tacım...***

***Şəhid olan can bacım,***

***Şəhid olan qardaşım,***

***Məzarınız üstünə***

***Düşürsə qəlbi üzən***

***Bircə damcı göz yaşım –***

***Demək,***

***Mən də yaşamışam!***

bəndinin heç imza qoyulmadan belə Simizər Nüsrətbəyli qəlbinin çırpıntıları olması duyulur.

Simuzərin bütün şeirləri sevgi üstə köklənib. Bu şeirlərin mayası da, qayəsi də sevgidir.

Əlyazmaları oxuyub başa vurduqdan sonra könlümə Vətən qoxusu dəydi. Qürbətdən gələn Vətən qoxusu! Elə zənn etdim ki, günümüzdə qürbətin obrazını və qürbətdən Vətən harayını heç kim Simuzər xanım qədər təsirli verə bilməyib.

Bir sözlə, kitabın maraqlı məqamları çoxdur. Oxusanız, görəcəksiniz!

Sayğılarımla,

***Prof. Dr. Elçin İsgəndərzadə***

*"Vektor" Beynəlxalq Elm Mərkəzinin və türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının prezidenti*

## ***PEDAQOJİ DÜŞÜNCƏLƏR***

Adətən yaradıcı insanların əsərləri – müəyyən xüsusiyyətlərə görə təhlil edilib qiymətləndirilir. Unutmaq olmaz ki, Ulu yaradan bütövlükdə kainatı – hər şeyin əşrəfi saydığı insanlardan ötrü qurdu. Şairlərin – şeirləri əsasən bədii estetik, əxlaqi keyfiyyətlərinə görə dəyərləndirilir. Burada zahirilik – mənəvi aləmdən daha üstün tutulur.Yəni fikir kimi daxil etdiyimiz pedaqoji düşüncələr ifadəsi insan sözü qədər qədimdir. Ona görə ki, deyilən hər bir söz insanın tərbiyəsində mühüm əhəmiyyət daşıyır, rəzil və fəzil təsirlərini göstərməklə pedaqoji rol oynayır.

Şairə Simuzər Nüsrətbəylinin yaradıcılıq dia-pazonu pedaqoji təsir baxımından son dərəcə genişdir. İlk növbədə onun oxucularla ünsiyyətdə olan şeirləri düşündürmək qabiliyyətindədir. Sual olunur – nə barədə düşündürmək? Deyərdim ki, keçmişimiz, bu günümüz və gələcəyimizlə bağlı. Tarixi ənənəyə, milli-dəyərlərimizə sadiq olan şairə xanım Vətən, torpaq, ana – sevgi, məhəbbət, sədaqət, maddi aləmlə bağlı pedaqoji düşüncələrə insanı sövq etdirən şeirlərə daha geniş yer vermişdir.

***Qəmli buludların göz yaşları,***

***Alovlu köksümün sərinliyidir.***

***Vətənin üstündə dərd qırışları***

***Dalğalı dənizin dərinliyidir.***

Dörd misralı poetik ifadənin məzmununu aydın-laşdırmağa çalışacağam. Burada bütün kainat boyda vətənini təsəvvür edən şairə özünü onun bir parçası hesab edərək alovlanan köksünü qəmli buludların göz yaşları ilə sərinlədiyini bildirməklə yüksək yanğısını göstərir. Deməк Vətənin hər bir övladı onu sonsuz məhəbbətlə sevməli – lazım gələrsə onun yolunda – canından keçməyə hazır olmalıdır.

Şeirin pedaqoji təsir gücü – təriyəvi motivləri son dərəcə yüksəkdir.

Şairənin bayatılarında da Vətən həsrətli misralar az deyildir.

***Gəldi ayrılıq dəmi,***

***Neyləyək biz bu qəmi.***

***Vətən uzaq, mən qərib,***

***Yox könlümün həmdəmi.***

Doğrudan da biz azərbaycanlılar doğma torpağa ana sevgisi qədər bağlıyıq.

Qürbətdə nə qədər firəvanlıq olsa belə biz özümüzü həmişə kədərli, qəmli hiss edirik. Könülə həmdəm tapa bilmirik. Torpaqlarımızın düşmən tapdağı altında qalması hər birimizi göynədir. Rlə həmin mənəvi əzabların təsirlərini biz Simuzər xanımın çox saylı "Vətən" şeirlərinin çalarlarından aydın görürük.

***Dolaşdım dünyanı***

***qarış-qarış mən,***

***yüksəkdə görmədim***

***heç nə Vətəndən.***

***Ən böyük zirvədə***

***Ürəyim duydum,***

***Yaşadı bərabər sənlə tən,***

***Vətən!***

Uşaqlara böyük sevgi bəsləyən istedadlı şairənin "Uşaq və qar" poeması bütövlükdə pedaqoqikadır. Burada hər bir misra uşaqğın mənəvi dünyasının təliminə, təhsilinə və tərbiyəsinə yönəlmişdir.

***Biri lap balacaydı,***

***O yandan qaçıb gəldi***

***Deysən bu dəcəldi,***

***Özü də heç bilmədi,***

***Ayağı batdı qarda***

***İlişib qaldı orda,***

***Darta biləmdi dala,***

***İstədi haray sala,***

***Bir az baxdı qar dağa,***

***Başladı çağırmağa,***

***Ata, ata, ay ata.***

Simuzər xanımın yaradıcılığında görkəmli sənət adamlarına, elm xadimlərinə, hörmət və sevgi bəslədiyi insanlara ithaf etdiyi şeirlərində – sanki müəllimlərinə şagirdin hörmət və ehtiramı öz dəyərli ifadəsini tapır.

Onun "Həmişə yatdı" şeiri – böyük şairimiz Rəsul Rzanı öz səsində radioda dinlədikdən sonra yaranmışdır.

***Şairin xoş səsi gəldi efirdən,***

***Doldu otağıma sirli xəzinə.***

***Səsi titrəyirdi sözündə hərdən,***

***Kainat dönürdü şerin özünə.***

Onun təbiətlə bağlı qələmə aldığı "Meşə", "Yağış", "Maralgöldə", "Ağaclar – insanlar", "Bülbül-ilham pərisi", "Kəpənək ömrü", "Baxdı bənövşə" və bir çox başqa şeirlərində əxlaqi-mənəvi dəyərlər diqqəti cəlb edir. Bu cəhətdən "Baxdı bənövşə" şeiri son dərəcə təsirlidir.

***Torpağa həsr edib tənha özünü,***

***Gülləri yandırıb yaxdı bənövşə***

***Sevib***

***Boynubükük***

***Həsrət ömrünü,***

***Yalnız anasına baxdı bənövşə.***

Nəzərə alsaq ki, bənövşə ömrünü yaşayan insanlar az deyil, onda şeirdə pedaqoji motivlərin nə qədər böyük ustalıqla bədii boyalara çevrildiyinin şahidi olarıq.

Yaradıcılığına, mənəvi dünyasına, şəxsiyyətinə həmişə hörmətlə yanaşan – şairə Simuzər xanımın yaradıclığında daim bu cəhət hiss olunur. Belə olmasaydı biz onun şeirlərindən pedaqoji düşüncələrimizi formalaşdıra bilməzdik. O, rübai-lərindən birində dediyi misraları ilə fikrimizi daha təsdiqləyir.

***Səxavət bir əlim, qələm bir əlim,***

***Tanrıdan nur alır, eşqim, əməlim.***

***Hərənin qızıldan taxt-tacı olsa***

***Şerimdi, sözümdü sadə heykəlim.***

İnsan şəxsiyyətinin formalaşmasında mənəvi dəyəri olan Simuzər Nüsrətbəyli yaradıcılığı zaman-larda öz təravətini saxlayacağına əminəm.


***Şahrza Ağayev,***

*Pedaqoji elmlər namizədi,*

*Azərbaycan Müəllimlər institutunun dosenti*

***VURULSAN HƏMİŞƏ İRƏLİ YIXIL,***

***XİLAS ET TORPAĞI ÖZ BOYUN QƏDƏR...***

**HƏR ŞEİR YAZANDAN SONRA...**

Gərək çox yolları yora ürəyim –
O, qələm gözləyən varağa bənzər.
Hər şeir yazandan sonra ürəyim
Közü kül altında ocağa bənzər.

Gərək çox yolları yora ürəyim –
O, dərya sinəmdə yelkənə bənzər.
Hər şeir yazandan sonra ürəyim,
Yağışdan sonrakı çəmənə bənzər.

Gərək çox yolları yora ürəyim –
O, mənim bəxtimdə zirvə kimidir.
Hər şeir yazandan sonra ürəyim,
Yenə
Yazılmamış nəğmə kimidir...

**21.07.2002**

## YAŞADIM

Şiş dağlara duman gəldi, şad oldum,
Gül çəmənlər ipəklədi – yaşadım.
Yerdə ocaq tüstülədi, od oldum,
Göydə durna lələklədi – yaşadım.

Sevgi səpir bu dağların meşəsi,
Onda gözəl insanların guşəsi.
Çiçəklədi ürəyimin şüşəsi,
Gül körpələr iməklədi – yaşadım.

Keçəmmədim məhəbbətin yanından,
Bu dünyanı ağlım kəsən anından,
Ağrı çıxdı ilhamımın canından,
Qönçə qızlar mələklədi – yaşadım.

Bu dünyada varaq oldu, mən oldum,
Əldə qələm, duman oldum, çən oldum.
Azda özüm, çoxdasa vətən oldum,
Şair ruhum körüklədi – yaşadım.

**10.02.2005**

**DOLANA-DOLANA**

Mən hər gülün qədrini
Bildim dolana-dolana.
Güllərin göz yaşını
Sildim dolana-dolana.

Ağlı dayaz insanlara,
Boş-boşuna yananlara,
Nakəslərə, nadanlara
Güldüm dolana-dolana.

Ömür sonsuz xəzinə,
Eşq yolunda gər sinə.
Bildim həsrət nədir, nə
Dözdüm dolana-dolana.

Simuzərəm mən niyə?
De, niyə döndüm neyə?
Vətənim, xalqım deyə
Öldüm dolana-dolana.

## TORPAĞA HİMN

Gürz vuraram yağı düşmən belindən,
Adlayaram fitnələrin selindən.
Qılınc alıb Xətainin əlindən
Tarixlərdən sorağımı səslərəm!

Bir zirvəyəm, ağ başımda çən duran,
Bütün qəmlər ötəridi mən duran.
Ulu göydə al günəşlə tən duran,
Ay-ulduzlu bayrağımı səslərəm.

Oğuz-türkün nidaları dilimdə,
Qəhrəmanlıq sədaları elimdə.
Tüfəng kimi qələm varsa əlimdə
Od sinəmi – varağımı səslərəm.

O Tanrıdan buyruğum var, ay ellər,
Tufanım var, sovrağım var, ay ellər.
Əlli milyon yumruğum var, ay ellər,
Yaxınımı, uzağımı səslərəm.

İndi yadlar əməlidir yurd olan,
Soruş kimdir o qurd oğlu qurd olan?!
Mənə Vətən, düşmənimə dərd olan
Bir ağ günlü torpağımı səslərəm!...

## ŞEİR YAZMASAM ƏGƏR...

Açılmayan qönçənin
Həsrətini, dərdini,
İnsanlığın cüt qanad –
Mərdini, namərdini
Necə köçürərdim mən
Ürəyimə, ruhuma,
Şeir yazmasam əgər?

Bəxtim tuş gələrdimi
Narahatlıq oxuna –
Şeir yazmasam əgər?

Gözü insanda qalan,
Qayğı ehtiyacını,
Daşıya bilərdimmi –
Şeir yazmasam əgər?

Necə razı salardım,
Gözlərimi, ruhumu,
Gözəlliklər acını,
Yaşaya bilərdimmi –
Şeir yazmasam əgər?

**01.11.2002**

**BAKININ PAYIZI**

Bakının payızı nağıldı, nağıl,
Onda sevənlərin sinə dağı var.
Onda nə alma var, nə də ki, noğul,
Gah qış havası var,
gah da ki, bahar.

Çiçəklər solduqca fişənglər kimi,
Qopan yel qırğıntək başlanır sanki.
Soyunan qovaqlar tüfənglər kimi
Durna qatarına tuşlanır sanki.

Onunla barışaq gərək könüllü,
Sevgisiz ürəyə ələnər qar da.
Zirvəyə qar atan cığırlar güllü –
Bir ucu qışdadır,
Biri baharda.

Dünya xatırladar çalğısız toyu,
Günəşlə buludlar hey güləşərlər;
Saralan yarpaqlar səkilər boyu,
Yuvasız sərçə tək cükküldəşərlər...

**VƏTƏNDƏ QƏRİBƏM ATA-ANAMSIZ**

Gəlmişəm vətənə, evimiz bomboş,
Yollar da, izlər də çənə bürünüb.
Könlüm açılmayır, olmayır ki, xoş,
Gözümdə qərib bir duman sürünür.

Gəlin qınamayın, oylaqlarım, siz,
Şirin xatirəmsiz qəlbimdə mənim.
Vətəndə qəribəm ata-anamsız,
Gedənim gedibdir, gəlmir gələnim.

Ata-ana qəbri mənə vətəndi,
Gör ki, vətən necə ana olarmış.
Vətənim anamla ortaqdı, təndi,
Ana olmayanda vətən ölərmiş.

Çəmən də, çiçək də, mavi səma da,
Ayrılıq nəğməsi çalır elə bil.
İki qəbir dönüb vətən olanda,
Vətənim məşəl tək qalır elə bil.

Qəribə görünür hər tərəf bu gün,
Vətən də gözümün yaşını duyub.
Bu qəribliyimi ovutmaq üçün,
Mənə bircə ovuc torpağın qoyub.

**Lənkəran,**

**18.05.2002**

## ŞƏHİDLƏRƏ HİMN

Bulud olub göydə ahları,
Qaçmayıbdı nə rəngləri-ruhları.
Şam ömrümə pərvanədi ruhları,
Dan çağımdı, nur çağımdı şəhidlər!

Qəzəbləri qanlı cilov gəmirir,
Dağıdıblar neçə səddi, siniri.
Buz dağları əridəcək həniri,
Öləziməz ocağımdı şəhidlər!

Daldalanmaq sağlığını ar bilən,
Cansız-ruhsuz ürəkləri kar bilən.
Fədailik ünvanını yar bilən,
Qəhrəmanlıq növrağımdı şəhidlər!

Canlandı bu güzəran, aşiyan,
Ölüb, yenə dirilərtək yaşayan.
Bir ömürlə bir millətə oxşayan
Gələcəkdən sorağımdı şəhidlər!

Gül torpağı canlarına çəkibdi,
Duman olub çəmənlərə çökübdü.
Mürəkkəbim qanlarına çəkibdi,
Mənim ilham bulağımdı şəhidlər!

Bu günlər qəmlər bir dənizdi, mən ada,
Adları da yaraşıqdı min ada.
Hər nə varsa torpaq olur dünyada,
Ən müqəddəs torpağımdı şəhidlər!

Gələr, bir gün soruşarıq hanı qan?
O nə xalqdı qürubu qan, danı qan?
Kimliyimi millətlərə tanıdan,
Bir ucalıq bayrağımdı şəhidlər!

## BAKI KÜLƏYİ

Gecəli-gündüzlü nə çağlayırsan,
De nədir gileyin, sözün, ey külək!
Gah nəğmə ötürsən, gah ağlayırsan,
Amma görünmürsən özün, ey külək.

Görünməz çay kimi hara axırsan?
Harda bürkülər var, sinə yaxırsan.
Rahatsız günlərə bayraq taxırsan,
Eşqimiz bənzərdir bizim, ey külək.

Bir yol eşit məni, soruşur ürək,
Çəkib cilovunu cavab ver görək:
Dönük adamların təbiəti tək
Niyə dəyişkəndi üzün, ey külək!

**Bakı,**

**14.06.2002**

**ÇƏRŞƏNBƏ AXŞAMI,**

**NOVRUZ GECƏSİ**

Gözləyir çərşənbə axşamlarını
Ellər eşqə bükür ağ şamlarını.
Həyətdə, küçədə tonqal çatılır,
Qadalar-balalar oda atılır.

Qəlblərdə məhəbbət ocağı yanır,
İnsanlar özünü qanadlı sanır.
Göyərir evlərdə barlı səməni,
Hamı bayram edir son çərşənbəni.

Öz qış köynəyini soyunur torpaq,
Canlanır tumurcuq, gül-çiçək, yarpaq.
Duman bənövşəni bükür örpəyə,
Novruz çiçəyi də oxşayır bəyə.

Novruzun çox gözəl adətləri var,
Keçəl də eləməz keçəlindən ar.
Vurğunam Novruzun hikmətinə mən,
Çirkin də zövq alar gözəlliyindən.

Lələk buludların zirvələrlə tən,
Düzlərin bərəkət, bar verir vətən!

Sənin hər dəqiqən, hər anın, ilin
Nurlu çöhrəsidir yatmış gözəlin.

Ömür təzələnir, torpaq ayılır,
Bayramlar bayramı Novruz sayılır.
Təbiət insanla qurur ülfətin,
İnsanlar torpaqdan alır qüvvətin.

İndicə elimə bahar gələcək,
Təbiət eşqiylə dünya güləcək.
Sən də ey qaraxallı-qırmızıboya,
Həyalı bənövşəni götür gəl toya.

Çəmənlər yam-yaşıl köynək geyəcək,
Ötən qış fəsli də əhsən deyəcək.
Ellər seyr edəcək fəsil göyçəyin,
Alçanın ləçəyin, narın çiçəyin.

Çiçəklər tacını taxar başına,
Yaşıl qələm çəkər torpaq daşına.
Dilsiz qələmi də gələcək dilə:
Simuzər nəğmələr deyəcək elə...

**Çərşənbə axşamı,**

**19.03.2002**

## XƏZƏRİM

Min il ayrı düşsək də biz,

Köksümdəsən, Xəzərim!

Ürəyimdə çağlar şeirim,

Dodağımda ney Xəzərim.

Bu nə səsdi sinəmdəki,

Ötmür, susmur qumru təki.

Yadigarın gözümdəki,

Göy Xəzərim,

Göy Xəzərim!

Təlaşın qəlbimdə

Daim bəslərəm.

Günəşli qoynunun

Daim suslaram.

Nəğməkar dalğandan nəğmə səslərəm.

Hər dalğanı,

hər damlanı

hey istərəm,

hey, Xəzərim.

Bir loğmansan saf havanla,

Xoşdu dostluq çağlağanla.

İlham sussa, sən dalğanla

Döy, Xəzərim, döy, Xəzərim!...

## NOVRUZUN GƏLİŞİNƏ

Çəmən adlı çətri var,
Torpağın öz ətri var.
Əsil şeir sətri var
Novruzun gəlişində.

Əllərə xonça düşür,
Güllərə qönçə düşür.
Elçi quşlar ötüşür
Novruzun gəlişində.

Dağ çayı nəğmə qoşur,
Yapıncı qış dağ aşır.
Ərgən qızlar da çaşır
Novruzun gəlişində.

Torpaq kədərin atır,
Arzuya, kama çatır.
Bənövşə həya satır
Novruzun gəlişində.

Sevgi yandırıb-yaxır,
Kirpiklər ulduz taxır.
Gözəllik aşıb-daşır
Novruzun gəlişində.

Ləçəyindən qan damır,

Lalə od tutub yanır.

Torpaq yuxusun danır

Novruzun gəlişində.

Çay ürəyin qoparır,

Şəlalədən sap alır.

Dəryalara aparır

Novruzun gəlişində.

Eşq-məhəbbət demişəm,

Simuzərəm gəlmişəm.

Ürək xallı sərmişəm

Novruzun gəlişində.

## DÖŞÜ ŞÜARLI BAKIM

Hər addımbaşında dönüb baxıram,
Siqaret reklam, kazino, filan...
Göy tək gurlayıram, çay tək axıram,
Biz kimik bəs onda, ay olan-qalan?...

Bu da əcnəbilər canım əngəldi!
Yerli ola-ola köçəri, zayıq.
Əsrin əvvəlində ingilis gəldi,
Yenə kimlərinsə caynağındayıq!

Görün ki, haqsızlıq nə həddə çatıb,
Yadlar qahmar çıxır doğma vətənə.
Yerin o başından barmaq uzadıb,
Neftimin yerini göstərir mənə!

Can, mənim şerimin qəhəri Bakım,
Qanın axıb gedir,
Şüurun hanı?
Reklamlar, şüarlar şəhəri Bakım,
"Qarabağ bizimdir" şüarı hanı?

**Xızı–Bakı, Müşfiq günü,**

**05.01.2002**

## UZAQ DUR

Ana vətən yollarında yorulsan,
Şır-şır axan çaylarında durulsan,
Öz nəğmənin naləsinə vurul sən,
Yad nəğmənin xoş səsindən uzaq dur.

Sevirsənsə ürəyinlə yar, ağla,
Yar yolunu kəsən dağı yar, ağla.
Vüsal gözlə hicran atın yaraqla,
Dönük sevgi nəfəsindən uzaq dur.

Xoş söz, pis söz... deyiləcək öləndə,
Sən ağlama əbədi qəm güləndə.
Başqaları batsın tamah gölündə,
Sənsə mərd ol, öz nəfsindən uzaq dur.

Harda qaldı Dərbənd, Təbriz, Savalan?
Deməsinlər sən doğrusan, mən yalan.
Azad yaşa, öz ruhunla havalan,
Bəy bülbülün qəfəsindən uzaq dur.

## ÜRƏYİMDƏ GÖYGÖLÜM

***"Bir yatmış gözəl var qoyun uyusun,***

***Uyusun dağların maralı Göygöl"***

Göyçə gölüm qərib düşüb ağlayır,

Arzusunda-diləyində Göygölün.

Ümidini təkcə bizə bağlayır,

Gücü mərdlər biləyində Göygölüm.

Ağa olub başı qoyduq balınca,

Gədə gəlib ağa oldu yalınca.

Saf su təkin atılaydın dalımca,

Millətimin gərəyində Göygölüm.

Bir aləmdim, sənnən oldum min aləm,

Həyat nədi – azı fərəh, çoxu qəm.

Xanbulağım inciməsin deyirəm:

Mən apardım ürəyimdə Göygölü...

**Hacıkənd–Bakı,**

**Aprel, 2002**

## ATA OCAĞI

***Atamın vəfatından iki il sonra kəndimizə güclü yağış yağdı, ata evimin damı uçdu. Qonşular, bütün kənd evin daş-kərpicini yığıb apardı. Mən bunu görəndə ürəyim göynədi. Baxmayaraq ki, orada qardaşım yaşayırdı.***

Ata ocağına gəlmişəm yenə,
İndi nə atam var, nə də ki, anam.
Təkcə iki məzar ocaqdı mənə,
Daşında isinib, oda qalanam.

Həyat gərdişidi, baxın insanlar,
Bir tüstü bürüyüb ana vətəni.
Atadan, anadan qalan nişanlar
Sönmüş alovuyla yandırır məni.

Qəlbimdə əbədi sönməyən ocaq,
Başımda tüstüyə-dumana dönüb.
Nə qədər ki, sağam, mənlə yanacaq,
Dünyanın günəşi bəs niyə sönüb?!

Atam el içində şərəfi yüksək,
Ulduzlara yox, günəşə taydı.
Həmişə ucada duran zirvə tək,
Qaranlıq gecədə nur saçan aydı.

Anam el bağında nazlı pəriydi,

Çöhrəsi həmişə işıqlı, nurlu.

O qəhrəman ana el sipəriydi,

Zəhməti etmişdi onu qürurlu.

Ata hikmətindən mən şair oldum,

Ondan vüqar aldım, mən mahir oldum.

Hikmət dəryasında doğuldum ki, mən,

Möhlət dəryasında qoy sahil olum.

Solmuş çəmənləri göyərtdi anam,

Zəhmət qarşısında heyrətdi anam.

Nifrətə nifrətdi, hörmətə hörmət,

Bizləri beləcə öyrətdi anam.

Atamın qismətdən üç oğlu vardı,

Bəs niyə soyuyub isti ocağı?

Yazıram, ey dostum, bu mənə ardı,

Talana çevrilib mülkü-ocağı.

Ata ocağında yanan çırağı,

Söndürən oğulun gözü kor baxar.

Həmişə boş qalar süfrə qırağı,

Varisi böyüyər ona xor baxar.

Genişə düşsə də, yeri dar olar,

Həyatı, ömürü tarimar olar.

Namərd qızı açar ona süfrəni,

Söyüd ağacı tək bardan xar olar.

Sevinci özünə qismət sananlar,

İşıqlı dünyanın koru sayılar.

Dünyanın qəmindən geri qalanlar,

Başı məzar daşı görsə ayılar.

Olmasa çəməndə, geldə etibar,

Belə bağçalara gələrmi bahar?

Simuzər ərz edir, ya Pərvərdigar,

Dünyada məhəbbət qalsın yadigar...

**Lənkəran,**

**20.08.2001**

## ŞƏHİDLƏR XİYABANINDA

Hərdən-hərdən

Şəhidlərin uyuduğu,

Xiyabana yolum düşür.

Gül qoyuram qəbirlərə,

Gül qoyanda

Güllə birgə

Qəbir üstə qolum düşür!

Onlar harda vuruldular,

Hansı vətən davasında?

Çoxu haqsız qurban getdi

Satqınların qovğasında,

Pulgirlərin fitvasında!

Elə bil ki, mən deyiləm,

Addımlarım daş bağlayıb.

Qızıl-qızıl qərənfillər,

Gözlərimdə yaş bağlayıb.

Ruhlar uçsun,

Uçsun,

Uçsun –

Ulu göylər dolmalıdır.

Deyirəm ki, vətən deyə,

Əvvəl ordu yaranmalı,

Sonra şəhid olmalıdır!...

## KİRPİYİMDƏ YAŞI GÖRDÜM

Ana yurdum, torpağımı
Mən bağrımın başı gördüm.
Kim saymırsa söz bağımı,
Düşünməkdə naşı gördüm.

Ac ağlayır narın-narın,
Toxlar gəzir harın-harın.
Satqınların, yaltaqların
Sinəsində daşı gördüm.

Tanrı güdsün fələyimi,
Sındırmasın diləyimi.
Düşünəndə ürəyimi
Kirpiyimdə yaşı gördüm.

## İNSANI QORU...

Dədədən-babadan bizə nəsihət,

Özünü, evini, obanı qoru.

Onsuz da dərdlidi bu dərdli millət,

Ömründə bir dərdi dadanı qoru!

Kim çıxa bilib ki, tanrı sözündən,

"Allah" da tapılar özü-özündən.

Lap düşüb gəlsən də i Göy üzündən,

Yerdəki bu məzar-əbanı qoru!

Vətən yarpaq-yarpaq qoparılırsa,

Tarix varaq-varaq aparılırsa,

Səndə "Şikəstə" tək zəngulə varsa,

Səsini-ününü, sədanı qoru!

Heç gəzib dolanma pərişan, ürkək,

Dünyadan böyükdü bir yumruq ürək.

Qoruya bilməzsən bu cahanı tək,

Böyründə tək qalmış insanı qoru!...

**SƏN MƏNİ UNUTMA...**

Sən məni unutma,

Unutma heç vaxt,

Biz dönük çıxmayaq

Tale deyənə.

Bəlkə də bir əsr, on əsr qabaq

Beləcə istəkli olmuşuq yenə.

Ömrə pay kimidir səs də, soraq da,

Duyğular insanın qanından keçir.

Düşünə-düşünə xoşbəxtlik haqda,

İnsan xoşbəxtliyin yanından keçir.

Unutma,
Həyatın öz qanunu var:

Hər kəs tapa bilmir dər səadəti,

Bəlkə bu dövrdə çox az adamlar,

Qoruya bilirlər saf məhəbbəti...

## MÜQƏDDƏSDİR ŞƏHİD RUHU

***Bir qadın yalandan "ərim şəhid olub" deyə özünü şəhid ailəsi kimi qələmə verdi.***

90-cı il, 20 yanvar...

Bundan əvvəl hələ neçə qırğınlar...

Bu illər, bu  günlərdə sönməz dərdlərlə

Dolu neçə qurbanlar...

O şəhidləri, körpə ruhları

Unutsaq,

Nəsillər bizi "unutmaz"!

Ölüm qapı-qapı gəzirdi o gün,

Oğullar fədaya hazırdı o gün.

Şəhidlər adların odun-alovun

İçindən çıxarıb yazırdı o gün.

Vətən faciənin hər üzün görüb,

Mərdlik zaman-zaman şəhidlər verib.

Çevirib daş-qaşa, mirvarilərə,

Torpaq şəhidlərdən həmail hörüb.

Vətən o gecədə öz şəhidini

Doğdu öz qoynunda həm şahidini.

Poza bilməz nə dilim, nə də qələmim

Şəhidlər önündə olan əhdini...

Göz yuma bilmərəm mən o qadına,

Xəyanət edirsə şəhid adına.

“Ərim şəhid olub” iftirasıyla

Şəhidlik gedirdi yalan badına.

İriş-iriş gülür, “şairəm” deyir,

Haramlıq libasın “qüdrətə” geyir.

Qızarmır sifəti, bozarmır üzü,

Dediyi yalanı vicdanın yeyir.

Vətəni aldadır, milləti əyir!

Mən unutmamışam, heç vaxt unutmam,

Nə də qadir deyiləm gözümü yumam.

Öz güzəranı üçün dünyaya gəlmiş,

Bu cür canbazların önündə duram.

Ah-nalə içində Qarabağ səsi,

Bacı fəryadları, ana naləsi.

İnləyir içimdə yanğın nəfəsi,

Bağışlayın məni, şəhid ruhları.

Görəsən yolunu əyri gedəndə,

Qarabağ dərdini oyun edəndə,

Vətənin yasını toyun edəndə,

Nələr düşünürsən, ey düşük insan?!

Ağrıdım, çəkilməz dərdi-sərimdən,

Bu yalan kəlməni eşitdim səndən.

Yapış vicdanından, düşün dərindən

Şəhidlər ölməyib, görünür

Göylərin ətəklərindən

Min ulduz kimi,

Baxır ölümsüzlük üfüqlərindən!

Bulud tək dolanır şəhid haləsi,

Gəzir oymaq-oymaq, ruhlar naləsi.

Unutqan, nankoru, satqını görsə,

Çökər çəmənlərə qanlı jaləsi.

Şairlik, şəhidlik qoşa addımlar,

Bir-birinə tən.

Ona malik olmaz hər yoldan ötən.

"Şairəm", "Şəhid ailəsiyəm" deyən riyakar,

Görən düşünürmü

Hansı xain qarşısında

Dayanır vətən?!

Torpağı əllərdə olan bir xalqın

Haqqı yox qəhrəman çağırsın adın.

Bil ki, vətən daşı qaş itirəndə,

Kədəri sənindir,

Sevinci yadın!...

**ŞAMAXIDA**

Doğma Şamaxının çölü, çəməni
Almışdı qoynuna vüsətlə məni.
Elə bil ellərin bayramı gəlib,
Düzlərə sərilib yaşıl çəməni.

Lalə gəlinqızın xınası kimi
Əlvandır çöllərin, yanaqlarında
Qızaran günəşin aynası kimi
Yaşayır illərin sınaqlarında.

Sığal çəkir əsən xəfif meh ona,
Kəpənək can atır xalına qona.
Baxıram dağların yaşıl qoynunda
Yamaclar giribdir qızıl bir dona.

Nazlı təbiətin möcüzəsinə,
Simuzər, baxdıqca alışır sinəm.
Köksümün altında döyünən ürək,
Dönür bu çöllərin lalələrinə.

**30.05.2002**

## AMAXI BALACA, MƏZARLAR UCA

***Sabirin 140 illik yubileyi zamanı Şamaxıda***

Deyirlər dünyada belə qayda var:
Sənətkarlar daim yurdu yaşadar.
Şamaxı böyük, qədim bir diyar,
Bu diyarın da öz dahiləri var.
Seyidin, Sabirin yanan çırağı,
Mən çox eşitmişdim bu xoş sorağı.
Bilirdim burda bir vətən yaşayır,
Ulu şairlərin adın daşıyır.
Düzləri laləli, çölləri gülşən,
Lakin görməmişdim bu yerləri mən.
Günüm bu diyara saldı güzarın,
Ziyarətə gəldim Sabir məzarın.
Qədim Şamaxıda dahi yazarın
Qəbri nurla dolsun, ruhu şad olsun!

Sənətlə ucaldıb haqq səsimizi,
Ağlaya-ağlaya güldürüb bizi.
Əsrdən-əsrə düşdükcə izi,
Qəbri nurla dolsun, ruhu şad olsun!

Aqil insan görər əzəldən sonun,
Dağlar ki, daşdandır, dəyişməz donun.

Həyat Sabirindir, Sabir onun,

Qəbri nurla dolsun, ruhu şad olsun!

Gözümdə bir səhnə canlanır heyhat!

Seyid də, Sabir də məzarda rahat.

Uyuyub getmişdi haqq dünyasına

Dünyasa batmışdı sanki yasına.

Uyuyan dahilər qoynuna yardı,

Şamaxı möhtəşəm və bəxtiyardı.

Sanki sığışmırdı bu yurd-yuvaya...

Bu iki ovuc torpaq uca meyardı,

Şamaxı balaca, məzarla uca.

**31.05.2002**

# *QÜRBƏTİN GÜLÜ*

## KƏDƏR YAĞIŞI

Bu gün göylərə neçə kərə,
Özümdən şikayət eylədim.
Sinəmdən sərgilənmiş
Dərdimdən dərd söylədim.
Göylər başına
Kədər yaylığı bağladı.
Ağappaq,
Saçaq-saçaq buludlar
Yaylıq altdan
Damcı-damcı yaş töküb
Sərin-sərin ağladı.
Kədər yağışı hər yanı bürüdü,
Göylərin gözləri boşaldı,
Dünyanın ürəyi hələ də dolu qaldı.
Damcılar dolu dərya,
Damcı boydadır dünya.
Nədən olur bu sirri göylərin
Gözləri boşalır, dolur;
Dərdimi dərdinin
Fikrindənmi demir?!
Həsrət dərdindənmi
Dinmir?!

İnsanlardan zərrə-zərrə aldığın

Fikir dünyasını

Damla-damla tökən

Göylərin gözləri daim nurludur.

Bu nurlu göy gözləri

Mənim türk dünyamındır –

İlahidən şəfqətli, qürurludur;

Əllərimə sığışır

Sirli-soraqlı dünya,

Əli çıraqlı dünya.

Ucalardan, ucadan

mənə taleyim baxır –

Dünyanın dolu gözləri

gözlərimə qarışır,

axır...

**Stokholm,**

**15.11.2004**

## NƏRGİZİM

Uzaq, yad bir ölkədə,

Qəflətən göy çəməndə,

Sərin şimal mehində,

Gördüm səni çimməndə,

nərgizim!

Qəribə bir həyəcan,

Məni qucdu, bürüdü,

Duyğular qanadında

Uçdum, uçdum,

Sonra da Baltik suları

Aldı qoynuna.

Sahil boyu

Ruhumu hey sürüdü,

Sən soyuqdan əsirdin,

Ya küləkdən bilmədim!

Ovcuma bükdüm səni, əzizlədim.

Nəfəsimlə isindin,

Təravətinlə dindin.

Qoxladım, öpdüm səni,

Nədən belə küsmüsən,

Qərib-qərib,

Çiçəklərdən uzaqda,

Çəmənlikdə bitmisən?

Duydum səni nəfəsimlə dinəndə –

nərgizim!

Bəlkə yolu səhv salmısan,

İtmisən,

Yoxsa gülüm, bir şairin ürəyini

Ovutmağa can atmısan,

Azmısan?

Gör necə də ləçək-ləçək

çiçəklənib açmısan.

Torpaqla pay gəlmisən

Vətən salamı kimi,

Mənə belə əzizsən.

Ürəyimdə gül açan

Həsrətimlə əkizsən,

nərgizim!

Ruhuma nur səpələdin,

Baharımsan, yazımsan;

Qoy qoxlayım bir də səni,

İtirmisən qızılgülü, süsəni;

Torpaq varsa, vətənin

Mənimsə torpağım, vətənim,

Gülüm, nərgizim mənim!

**İsveç,**

**8.04.2004**

## BALTİK SAHİLİNDƏ

Baltik dənizi –

Sanki zümrüd qaşından

Rəng almış onun bənizi.

Dalıb zümrüd sulara,

Can verib duyğulara.

Axıram xəyallara,

Qolları qollara,

Yolları yollara,

Bağlayıb gedən

Su nəğməli,

Qu nəğməli

Dalğalar dəli,

Cilvələnir nur kimi;

Hərdən də büllur kimi

Yanır, parlayır.

Mənimsə ürəyimdə

Qərib-qərib mavi sular,

Gözlərimi çalxalayır,

Əllərimi yanağımda saxlayır;

Başımın altun tacı,

Min bir dərdin əlacı,

Göz-bəbəyim Xəzərim.

Ürəyimdə canlanır,

Duyğularım duman tək

Vətənimə yol alır.

Xəzərim, sirdaşım mənim,

Demə gözlərimin

yolları dardır,

o geniş yollarında

ürəyim vardır.

Həmişə qəlbinə

yoldaşdı, yardı,

Sənin mavi gözlərindən

Axan göz yaşım mənim;

Baltik sahillərində

Bu zümrüd sular,

Qoşulub mənə,

Mənsə valehəm,

Gözlərimdə mavi

Sularla bahəm,

Gör necə də parlayır

Damlaların hər biri,

Elə bil unutdurmaq

İstəyir

Bir qərib qəlbinin

Həsrət dərdini!

**İsveçrə,**

**12.05.2004**

## QƏRİNƏLƏR ÖNÜNDƏ

***S. Vurğunun xatirəsinə***

Nizamla qatar-qatar öz sırasında,

Göllər sonası naz-qəmzə satır,

Burda çöllər qızı şəd-şəkər qatır yuxusuna,

Şirin-şirin yatır öz talasında.

Nə gözəldi azadlığın gül nəfəsi,

Çöl-çəməndə, hər tərəfdən,

eşidirəm gəlir səsi.

Həzin-həzin səpələnir onun azad havası,

Yoxdu burda ovçu, ceyran davası,

Arxayındı ana ceyran,

Hürkmür, baxır

heyran-heyran.

Firavandı hər bir anı,

Heç bir şair ürəyindən

Keçmir onun axan qanı,

Şairimi düşünürəm,

Qərinələr önündə,

Düşündükcə üşünürəm,

Sətirimin sonunda;

Dərd götürüb çölə qaçdın,

İnsan-vicdan davasında,

Ceyranlara, cüyürlərə könül açdın,

Şair ömrün nəvasında.

Dərdi çölə səpələdin,

Yarı böldün ömrünü sən,

Dəniz kimi ləpələndin

Göy üzünə dərd sərmisən.

Buxar-buxar,

Duman-duman,

Gedib aman, gedib güman,

“Ovçuluğa meyl saldım,

Gecə-gündüz çöldə qaldım”.

Bəlkə yüz il yaşayardın

Azadlığın havasında.

Açmasa da qapıların bağlı göylər,

Bu sirli-soraqlı kainat,

Qəm bağından

Nələr söylər?!

Böyük gördüm şair dərdin,

O gündən ki, azadlığa

Sinə gərdim!

Bu dərdlərə kimlər dözdü tariximdə,

Mən görmədim,

Mən görmədim!...

**İsveç,**

**19.10.2004**

## ŞİMAL GECƏSİ

Avropa mehilə darandı telim,
Yeni bir il ilə üz-üzə gəldim,
Açanda qapımı bu təzə ilim,
Ona qələmimlə süfrəmi sərdim.

Şerim çeşid-çeşid düzüldü bu dəm,
Avropanın şimal sahillərinə.
Vətən məhəbbəti qəlbimə həmdəm,
Baş vururduq ömrün şah illərinə.

Şimal gözəlliyi hakimdi burda,
Hər tərəf bəmbəyaz tül tək görünür.
Təbiət bir qışa təhkimdi burda,
Sanki ağ örpəyə dünya bürünür.

Qışın çox füsunkar gözəlliyi var,
Qarlar dağ kimidir, durub yan-yana.
Buzdan sırğa taxıb evlər, ağaclar,
Qış öz zinətini vurur hər yana.

Bizim dağlar gəldi gözüm önünə,
Vətən ürəyimə, köksümə köçdü.
Onun çəmən-çəmən açan gülünə
Baş əyib qoxlamaq könlümdən keçdi.

Ulduzlar sıravi əsgərə dönür,

Yerin bəzəyini qorumaq üçün.

Bəlkə dəli külək göylərdə donur,

Bu qış növrağını pozmamaq üçün.

**Avropa,**

**31.12.2003**

## SƏDAQƏTDƏN QƏM ÜZƏRSƏN

Ağrılarım ürəyimdə,
Həsrətimsə dözümdədir.
Sevgi yükü kirpiyimdə,
Eşq dünyası gözümdədir.
Bəs əbədi həsrət izi
Gözlərimdən çəkilərmi?
Məni sənə aparan
Yollarıma səpilərmi?
Yormaz məni bu sevginin
Ağırlığı,
Üzər məni bu sevginin
Fağırlığı.
Fağır sevgi ürəyimdə
Məğrur gəzər.
Məhəbbətin əzginliyi
Qüvvət verər dizlərimə,
Zər çiləyər sözlərimə.

**DURNA QATARI TƏK**

**KÖÇÜR BULUDLAR**

Şimal göylərində iz salıb yenə,

Cənub ellərinə uçur buludlar.

Durna qatarı tək yol alıb yenə,

Köçəri quş kimi köçür buludlar.

Yerin ürəyindən həsrət bulublar,

Kədəri sevincdən seçir buludlar.

Mavi səmalarda büsat qurublar,

Qəmləri zəmi tək biçir buludlar.

Gəlir göy üzünə sərir özünü,

Baxıram bircə yol açmır gözünü,

Gözləri dolsa da, demir sözünü,

Dərdini içində içir buludlar.

Bulud ürəyini sökməyir, gedir,

Bulud göz yaşını tökməyir, gedir.

Gedir yana-yana göynəyir, gedir,

Bəlkə dərd götürüb qaçır buludlar.

Bəlkə dostlarıdır yağan bu qarlar,

Bəlkə qohumudur donan budaqlar,

Bəlkə vüqarıdır qardan bu dağlar?

Pozmur növrağını, keçir buludlar.

Kədərdən sevinci yaş alıb gedir,

Mənim ürəyimə boşalıb gedir.

Cənub ellərinə baş alıb gedir,

Həsrət ürəyimə çökür buludlar.

Gül açır ürəyim dilim dinəndə,

Vətən göylərinin günəşi məndə,

Deyirəm, Simuzər, yanan sinəndə

Zülmətdən nur alır, saçır buludlar.

**Avropa,**

**25.12.2003**

## BAKI

Şəhərlər içində daş-qaşım, incim,
Yoxdur bərabərin, tayın, ay Bakı.
Qəlbimdə əbədi eşqim sevincim,
Tanrıdan verilmiş payım, ay Bakı.

Xəzərin bir aləm, özün min aləm,
Gündüzün dünyanın parlayan gözü.
Vəsf edib yazıram ucalır naləm,
Yetmir qüdrətinə şerimin sözü.

O Qız qalası, İçərişəhər,
Hər daşın-kəsəyin göz gözəlliyi,
Qədim tarixindən gətirir xəbər
Sənin hər daşının öz gözəlliyi.

Qobustan qalası, mahnı çələngin,
Başında tac kimi nur qayəsidir,
Bu qara daşların tarixi zəngin,
Sənin öz dünyanın salnaməsidir.

Günəş yanağından axıdır qanın,
Düzdə lalələrin ləçəklərinə.
Qənirsiz gözəllik şərəfin, şanın,
Keçir nəsil-nəsil çiçəklərinə.

Şəfəqlə açılan mavi gözlərin,

Xəzərim, nur saçır sanki dünyaya,

Gülür addım-addım ayaq izlərin,

Dərdlər dərmanısan min bir yaraya.

Vətən, səninləyəm əlimdə qələm,

Zəngin ümidlərim gümüşdü, zərdi.

Bu ömrü vermişəm dünyaya sələm,

Axtar, tapa bilsən, de Simuzərdi.

**Avropa,**

**25.12.2003**

## ANA VƏTƏN

Vətənimin torpağına

Hər səhər sanki müjdə göndərir ərş.

Xəzər, ana Xəzər,

Sənin qoynunda

Doğanda

Günəş.

Sənin od köksündən

Süzülüb

Axır bu atəş.

Xudadandır

Bu böyük sərvət,

Axır gözəlliklərdən

Dolur ürəklərə;

İsidir övladını,

Böyük məhəbbət tək,

Alovdan yaranır burda hər insan,

Qızaranda üfüq, söküləndə dan.

Dünyanın vücudu burda

İsinir;

Burda göy yerə enir,

Yerlər sevinir;

Vətənimin başı üstə dalğalanır

Dünyanın Günəş adlı

İşıq bayrağı.

Gülür, sevinir Azərbaycan

Torpağı.

**İsveç-Qalivari, 24.12.2003**

**GÜNƏŞİN NUR ŞƏLALƏSİ**

Çəmənlər sərdilər düzlərə xalı,

Güllər yanağından

Axıdır balı,

Desələr hardadır cəhənnəm, cənnət?

Söylə, yerin desin

sənə təbiət

sirlərlə doludur başındakı tac.

Axtar fəsil-fəsil sirlərini aç –

Sveriya dağlarında gözəllik gəzir,

Daşlar ceyranların

Ayağın əzmir.

Vətən daşlarını bəzəyir burda

İnsanlar çeşid-çeşid.

Bəxş edib yurda!

Simuzər, valeh edir məni təbiət,

Axır ürəyimə həsrət,

Məhəbbət,

Qürbətdə günəşim, ayım,

Dəyişmir,

Bir də Allahdan gələn

Payım dəyişmir...

**İsveç,**

**06.04.2004**

## ŞİMALDA BAHAR

Yaşıl don geyindi şimal meşəsi,
Bəzədi düzləri
qız bənövşəsi,
lalənin, nərgizin çöhrəsi güldü,
yasəmən, qızılgül
ətrə büründü.
Torpağın sevincdən açdı gülləri,
Bülbülün açıldı şirin
dilləri.
Eşitdim nəğməsin qaranquşların,
Səf-səf uçub gələn
Karvan quşların.
Rəngbərəng buludlar göylərdə süzdü,
Göylər gözəlliyi gözümə
düzdü.
Güldürdü gecəni Ayın haləsi.

**QƏM BULUDU**

Bulud yenə
karvan-karvan ötüşür,
Ürəyimə bulud boyda
Qəm düşür;
Düşünürəm;
Sevən ürək
Bulud kimi
Qəm yükünü daşıyır,
Fəqət ölmür, damla-damla
Həyat boyu yaşayır;
Bir də bulud qəm dəryası yaradır:
Əgər bilsən bu dəryanın
Ünvanları haradır?!
Mənim sevgi qismətimə
o düşür;
muncuq kimi cilvə-cilvə
damla olub axsa da,
məhəbbətin alovuna
od düşür!...

**23.05.2004**

## AVROPADA BAHAR

İsveç torpağında söküldükcə dan,
Yaşıl don içində sevinir hər yan.
Rahat nəfəs alır burda təbiət,
Dünyanın gözündən axır məhəbbət.

Yarpağın, otların qəlbi daralmır,
Çiçəyin ləçəyi vaxtsız saralmır.
Çəmənlər göyərir, boy atır qat-qat,
Nə qədər ömrü var, yaşayır rahat.

Mənə tanış gəlir otların rəngi,
Geyimi, ətiri, həm də ahəngi.
Bu təmiz təbiət sanki dil bilir,
Baxıram, mənimlə danışıb-gülür.

Quşlar insanlardan qorxub-çəkinmir,
Elə azad gəzir, hürküb-diksinmir.
Bu balaca quşcuğaz huşumu alır,
Az qala ayağım altında qalır.

Meşənin yolları yol alıb gedir,
Yaşıl vadilərin köksündən keçir.
Quşlar cikkildəşir, bülbül oxuyur,

Gözəllik dünyaya çələng toxuyur.

Ağaclar budaqdan hörüyün atır,

Hörüklər Günəşə naz-qəmzə satır.

Büküb kainatı qumaşa, zərə,

Bahar bəxş eləyir pay Simuzərə.

**İsveç, Stokholm,**

**20.05.2004**

**İSVEÇİN GÖZƏLLİYİ**

İsveçdə talanın aralarında,

Dovşanlar, dələlər adamı süzür,

Hətta insanların sıralarında,

Göllərdə ördəklər arxayın üzür.

İnsana zövq verir əlvan meşəsi,

Baxıram, qəlbimdə arzu oyanır.

İnsanın gözəllik olub peşəsi,

Meşə yollarında çıraqlar yanır.

Fauna, flora yaşayır burda,

Həyat nur paylayır sanki cahana.

Quşlar dəstə-dəstə gəlir bu yurda,

Təbiət eşq ilə baxır insana.

Mirvari daşı tək daşlar görünür,

Dağların-düzlərin boğazlarında.

Dərədə, yamacda duman sürünür,

Sanki yaşmağı var ağızlarında.

Səmadan rəngbərəng buludlar axır,

Sanki çələng hörür göyün qaşına.

Gözəllik üzülür göylərdən axır,

Tökülsün yerlərin güllü başına.

Həyatda gözəllik yaradan insan,

Zəhmətlə, hörmətlə yetişir başa.

Məhəbbət dil açır, şadlanır hər an,

Dünya başdan-başa dönür daş-qaşa.

Ey Simuzər, sən də eşqinə sarın,

Ax bu gözəlliyin ənginliyinə.

Min büsat yaradan saf insanların

Varasan həmişə dərinliyinə.

**DÜNYANIN MİN SİRRİ VAR**

Ölkə-ölkə, diyar-diyar
Bu dünya,
Hər ölkənin, hər diyarın,
Sirri var;
Gözəlliklər gözlərimə tökülür,
Ömrü qalır baxışımda
bəxtiyar,
bəlkə dünya gözlərimdə
fırlanır,
bilmirəm,
uçub gedir yuxularım hər səhər,
axşam olur,
birtəhər;
bir-birinin arxasınca
gələn fəsil
fəsillərin əslidir,
payızı qızıl,
qışı zər,
dünyanın min sirri var,
bir sirri də Simuzər.

**İsveç,**

**24.09.2004**

## ŞİMALDA QIŞ

Şimal ölkə, zər kimi qar,
Gör bir qışın nə hökmü var.
Ürəyimdə bir anlığa,
duyğu doğur,
şübhələrim məni boğur.
Elə bil ki, bu təbiət,
donub baxır,
donmuş dünya məni yaxır,
şirin-şirin,
sərin-sərin;
birdən dönüb qoxlayıram,
qış nəfəsli təbiəti.
Duyuram qış qoxusu
gözlərimdə yuxusunu, qış yuxusu;
üstünə qar yapıncısın atıb yatıb;
sanki qışdan şəkər alıb
yuxusunaqatıb yatıb.
Çox füsunkar yuxusu var,
burda donmur ağaclar.
Onlar qardan yapınc alır,
isti yuva altındakı bu ağaclar
şirin-şirin yatıb qalır.
Mən baxıram,
təbiət də dönüb baxır,
sirli-sirli gözlərimə
dolub baxır!...

**İsveç-Qalivari, 04.01.2004**

## SEVƏN ÜRƏK

Axşam oldu, şər qarışdı,
Könlüm qərib quşa döndü.
Məhəbbətlə qəm alışdı,
Ürək nələr duydu indi.

Sevən səsdi nəğməli tar,
Qırılmayan telləri var.
O həzindi laylay kimi,
Duyğum onun sarı simi.

Dünya eşqin qollarında,
Həsrət tutub dörd bir yanı.
Dolanıram bu dünyanı,
Sədaqətin yollarında.

Ürəyimdə saf duyğular,
Mən saflığın durğunuyam.
Həsrət məni soraqlayar,
Mən həsrətin vurğunuyam.

**Stokholm,**

**22.01.2004**

## *KÜLÜNLƏ OYANA BİLSƏN...*

**BULUDLAR**

Buludlar səmada,

Saçlarını darayır,

Dağ başında şəlaləyə bənzəyir;

Buludların bəzəyi

Yer üzünə baş əyir.

Elə bil dünyanın

Gözəlliyi gəlir,

Mənim gözlərimdə gəzir.

Qəmlərimdə itir!

**Avropa,**

**12.05.2004**

## ƏSL SEVGİ

Bir dünyalıq xəzinə də,

Gəlsə gedər,

Tək məhəbbət gəlsə qalar,

Həyat boyu o bəs edər.

Əsl sevgi olsa əgər,

Yaşayacaq bu dünyayla

Yaş edəcək.

Torpaq olsan torpağını,

Bir qiymətli qaş edəcək.

**09.05.2004**

**QALİVARİDƏ QAR**

Qalivaridə hər tərəf

Ağ səhranın

düzlərini xatırladır.

Ağır-ağır yağdıqca qar.

Qar dağları qatar-qatar,

Düzüldükcə axıb

gedir bu yollar.

## AĞ ÇƏMƏNLİK

Növrağı var burda qarın
Yağır elə narın-narın.
Külək əsmir harın-harın
Elə bil ki, ağ çəmənlik
Yerə enir göy üzündən
        göydən köçən qar dağları,
Qar bağları
Baxışları oxşayır...

## SÖZLƏ SÖHBƏT

Söz oxudum – qardı, qar,
Tir-tir əsir,
Söz ağlayır.
Öz içində dərdi var,
Ağlamasın, neyləsin,
Söz söyləyən
Öz sözündən
Eyləmir ar!
Söz oxudum;
Söz, nə gözəl incisən!
Xətrinə dəyən olsa,
İncisən
Dilbiləndən üz çevirmə,
Dilbilməzdən inci sən.

## KÜLÜNLƏ OYANA BİLSƏN

Vətən səni daş edəcək,

Torpağınçün yana bilsən.

Torpaq səni qaş edəcək,

Külünlə oyana bilsən.

## GÖYLƏRİN BƏZƏYİ

Ağ dumanlar daraq taxıb telinə,

Başım üstə

Dünya çələng bəzəyir.

Yeddi rəngdən kəmər taxıb belinə,

Göylər,

Buludlar durub

Ləpələyir,

Səpələyir,

Saçını;

Bu gözəllik karvan-karvan

daşıyır öz yükünü.

**İŞIQLI ÜRƏK**

Günəşli Azərbaycan –

Parlayan Vətən.

Ürəyim yanmağı

Öyrənib ondan,

İnsana dünya demişəm,

İşıqsız ürəyə,

Qaranlıq dünya,

Qəlbimi Günəşə vermişəm,

İsitsin qaranlıq dünyaları da!...

**DOST CIĞIRI**

Məndən ayrı düşüb,
yolla, çığırla
dostumdur gedən.
Baxıram dalınca,
gör duyğum nədir,
məni dostlarımdan ayrılmaz edən,
bütün yol-cığırlar ürəyimdədir.

**10.07.2004**

## GÜNƏŞ

Salam olsun sənə, Günəş,

Ey nurabələş Günəş.

Səni görüb sevinir

Həm yerlər, həm ərş, Günəş.

## BİLMİRƏM

Bilmirəm

Bu yerlədə

Günəş batır,

Ya çıxır necə,

Baxıram heç zaman,

Ay qalmır

Gecə,

Duyulmur, gündüzdür,

Yoxsa ki, gecə!...

## ALİM VƏ ELM

Elmin təridir alimin varı,
Əridər buz kimi qaranlıqları.
Dünyanı fəth edər alimlə elm,
Alimim olmasa, yaşamaz elim.

Alimin sorağı elimdən gəlsə,
Elimin çırağı alimlə yanar.
Alim qüdrətini elmdə bilsə,
Elim zərrəsini alimdə bilər.

**12.07.2005**

## DİRİ-DİRİ ÖLƏSİYƏM

Canım vətən,

Gözüm vətən,

Sənin kəsəyin,

Daşın üçün

Darıxmışdım mən;

Burda hər şey mənimdi,

Su mənim, hava mənim,

Torpaq mənim

Torpaq üstə düşən yaşıl

Ya da xəzan

Yarpaq mənim.

Təpədən-dırnağadək

Tam varlığım

Məhəbbətim...

Sənin ana qucağının

Körpəsiyəm,

Səndən ayrı düşsəm,

Vətən,

Diri-diri öləsiyəm!

**Bakı,**

**05.02.2005**

## BU ŞEİR NƏDİR

Məndən soruşmayın bu şeir nədir?

Ruhumu vermişəm ilham səsinə,

Mənim hər kitabım

bir hədiyyədir

Vaxtsız gedənlərin xatirəsinə!

## AŞIQ ATDIM

Aşıq atdım,

Nə uduzdum, nə uddum?!

Dərd üstünə dərd qalandı,

Mən uddum,

Bu gün gələn dərdlərimi

Görəndə,

Dünən gələn dərdlərimi unutdum.

## ŞƏHİD – VƏTƏN

Qəmli buludların göz yağışları
Alovlu köksümün sərinliyidir.
Vətənin üzündə dərd qırışları
Dalğalı dənizin dərinliyidir.

Dağların döşündən süzülüb axır,
Yazın gözlərində leysan yağışı.
Şəhid balasını köksünə sıxır,
Torpağın qoynunda Ana ağuşu.

**Lənkəran,**

**Şəhidlərin dəfn olunduğu gün,**
**22.03.2005**

## MEŞƏ

Meşə...

Yazıq qəlbim boranlı, qarlı,

Bulaqlar axırdı,

Göz yaşı kimi,

Kimsə keçib gedib,

Əli mişarlı,

Kötüklər qalmışdı

Başdaşı kimi...

## YAĞIŞ

Donmuşam yerimdə,

Gör nə zamandır,

Sən dəli leysanın,

Oyununa bir bax,

Yanıb tüstüləndim,

Tanrım amandır,

Ey yağış, ey yağış,

Alovuma yağ!...

**Bakı,**

**25.03.2003**

## KÖRPÜLƏR

***"Öləndə körpü olam,***

***Düşəm qalam vətəndə."***

***Səyavuş Sərxanlı***

Körpülər fikrimi çox çəkib düzü,
O da bir memarın daş heykəlidir.
Şəhərin şəhərə canlı körpüsü,
Ellərin ellərə çatan əlidir...

**MARALGÖLDƏ**

Bu gün
Bu gözələ
Gətirdim pənah,
Yenə inildəyən könül simdir;
Göygöldən nə qədər yazıblar, Allah,
Maralgöl doğrudan
Maral kimidir.

**Hacıkənd,**
**27.04.2002**

## KƏPƏNƏK ÖMRÜ

Bu da bir ömürdür –

Düşünsək dərin,

Dünyadan gül ətri

Daşıyır onlar;

On saat ömrü var kəpənəklərin,

Onunçün tələsib

Bir zərif ömürçün

Qanadları əsir

yaşayır onlar.

### BAXDI BƏNÖVŞƏ

Torpağa həsr edib tənha özünü,

Gülləri yandırıb yaxdı bənövşə.

Sevib

Boynubükük

Həsrət ömrünü,

Yalnız anasına baxdı bənövşə.

**20.03.2002**

**SEVƏNDƏ, ÖLƏNDƏ**

Qəlbə çök,

Parıldat paslı fikrini:

Qanada bənzəri var

qoşa qolun da!

Sevəndə

Sevəsən ölənə kimi,

Öləndə

öləsən Vətən yolunda!

**16.10.2002**

## İNSAN VƏ BÜRCLƏR

***(zarafatyana)***

İnsandır bəzəyən qoca cahanı,
Onun günəş qədər məhəbbəti var;
– Çox da tərifləmə
Mənə insanı,
Onda hər heyvanın
Təbiəti var!

**FƏVVARƏLƏR BAĞI**

Ey mənim paytaxtım,

Əzəlim Bakı,

Ömrümün günəşli

Şəhərisən sən.

Çinarlar şəhəri –

Gözəlim Bakı,

İndi fəvvarələr şəhərisən sən!

**Bakı, Novruz bayramı**

**BƏXT DƏ TƏSADÜFDÜR**

Qaranlıq işıqla necə görüşür,
Qismət də
Açıqca
Bazardı, bazar;
Təsadüf elə bil zənbilə düşür –
Birinə tac verir,
Birinə məzar...

## ƏL ATMAYIN

Mənim taleyimə əl atmayın ki,

Ahım dağa çökər dumandan betər.

Mənim ürəyimi qanatmayın ki,

Qanımdan

Alovlu

Lalələr bitər!...

## MƏHƏBBƏT

Məhəbbət – yorulmaz, səngiməz ah ki!

Soruş bu nə sirdi, gidi dünyada?

Onun anlaşılmaz işinə bax ki:

Bir əli oddadır,

Bir əli suda...

**ŞƏLALƏ VÜSALI**

Ondan küsüb gedən çayın dalınca
Özünü qayadan atdı şəlalə,
Öldü şəhid kimi
Əli yalınca
Di gəl ki,
Vüsala yetdi şəlalə.

**SİRDAŞ OLAN YOLDAŞ QALSA**

Qoşalaşsa həyat boyda sevgi bağı,
Yol izlər də çələng hörər
Sanki gəlinsayağı,
Zaman-zaman şöləlşənər
Məhəbbətin növrağı
Ömür-gündə sirdaş olan
Yoldaş qalsa

**ƏRSİZ QALAR**

Dağ selləri dağ qaşından
Qara daşı yuyub salar.
Qapazaltı ər axtaran
Ömür boyu ərsiz qalar.

## VƏTƏNİM

Köksümün başında

Çırpınır nəsə,

O bənzəmir nəyə,

Ya da kiməsə,

Düşünmə ürəkdir,

Ürək deyil ki,

Ürək deyir ki,

Ürəyi yaşadan,

Bir varlıqdır o

Bu duyğum olmayıb,

Mənə bir anlıq,

Həyat sandığım Vətən,

O, firavanlıq,

Onunla həmişə, hər yerdə,

Yaşaya bildim,

Kədərlə kədərləndim,

Sevinclə güldüm;

Fırlanan bu dünya da

Eşqim məhəbbətimlə,

Fırlanır mənim!...

**06.01.2004**

**VƏTƏN**

Dolaşdım dünyanı
qarış-qarış mən,
yüksəkdə görmədim
heç nə vətəndən.
Ən böyük zirvədə
Ürəyim, duyğum,
Yaşadı bərabər sənlə tən,
Vətən!

**DƏRDİM**

Ağacdan alma dərdim,
Demə almaydı dərdim,
Dərdin məni almışdı,
Almanı dərdim sərdim.

## YENİ İL AXŞAMI

Şadam bu gecə, sevinirəm,

Ayla, ulduzlarla

Baş-başayam, birəm.

Hamı bayram edir,

Şənliyə gedir,

Mənsə öz dünyamlayam,

Heç yerə getmirəm.

Gəlib ilham pərisi,

Olub eşqin dəlisi,

Mən də şerin hərisi,

Görünmür gündüzün əzəli, sonu,

Hər saat bəyazlıq,

Ümidi güdür,

Ayın haləsi də,

Seyr edir bunu

Qaranlıq aramla

İşığa gedir...

**01.01.2004**

## QƏLBİN GÜNƏŞSƏ

Günəştək eşqim,

Yandıqca yanar.

Köksümün dərinliyində,

Varlığımın sarayı onu

Taxt-tacı sanar.

Parıltısı işıq saçar gözlərimə,

Desələr ki, tükənəcək,

Göydə Günəş,

Qəm eləmə.

Fəqət heç vaxt işığını

Qaranlığa sən bələmə,

Köksündəsə

eşq günəşi,

bil ki, odur, bu dünyanın həm üstü,

həm dərin qatı,

qızdıracaq kainatı,

qızdıracaq kainatı,

**Qalivari,**

**31.12.2003**

## DEDİN ŞEİR YAZMA

Dedin: şeir yazma,
Bir qədər dincəl!
Mənə bu qayğıyla
yanaşma
sən gəl!
Ey əziz dostum,
Sənin bu istiliyindən yamanca dondum,
Şeirsiz şair ömrünü
Bənzədim nəyə?!
Gör bu fikirlərim
Məni aparır hara,
Bu ömür bənzəyər
divardan asılmış
Çalınmaz tara.
Ya da, çağlayıb-ağlamayan
Tənha bir neyə!...

**08.10.2004**

## ÜZÜ VƏTƏNƏ

Qürbətdə bürünüb dumana-çənə,

Könlüm ayrılıqla verdi səs-səsə.

Mən addım atırdım üzü vətənə,

Burda hara getdim hara döndümsə...

## YER ÜZÜNDƏ

Büsat qurar yer üzündə,

O yurdun insanları,

Ki, bir vətən, bir xalq ola,

Onların ünvanları!

**30.05.2004**

## İNSAN VƏ MƏHƏBBƏT

Məhəbbət insandan,

İnsan məhəbbətdən yaranıb, bilməm?!

Bir ölməz həqiqət tanıyıram mən:

Məhəbbət od içib mənəviyyatdan,

Bu şərəf, bu şöhrət, bu elə bir şan,

İnsanlıq tərk etməz

Bunu heç zaman.

Bir əldə səadət,

Bir əldə hicran...

Bu parlaq işığı insan anacaq,

Məhəbbət insanda

İnsan məhəbbətdə

Daim yanacaq!

**31.12.2004**

**İNSAN – DÜNYA**

Dünya dalğalı ada,

İnsanlar gəmi –

Batarsan adada gəmi olmasa,

Nə varsa fırlanır bir üzü yaza,

De kimdi, fırladan, kimdi fırlanan?

İnsanlar fırlanır, gəzir dünyada,

Dünyanı fırlada-fırlada...

**08.10.2004**

## AZADLIQ

Gen dünya göstərər sənə darlığın,

Olmasa həyatda azad varlığın.

Azadlığın səni hər an tərk edər,

Onu qanınla duymasan əgər.

Kamillik gərəkdir hər nadanlığa,

İnsanı çıxarsın firavanlığa.

**QÜRBƏT GÜLÜ, ÇÖRƏYİ**

Qürbətdə gördüm incə,
Gülləri xonça-xonça,
Qoxusunda ətri yox,
Düzülüb yol boyunca;
Çörəyə pis deməzlər,
Çörək yedim –
Dadı yox.
Çiçək dərdim –
Ətri yox.
Ətri nədir,
Adı yox.

*   *   *

Vətənimin aranı da, dağı da,
Ağlamasın qərib-qərib yağıda,
Şad gün gələ, sitəmləri dağıda,
Daha gedib ürəyimin yağı da.

Vətənimin hər qarışı cənnətdi,
Havası, torpağı, suyu sərvətdi.
Bu sərvəti duymayana deyərdim:
Vallahi, dünyada böyük bədbəxtdi.

## GƏLƏRƏM

Ey məhəbbət tacım,

Könlüm gülşəni!

Olan olub keçdi,

Hər şeydən sonra –

Sən çağır mən gəlim;

Əbədi ömrüm var –

Ölməz ölüncə.

Dünya boyda eşqim

Oyadır məni,

Olubdur məhəbbət

Daim mənə yar,

Simuzərəm, sərvətim

Qəlbimdə yaşar.

**BİR AĞZIGÖYÇƏYƏ CAVAB**

Gül yazıma naz eyləyən,
Çatmayasan naza səni.
Ay çoxumu az eyləyən,
Yetməyəsən aza səni.

Başım üstə var Allahım,
Yoxdur bir gilə günahım.
Bilmirsənmi tonqal ahım
Döndərəcək toza səni?!

Şah ömürü qul eyləyən,
Ona-buna dil eyləyən,
Mənə cəzalar diləyən,
Görüm tutsun qəza səni.

## GƏLMƏZ

Deyin yar hanı –

Ürəyim, canım,

Gəzər hər yanı,

Buraya gəlməz.

Ah, zaman-zaman,

Çəkdiyim ahdan

Dünya yuxudan

Oyana, gəlməz!

Külli-aləmdə

Batdım bu qəmdə.

Qəlbim sinəmdə

Dayana, gəlməz!

Varmı bir deyən,

Gəl mənə güvən!

Bir də bu sevən

Cahana gəlməz!

**ÖVLADIM ABUZƏRƏ**

Şeir yaz,

Dərdindən danış,

Xalqını, yurdunu uca tut, yaşa,

çıraq ol,

Yolunda alış,

Özünü, adını sən unut, yaşa!...

**22.07.2002**

## AĞACLAR, İNSANLAR

Fikrimi şumlayır zərbi-məsəllər,

Kimsə hey soruşur,

Kimsə nə bilmir;

Ağaclar torpağı duyduqca durur,

Yarpağın əsdirir,

Tərpənə bilmir.

Olur ki, bəzən də duyğulu insan,

Şirin duyğusunu tərpədə bilmir;

Bu zəiflik deyil,

Ey canım, gözüm,

Bu böyük sevgiyə,

Sədaqət rəmzi,

Şərəfli dözümdür,

Yanıb-yaşayır.

**BÜLBÜL, İLHAM PƏRİSİ**

Qələm-varaq, sizsiniz,

Mənim ürəyim,

Canım;

Mənsə güləm,

Bülbül kimi

Cəh-cəh vurur ilhamım.

## İNSAN – KÖRPÜ

Günləri vətənlə, ellə ötüşən

Ana həsrətlisi körpədi insan.

Çiynınə dünyanın dərdləri düşən

Beşikdən məzara körpüdü insan...

## ŞERİMİN QÖNÇƏ BƏXTİ

Eyzən

Dəmirçinin

Kürəsinə tən –

Mənim də sözlərim

Alovdan çıxır;

Qönçə də... içində nə yanır görən,

Ləçəklər bağrından ağzı qan çıxır?!

**12.01.2002**

## BİR ƏLİMDƏ ÇÖMÇƏ,

## BİRİNDƏ QƏLƏM

***Neçə şeirim mətbəximin qurbanı***

***N. Rəfibəyli***

Qadınla varlıdır dünyanın əli,

Odur dünyanın şirin barı, həm də təməli.

Mətbəxdə hərlənən o şairə bax,

Qadın dünyasında min dünya yaşar.

Həmdəmi olduqca ömür, həyat, yar,

o dünya yaradan sözün gözəli

Yaşayır

Köksündə

Qəm dəryaları.

Bu dünya qazandır onun əlində,

Biş-düş eyləyir.

Qəlbisə at çapır söz mənzilinə,

O tapır, itirir, axtarır yenə,

Baş vurur həyatın dərinliyinə.

Bir fikir min aləm, özü bir aləm,

Dünyaya yaraşıq söz yaradır o,

Bir əlində çömçə, birində qələm!...

**BƏXTİYAR OL**

(mahnı)

Eşqdən saray quranım,

Təki sən bəxtiyar ol.

Yazdı mənə boranım,

Təki sən bəxtiyar ol.

Ayrılıq səsindəyəm,

Durna nəğməsindəyəm.

Təklər ölkəsindəyəm –

Təki sən bəxtiyar ol.

Gözlərim dola bilməz,

İlhamım sola bilməz.

Simuzər ölə bilməz,

Təki sən bəxtiyar ol.

Qəlbi təmizləyərəm,

Qəmi əzizləyərəm.

Mən bəxti gözləyərəm,

Təki sən bəxtiyar ol.

**BÖYÜYÜN ÖNÜNDƏ**

Böyüyünə hörmət et,

Baş əy önündə!

Onda böyük olarsan

sən öz sonunda!

Bunu gec anlayıb,

Duyarsansa gec,

Bil ki, böyüməsən,

sayılmarsan heç!

## QIYMADIN

Kəsib kəndirini
İlahi baxtın,
İnsaf əlyeri də qoymadın mənə.
Ümman dəryasından bir damla vaxtın
Bir azca ömrün də qıymadın mənə.

Zamanda bir seldi gurlayıb gedir,
Nə səni soruşur, nə də ki, məni.
Peşmanlıq çoxunu pərişan edir,
Ortada nə qalır
Yanğın çəməni...

**GƏLƏN PAYIZDI**

Xəzandı bağ-bardaşım,
Ay atam, ay qardaşım.
Yağışımdı göz yaşım,
Gələn payızdı, payız!

Yarpaqlara xal düşür,
Vüsala hicran düşür.
Sinəmə tonqal düşür,
Gələn payızdı, payız!

Bir yuvam yox qışlayım,
Sevgimi alqışlayım.
Bu təkliyi daşlayım,
Gələn payızdı, payız!

## SƏN OLMASAN NEYLƏRƏM

Sən olmasan neylərəm,
Ay eşqimin dirəyi?
Qələm tutan əlimin
Sənsən güclü biləyi.
Bu həyatın nə qədər
Axar-baxarı var,
Amma bil, ay bəxtəvər,
Baxanda görmək üçün
Sənsən gözün gərəyi.
Sahildə, ya dəryada,
Təki var ol dünyada,
Sənsiz mən bilirəm ki,
Tənhayam, tənha ada...

## SORUŞ KİMƏM

Gecə-gündüz dad eylərəm,
Yaralı bülbül kimiyəm.
Tanrıdan gözlərəm kərəm,
Boynubükük gül kimiyəm.

Mənəm qəmlərin qəmi,
Eşqim tutub aləmi.
Mənəm biçilmiş zəmi,
Bir dolu sünbül kimiyəm.

Hər sözü saf təzə-tər,
Lalə, nərgiz, qumaş, zər.
Simuzərəm, Simuzər,
İpək, məxmər, tül kimiyəm...

## BƏNNALAR

Neçə vaxtdı qonşularda
Bənnalar bina tikir,
Sanki baxıb onlara
Gözəlləşir yol, səki.

Bənnalar iş başında,
Yerin canı kimiydi.
Mərtəbələr sanasan
Arı şanı kimiydi.

Qovub qəmi, xiffəti,
Şöhrət bilib zəhməti.
Bənnalar işlərindən
Elə bil bac alırdı,
Həyatda hikmətə bax:
Binaların çiynində
Özləri ucalırdı...

## KÖNLÜM

Yenə qəmdən-qəmə adlayan oldum,
Mən özüm-özümü odlayan oldum.
İnsan duyan oldum, ad duyan oldum,
Sənsə həmənkisən, zavallı könlüm.

Burda ola-ola harda olursan,
Harda insanlıq var, orda olursan.
Çətində olursan, darda olursan,
Gah atlı, piyada, xəyallı könlüm.

Nadan sürüsünü sən otaransan,
Pisliyi yolundan sən qaytaransan.
Məni əzablardan sən qurtaransan,
Tüstülü, dumanlı, min hallı könlüm.

**Bakı, 10.02.2002**

**AĞLAYIR...**

Neçə milyon ildi, əsrdi belə,
Ömürdən-gündənmi kəsirdi belə.
Qızılgül kolunda
Nə sirdi belə,
Bülbül sinəsini çöküb ağlayır.

Yaylaq çiçək-çiçək, gül puçur-puçur,
Ağlağan çayları dəryalar qucur.
Arı çiçəklərdən-çiçəyə uçur,
Duman dərələrə çöküb ağlayır.

Min quşun dili var şerin dilində,
İlham dayanmaz ki, qəm mənzilində!
Uzaqda, tənha bir göl sahilində,
Söyüd saçlarını töküb ağlayır...

## İLK KİTABIM

İlk kitabım – bənövşəm,
Ən sirli, dilbər guşəm.
Soyuq təmiz qar altından çıxmısan,
Neçə ağrı-acımın,
Dərdimin, ehtiyacımın
Əllərini sıxmısan.
Yaşadırsan özündə
Nə qədər ağlı-huşu,
Qışımın xatirəsi,
Yazımın qaranquşu.

Mən dərdimdən yazıram,
İlk kitabım, ilk baxtım,
İlk dərdimin adıdır.
Həsrətimin qanadı,
Ürəyimin odudur.

**DAĞLARA DUMAN GƏLİB**

Dağın ətəyi duman,
Dağın zirvəsi – qartal.
Cığırla qalxa-qalxa
Uçur göylərə xəyal.

Dərələrin bu anda
Dənizə oxşarı var.
Qatar-qatar dalğadır
Qatar-qatar qayalar.

Bulaq, meşə düşünür,
Sanki bir adam kimi.
Dağ dayanıb
Üşənir,
Dənizdə ada kimi.

## SÜZÜLDÜ

Qartal qıyı göylərimin qaşından,
Lalə qanı düzlərimdən süzüldü.
Həsrət neyi ürəyimin başından,
Torpaq ətri dizlərimdən süzüldü.

Bu sevilmək tamaşaymış, tamaşa,
Bacar onu ehtiyatla vur başa.
Qoca şamla bir yananda baş-başa,
Beçə balı sözlərimdən süzüldü.

Ərimədi, daş-dəmirmiş bu bədən,
Görüş yeri... nə gələn var, nə gedən.
Heç bilmədim niyə axı, de nədən,
Bol dəryalar gözlərimdən süzüldü?!...

**05.01.2002**

**MÜQƏDDƏS TORPAĞAM**

Mən göylərə çəkilmədim
Əyyaş kimi.
Sənin gözlərindən tökülən
Yaş kimi;
Narın isti yaz yağışıyam,
Üzündəki bozartını yox etməkçün axmağa.

Çünki okeanlar, dənizlər,
Göllər, gölməçələr, hətta,
Nazik-nazik axan çaylar
Hamısı göyə qalxır, yerə baxmağa,
Axı, yer göydən gözəl görünür.
Sonra da hərə öz simasında yerə axır,
Bu müqəddəs torpağa...

**17.05.2006**

**MƏN EŞQİMİN QULUYAM**

Məhəbbətdən közərirəm,

Adi söhbətdən yox;

Mən həsrətdən cücərirəm,

Adi hərarətdən yox;

Uca eşqim qarşımda

diz çökürsə,

mən eşqimin quluyam,

məhəbbətin qulu olmaq

şərəfdir,

Sevgin mənə nökərsə.

**07.08.2006**

**DAĞ ÇAYI – DURNA**

Yağan bu yağış sirdi,
                    mənadı.
Təbiət möcüzə yaradır indi,
Dağ çayı – dumanda sanki
durnadı,
Azıb, qatarına
                    can atır indi!

## UŞAQ VƏ QAR

POEMA

Zərli, narın qar yağır,

Yerdə par-par parlayır.

Qaryığan maşın gəlir,

Qardan dağlar düzəldir.

Oymaq-oymaq yağan qar,

Şaxtadan verir soraq.

Səhər tezdən uşaqlar

Gəlirlər yığışırlar,

Bu qardağın başına,

Qardan buzlu qaşına,

Uşaqlar hey dırmaşır,

Qar dağlarını aşır.

Baxmır soyuq qışına,

Almışdı ağuşuna,

Şaxta-boran onları.

Qartopu oyunları,

Hamı sürüşür-düşür,

Heç birisi üşümür.

Könlüm çox açılırdı,

Hərdən lap uçunurdu,

Qardağların qoynuna,

Uşaqların oynuna.

Pəncərədən baxırdım,

Ürəyimi yaxırdım,

Məni öz günlərimə,

Uşaqlıq illərimə,

Aparırdı uşaqlar,

Bu zərif gül budaqlar.

Biri bapbalacaydı,

O yandan qaçıb-gəldi.

Deyəsən bu dəcəldi,

Özü də heç bilmədi,

Ayağı batdı qarda,

İlişib qaldı orda.

Darta bilmədi dala,

İstədi haray sala,

Bir az baxdı qardağa,

Başladı çağırmağa:

Ata, ata, ay ata,

Ata getmişdi mata,

Seyr edirdi Antonu,

Eşitmirdi heç onu.

Uşaqlarsa oynayır,

Dörd bir yanda qaynayır.

Hamının başı qalda,

Osa batmışdı qarda.

Onu yaman dərd aldı,

Səbri tamam daraldı,

Gücü çatdı sözünə,

Deyindi öz-özünə.

"Yaman qarışıb ara,

Burda düşmüşəm dara.

Onlar eşitmir yəni,

Niyə görmürlər məni?!

Qar yağır, gəlir duman,

Axşam düşəcək, aman!"

Gözləri muncuq taxdı,

Yanaqlarına axdı,

Çətinlik onu sıxdı,

Sonra dayandı, baxdı

Oynayan uşaqlara,

Onu çox uzaqlara

Apardı xəyalları,

Həyəcanlı anları,

Onun qəmli qəlbinin,

Duymuşdum səbəbini,

Fikirləşirdi yaman,

Ürəyində bu zaman,

Anasını istəyir,

Dəcəl işin pisləyir.

İstər əzəl ya sonda,

İnsanlar çətin anda;

Arzulayır ananı,

Ona candan yananı.

Oğlan yaman sızıldı,

Ata deyib susmadı.

Birdən eşitdi onu,

O balaca oğlunu.

Atası qaçıb getdi,

Ona tez kömək etdi,

Özünü qara atdı,

Onu qardan çıxartdı.

Ata: – Nigaran idim səndən,

Harda idin səhərdən,

Oğul: – Çağırırdım mən səni,

Eşitmirdin heç məni.

Elə batmışdım qara,

Bilmirdim gedim hara.

Ata: – Bu dünya yoxuşlu yol,

Oğlum, ehtiyatlı ol.

Addımını düz atsan,

Heç zaman uduzmazsan.

Görürsən çox yağıb qar,

Qar altda yoxuş da var.

Oğul: – Yaxşı ki, sən tez gəldin,

Mənə kömək eylədin.

Boynuna tez saldı qol,

Dedi: – Ata, çox sağ ol.

Təbəssümlər süzüldü,

Uşağın gözlərinə,

Mirvari tək düzüldü,

Şairin sözlərinə.

Göylərdən başın əydi,

Buludlar gülümsədi,

Qarsa narın enirdi,

Yerdə zərə dönürdü.

**İsveç, Qalivari,**

**31.12.2003**

## *DÜNYA BOYDA EŞQİM OYADIR MƏNİ...*

### AYLI GECƏ, BİR DƏ MƏN

Qəlbimizi tutduq oda,
Külə döndü çox qan-qada.
Ötənləri saldıq yada,
Aylı gecə,
Bir də mən.

Çox şimşəklər çaxdı getdi,
Çox ulduzlar axdı, getdi.
Qaldıq... Tanrı baxdı getdi,
Aylı gecə,
Bir də mən.

Nə oldusa bütün olduq,
Yazılı Bisütun olduq.
Göy tağına sütun olduq –
Aylı gecə,
Bir də mən.

Ya qırılmış bir sim idik,
Ya da ölüm-itim idik.
Sanki iki yetim idik
Aylı gecə,
Bir də mən...

## DURNALAR

Necə ulduz-ulduz siz odlanırsız,

Ey qərib durnalar, qərib durnalar!

Göydə qəmgin-qəmgin nə dolanırsız,

Buluda qanadlar sərib, durnalar?!

Səma yazılası dümağ varaqlı,

Könül vermisiniz ünə, avaza.

Yollar çəkirsiniz

Səsli-soraqlı,

Bahardan payıza,

Payızdan yaza.

Dünyadan kədəri, qəmi silin ki,

Yerə qəm yağışı tökməsin kədər.

Körpü salırsınız,

Onu bilin ki,

Qürbətdə olsaz da vətənə qədər!...

**Berlin,**

**10.11.2003**

## ƏGƏR SEVİRSƏNSƏ...

Əgər sevirsənsə... kefini pozma,
Dünyanın ən xoşbəxt adamı sənsən.
Hər ötəri qəmi qəlbinə yazma,
Qalib gəl özünə,
Eşqinə əhsən!

Qov taleyindəki kini, nifrəti,
Səndən gen dolansın xəbis adamlar.
Tapşır xəbislərə dərdi, xiffəti,
Sevgidə həyat var,
Həm dünyalar var!

Çalış yaxşılardan çıxma sən acıq,
Dünyaya sığmayan məna sənindir.
Sevə bilməyənlər yazıqdır, yazıq,
Əgər sevirsənsə... dünya sənindir!

**07.02.2002**

**MEŞƏDƏN KEÇİRDİM**

**BİR PAYIZ ÇAĞI**

Meşədən keçirdim bir payız çağı,
Sanki min il keçmiş zamanı gördüm.
Bürüyüb səssizcə həm solu, sağı,
Dəryatək yeriyən dumanı gördüm.

Budaqlar sivrilib ox olmuşdu ox,
Zirvədən qoşuntək enirdi soyuq.
Boşalıbdı yol, gəlib-gedən yox,
Bulaqda inləyən gümanı gördüm.

Gördüm ki, xəzandır dörd yanda ağac,
Yarpaqlar yağıştək yağır torpağa.
Elə söykənib ki, yarpaq yarpağa –
Ayağım altında yorğanı gördüm.

## GƏLMİŞƏM

Mən də doğulmuşam dünyaya bir gün,
Tanrım bağışlayıb mənə ömür, gün.
Böyük ağrıları duyduğum üçün
Dünyaya mən böyük-böyük gəlmişəm.

Yolumu gün yuyub, gah da kəsib çən,
Yaşaram beləcə lap son günəcən.
Həsrət qoşunları keçib sinəmdən,
Olmuşam mən bölük-bölük gəlmişəm.

Özüm nə qatdayam, ruhum nə qatda?
Yazıb-yaradıram böyüklük altda.
Əyərəm qəddimi ağır yük altda,
Olar qələmim çəlik, gəlmişəm.

İşığım doğmadır günəşə, aya,
İlhamım bənzəyər kükrəyən çaya.
Elə yaşaram ki, mən bu dünyada,
Deyən olmasın ki, bir yük gəlmişəm!

**GÖZƏLLİK DÜNYANI**

**XİLAS EDƏCƏK**

Ahəstə-ahəstə gedən nazənin,
Bağrımın başını gəl qan eyləmə.
Məstanə gözlərin süzgündür sənin,
At müjgan oxun vur, yan eyləmə.

Elə ki, çıxırsan yollara hərdən,
Sərvlər boyunu görüb utanır.
Çəmənin qoynunda görəndə birdən,
Lalələr diksinir, yanağı yanır.

Dünya ki gözəllik sorağındadır,
Həyat yaranandan axtarır onu.
Gözəllər gözəllik çırağındadır,
Yandıqca şölələr dan bilir onu.

Nə qədər ki, dünya fırlansa belə,
Gözəllik gözəldə gizlənən deyil.
Fəsillər ötüşüb dolansa belə,
Gözəllik üzlərdə gizlənən deyil.

Gözəllik dünyanı xilas edəcək,

Deyirlər insanlar nə vaxtdan bəri.

Bəlkə dünya özü qurban gedəcək,

Gözəllik gətirsə gözəl səhəri.

Qoruyun, gözəllər, qoruyun onu,

Dünyanı gözəllik qoy xilas etsin.

Biçilsin dünyanın al-qumaş donu,

Geyinsin əyninə, qara şər itsin.

Simuzər, gözəlliyin qədri məndədi,

Başda gəzdirirəm onu tac kimi.

Qoruyub saxlaram ətri məndədi,

Dünyanın dərdinə bir əlac kimi.

**BİLMƏDİM**

Ey bəlalı məhəbbətim,

Aşkarımsan, ya xəlvətim,

Heç bilmədim;

Ağladan sən,

Güldürən sən,

Ürəyimdə şəfqətim;

Kədərimin pərisisən,

Sədaqətin hərisisən.

Can mülkünün çırağını yandırır,

Pərdə-pərdə şölələrin həmişə;

Alovların günəşdənmi

Güc alıb?!
Mənim şanə ürəyimdə

Ucalıb.

Bəlkə zəif şam şöləsi

Pay verib?!

Yaşadığım nurlu dünya

Sənindi.

Sirli soraq,

Nurlu çıraq

Axtarmıram;

Mənim dünyam

Məhəbbətlə fırlanır,

Qaranlıqlar işığından

Nur alır!

## SEVGİM

Yaxıb-tökür məni sevgim,
Alış, ürəyim, alış.
Sərmayəli qəmdi qəlbim,
Alış, ürəyim, alış.

Göy qaranlıq, mən haləyəm,
Həsrətinlə divanəyəm.
Şam şöləsi tək naləyəm,
Alış, ürəyim, alış.

Ah-nalənin sızıltısı,
Büllur bulaq şırıltısı,
Qoyma itsin parıltısı,
Alış, ürəyim, alış.

Yar yolunda bezar yarmı,
Eşqdən bezar heç olarmı?
Ah, könlündə ahım varmı?
Alış, ürəyim, alış.

Şax budaqda eşq bülbülüm,
Nalə edir, eşit, gülüm.
Yansa odum, qalsa külüm,
Alış, ürəyim, alış.

Həsrət, hicran deyir ağı,

Simuzərəm, ver sorağı.

Könlüm olub lalə bağı,

Alış, ürəyim, alış.

**Bakı ,**

**01.02.2005**

## GƏL GÖRÜM SƏNİ

Gen dünya başıma daha dar oldu,

Bir məzar yetirib mənə yar oldu.

Mən sevdim, özgələr bəxtiyar oldu,

Dərdindən ölürəm, gəl görüm səni.

Mən eşqlə, həsrətlə davalı kimi,

Quşam – od içində yuvalı kimi.

Gəzib-dolanıram havalı kimi,

Ağlayıb-gülürəm, gəl görüm səni.

Eşqin yollarında daş olsam da mən,

Gözlərdən sellənən yaş olsam da mən,

Sevgimdə həmişə baş olsam da mən,

Səni baş bilirəm, gəl görüm səni...

## GƏLDİ...

Keçirdim mən göz yaşımdan,
Çəmənimə jalə gəldi.
Ayrılığa od ələdim,
Həsrətimə halə gəldi.
Sən boylandın dağ başından,
Ürəyimə günəş gəldi.

Duydunmu bir, bəs bu nədir?
Bu adi həyat deyil,
Nağıldı, əfsanədi!
Elə bil ki, bağrım başı
Neçə-neçə dərdi dəldi.
Ürəyimə günəş gəldi!

Mənim yolum haqq yoludur,
Buna kimin sözü var?
Hər addımım uğurludur,
Paxılların gözü var!
Kiminsə söz deməyə,
Dillənməyə üzü var,
Qoy desin,

Nə gəldi, gəldi:

Mənimsə ürəyimə

Zülmətlər qənimi, dərdi

İşıq düşdü, Günəş gəldi...

**TƏNHA BULUD**

Bir bulud göyündə didərgin qalıb,

Coşqun çağlarımı o anıb durur?

Tutmur qərarı da binəva bulud,

Dolanıb, dolanıb, dolanıb durur.

Mavi səmalarda dolmuş ürəkdi,

Onu dərd ağrısı içinə çəkdi.

Bu uzaq göylərdə kimə gərəkdi,

Səhra həsrətiylə o yanıb durur.

Tanı, o buludu görəndə tanı,

De ki, xatırladır rənha insanı.

Çaxmır ildırımı, yağmır leysanı,

Dərdi dərd üstünə qalanıb, durur...

**31.05.2002**

## TANIDIM...

Zəng vurdun, dinmədin...
Mən səni ancaq
Otağımda nəfəsindən tanıdım.
Günün nurlu olsun, taleyin parlaq,
Səni çəmən jaləsindən tanıdım.

Nəfəsini duydum, döndü gur çaya,
Canım qurban belə susqun haraya.
Saf eşqindən pay vermişdi o Aya,
Baxdım Ayın haləsindən tanıdım.

Həsrət çəkib, həsrət qalandı yara,
Xoş söz deyib, açdın canda min yara.
Bal sözünlə can veribsən o tara,
Bir də kaman naləsindən tanıdım.

Biz tənbəlik, sözbazlarsa çox çevik,
Bulaqlardan doğulmuşuq, gur selik.
Dəli eşqin nur başında bir telik,
O tellərin şanəsindən tanıdım.

**BURDAN BAHAR KEÇİB...**

Burdan bahar keçib deyən,
Bu sel belə coşqun olub.
Burdan bahar keçib deyən,
Bu qız belə çaşqın olub.

Burdan bahar keçib deyən,
Quşlar belə qanadlandı.
Burdan bahar keçib deyən,
Yollar belə ağ atlıdı.

Burdan bahar keçib deyən:
Ağlayıb, göz yaşından
Nərgiz, yasəmən qalıb,
Bu da onun dəsmalı –
Bir yaşıl çəmən qalıb...

## BAHARIN GƏLİŞİ

Nur damır buludun ətəklərindən,
Yenə qəlbim kimi dolubdu onlar;
Dünyada ilk şeri yazdığım gündən
Mənim qəm yoldaşım olubdur onlar.

Qopar qələmimdən yenə bu səda,
Çiçək yağışıdı yuyan baharı.
Hayandan gəlsə də, necə gəlsə də –
Birinci  ürəkdir duyan baharı...

## SORAQLAR

Çəməndə qızılgül dərdimi dərdi,
Dedi yarın səni eldə soraqlar.
Həsrətdən alışıb yananda qəlbi,
Bülbül nəvasını güldə soraqlar.

Məni bənövşətək taxma döşünə,
Köçür köksündəki ürək başına.
Qoy dönüm gözünün sevinc yaşına,
Dildar sevgisini seldə soraqlar.

Həyat bir gəlintək bürünsə tülə,
Simuzər bənzəməz tez solan gülə.
Düzdə tuti olub düşsə də dilə,
Könül sonasını göldə soraqlar...

## BƏNÖVŞƏ

Yenə də gördüm səni
Boynu bükük bənövşə!
Özü kiçik bir damla,
Dərdi böyük bənövşə.

Kol dibinə sığınıb,
De, kimi gözləyirsən?
Ürəyində ümidsiz –
Kimi əzizləyirsən?

Sevgi məktublarını
Bəzəyibsən ən azı
Soyuqdan, qışdan çıxıb,
Sənsən gətirən yazı.

Alın yazısı adlı
Bir qismət də var ancaq:
Güllər qoşunu gəlib
Səni unutduracaq!

Sevincdə də, qəmdə də
Simuzərəm həmişə.
Yerin bu sinəmdədir –
Qəlbimə köç, bənövşə...

**MƏNİ XƏYALLARDA**

**AXTARMA DAHA**

Eşqə sədaqətim ilk təməlimdi,
Mən eşqin dəlisi  dünya dəlimdi.
Sevgi məhəbbətim xoş əməlimdi,
Məni xəyallarda axtarma daha!

Xəyal söylədiyin gəlib-gedəndi,
Mənim məhəbbətim göydən enəndi.
Demə köksümdəki yanıb-sönəndi,
Məni xəyallarda axtarma daha!

Deyirlər hər qəlbin pıçıltısı var,
Əsil məhəbbətin sızıltısı var.
Sevdalı könlümün çırpıntısı var,
Məni xəyallarda axtarma daha!

Məhəbbət xaliqsə əbədi qalar,
Onun varlığından həyat güc alar.
Ocağım közünü külündən alar,
Məni xəyallarda axtarma daha!

Eşqi-dünya deməz quru canan mən,
İnsan olan deyər, bir insanam mən.
Simuzərəm, eşqimlə cahanam mən,
Məni xəyallarda axtarma daha!

**07.08.2006**

**TANRIM BELƏ YOL AÇDI**

Tanrım belə yol açdı
Mən dünyaya gələnnən,
Gözəlliklə qoşayam,
Bir də ki,
Öz dünyama – azadlığa baş əyəm;
Mən dünyaya gələnnən,
Dünyayla baş-başayam.
Eşqlə dolu əməllərlə yaşayam;
Verdi mənə məhəbbəti bu dünya,
Sərdi mənə süfrəsini gözəlliklə,
Min sərvətli bu dünya,
Buyur, götür!..
Fəqət, işığını itirməsin,
Cığırların, izlərin,
Qamaşmasın gözlərin,
Orda işıq qaranlıqla fırlanır,

Bircə o yol, haqqın
Yolu
Mənim olsun,
Əbədiyyət kürsüsünə
Gedən yoldur,
Mənim olsun!
Sənin olsun!

**03.04.2006**

## İNSAN ÖMRÜ

Yeni bir səhər açıldı,

Büküldü,

Ötən sabahın üstünə;

Yenə gələcək

Gecə,

Ömür gilə-gilə

Olur necə.

Görünür,

Dolanır beləcə;

Gündüz kobud,

Gecə incə,

Səbir yığır

insanlar,

gecə yuxularında.

Gündüz gəlincə,

Tapılmır bu səbir çoxlarında.

Budur pillə-pillə

Zaman-zaman

Yaşayır insan.

Ömür deyilən bir yükü

Yana-yana,

Dona-dona,

Sönə-sönə daşıyır insan!...

Yaxşı ki, bu sələmə

Gedən ömrü,

Dəyişirəm qələmlə.

**10.04.2006**

**DOSTUMUZ GETMİŞ**

***(Türkiyədə yaşayan dostum Mikayıl Dərəlioğluna)***

Mən ayılırkən

Yuxularımdan

Bir səhər,

Günəşin nur şəfəqləri gəzirdi

Otağımda,

Ayrıla bilmirdim

Dost ətirli qoxularımdan.

Sükuta bürünmüşdü

Hər tərəf.

Telefon zən çaldı,

Aldım telefon dəstəyini,

Eşitdim bir

Dost səsini.

Söylədi

"Dostumuz

Bu səhər getmiş",

Qəlbim sıxıntı duydu,

Çiçəklər də hiss edibmiş

Dodaqlarımın pıçıltısını,

Qəlbimin sıxıntısını.

Həp bana döndülər,

"Nasıl dostumuz

Böylə etmiş,

Bizi görmeden

Türkiyeye gitmiş?"

**DƏYMƏ ŞAİR QƏLBİNƏ**

Dəymə şair qəlbinə,
Çox kövrəkdir,
Sına bilər!
Dəymə şair qəlbinə,
Sarı simdir;
Minlərlə dilsiz
Ürəklərin iniltisinə
Dinə bilər!
Dəymə şair qəlbinə,
O qayğı məkanıdır,
Ona neçə-neçə
Qayğılı ürəklər sığına bilər!

Dəymə şair qəlbinə,
O məhəbbət abidəsidir.
Nə qədər günahsız ahların,
Həsrətli ruhların,
Sızıltısına çevrilə bilər!

Dəymə şair qəlbinə,
O vətən göylərində halay quran
Şəhid ruhlarının timsalıdır.
Ürəyi qubardan təngiyən torpaqların
Asudə nəfəs alması üçün
El süngüsünə çevrilə bilər!

Dəymə, dəymə,

Dəymə şair qəlbinə,

Vallah günahdır,

O döyüş meydanıdır,

At belində şahə qalxmış

Oğulların əyilməz biləyinə,

Qalxan sinəsinə çevrilə bilər!

Dəymə şair qəlbinə,

Göylər onun məkanıdır,

Şaşırarsan,

Öz qoynundan ayrı düşər,

Nizamlı bir dünyanın

Qatarından aralanar

Özünün tək, tənha bir

Durnasına çevrilə bilər!

Dəymə şair qəlbinə,

Dəymə! Qıyma,

Şair qəlbinə!

Qırma!

## İSTEDADDAN ÇOX UZAQSAN

Məddahlıqla ömür sürən,
"Sənətkaram" deyib duran,
İstedadın kandarına
Daim yadsan;

Vallah, özün
Özün üçün yaşasanda,
Məddahlığın dayağını daşısında,
Yaltaqlığın körüsüsən,
Sən elə özün-öz içindən çürümüsən.
Fərq eləməz sənə onsuz,
Eniş ola, yoxuş ola,
Ömür oynu,
Dəvə boynu
Düzlüyünün əlacı yox,
Bircə onu bilirəm ki,
Canfəşanlıq eyləsən də,
Sən həmişə cəmiyyətə,
Həm millətə
Quru adsan,
İstedaddan çox uzaqsan,
Çox uzaqsan!

**15.07.2006**

**SƏN MƏNİMÇÜN DEYİLSƏN**

Dünya başıma fırlanır,

Mən dünyanın başına

Hərlənirəm.

Xəyallar, düşüncələr

Baş alır karvan-karvan,

Mənsə

Fikirlərimə sipərlənirəm,

Sən mənimçün deyilsən,

mənimçün deyilsən!

Bəlkə sən yaxşı adamsan,

Yaxşılardan yaxşısan.

Bir ocağın başında,

Bir üzüyün qaşında

Parıltıdan öz gözlərin qamaşar,

Gözlərində gözəlliyi daşısan da,

Bu gözəllik itib-batar gözlərinin içində.

Mən baxıram, od qalanır içimdə –

Sən mənimçün deyilsən,

mənimçün deyilsən!

Günlər gülür, ağlayır,

Ürək heç vaxt gülməyir

Qəhərlərin əlində.

Sevinc kədər bağlayır,

Dərd dağları dağ aşır,

Dağ dərdimi izləyir,

Duman gəldi, dərdlərimi gizləyir.

Sızıltılar qulağıma

Pıçıltını səsləyir:

Sən mənimçün deyilsən,

mənimçün deyilsən!

Qış gedir, bahar gəlir,

Yazdan payıza yol var,

Dünyadan keçir bu sirli yollar.

Mindi, birdi.

Dünya özü də bir sirdi,

Kimsə aça bilməz ki

Bu sirri...

Dünyanın məhəbbəti,

Həyatın dürrü,

Mən də yaşadım bu həyat qədər,

Demədim,

Sən mənimçün deyilsən,

mənimçün deyilsən!

Mən bilmirəm bu qədər

Məhəbbətdən bixəbər,

Sevinci də bir kədər

Belə yaşayar naşı,

Hesaba gəlməz yaşı,

Gülüşü el savaşı,

Ey sevinən bəxtəvər,

Sən mənimçün deyilsən,

mənimçün deyilsən!

Mən məhəbbət acıyam,

Kədərin ağacıyam.

Yarpaqlarım pak, təmiz,

Varım həsrət talası.

Gözlərimin muncuğu,

Çəmənlərin laləsi,

Çiçəklərin ağlamayan

Göz yaşı

Sədaqətin rəmzidir;

Sən mənimçün deyilsən,

mənimçün deyilsən!

Sədaqətsiz məhəbbət

Bu dünyada yaşanmaz...

Ürəyimin telində,

Bu notlarla dinir saz,

Səhər-axşam bir avaz,

Sən mənimçün deyilsən,

mənimçün deyilsən!

Sənin yerin başqadır,

Kim bilir kim başdadır.

Mən “məni”min təniyəm,

Məhəbbət vətəniyəm,

Sən mənimçün deyilsən,

mənimçün deyilsən!

**29.02.2006**

## MƏN DƏ YAŞAMIŞAM

Dünya – ilham dünyası,
Əriyən şam dünyası...
Bir nağməmin sədası,
Qopursa yaxınlardan,
Gəlirsə uzaqlardan –
Düşmürsə dodaqlardan,
Demək,
Mən də yaşamışam!

Taleyim ağrım-acım,
Tanrıdan qismət tacım...
Şəhid olan can bacım,
Şəhid olan qardaşım,
Məzarınız üstünə
Düşürsə qəlbi üzən
Bircə damcı göz yaşım –
Demək,
Mən də yaşamışam!

Ay mənim elim-obam,

Bu bağrımın başında,

Vətənimçün çatdığım,

Ruhumla qalatdığım

Ocağımda hələ də

Bircə közüm qalırsa,

Ey mənim şer dünyam,

Tarixlər yaddaşında

Bircə sözüm qalırsa,

Demək,

Mən də yaşamışam!

**SƏNİ TANIYIM NECƏ...**

Biri işıqlı adam,

Biri zülmət, qəm, sitəm.

Biri həyata dorğu,

Biri məzara qədəm.

Biri bəxt boşanmışı,

Biri bəxtə yanmışı,

Bu gündüz, bu da gecə –

Səni tanıyım necə?

Biri gülü qoxlayır,

Biri yarpağı sevir.

Biri işıq dərdində,

Biri fərağı sevir.

Biri qondarma bayraq,

Biri torpağı sevir,

Bu gündüz, bu da gecə –

Səni tanıyım necə?

Susun, qeybət dərənlər,

Həqiqətin sözündən!

Eli sevməyənlərin

Leysan gələr gözündən!

Başında min bir kələk,

Fırlandıqca bu fələk,

Dünya gələrmi vecə?

Bu gündüz, bu da gecə –

Səni tanıyım necə?

**Bakı, 19.07.2002**

## DEDİM

Mən dedim,

Sən dedin,

Deyirik, gedirik.

Xoşdur, ya xoş deyil,

Deyim boş deyil.

Deyilən sözlər ki

Önə çəkilir,

Tarixdə nə qədər fikir əkilir,

Bitəni bitir,

Öləni ölür.

Qalan hər kəlam

Möhür kimidir,

Yazılır zamanın

Məhəng daşına,

Dünya da dolanmır

Özü-öz başına;

Axı hər cücə payıza çıxmır,

Hər yağış yağanda

İldırım çaxmır.

Yağış leysan-leysan,

Buludlar qatlanır,

Görürsən günəş çıxır,

Axır,

Sözüm elin sözüdür,

Dünya isə tərəzinin gözüdür.

Baxır...

**13.03.2003**

## YAXŞILIQ – PİSLİK

İnsan gözəlliyi göz qamaşdırır,

Harda bir xeyirxah, yaxşı görəndə.

Di gəl ki, bu pislər məni çaşdırır,

İnsanı dünyanın naxşı görəndə!

Çəkilsin gözümdən xain, xəbislik,

Ürəyim yaxşılıq umudundadır.

Ən ağır xəstəlik pislikdir, pislik,

Dünya yaxşılığın buludundadır.

Sən Ulduzla, Ayla ol ki xoşqılıq,

Ey paxıl, bir zərrə işığın olsun.

Həyatın Günəşi nədir? – Yaxşılıq!

Qəlbin bu işıqdan bəlkə pay alsın.

## KÜR DƏ BAYRAM ELƏYİR...

Kür qırağında yolum bayrama düşdü,
Şer məclisində qalxdım kürüyə.
Uzağa düşmədi,
Salyana düşdü,
Bakımdan bir soraq yetirim deyə.

Xonçalar köz kimi alışıb yanır,
İnsanlar xonçadan gözəl işıqlı!
Fərəhdən az qala ürək dayanır,
Burda göy ulduzlu,
Yer yaraşıqlı...

Fişənglər gül kimi atılır göyə,
Hava da bal dadır,
Söz də bal dadır;
İldə bircə dəfə bayramdı deyə,
Hamı tonqalları köksündə çatır.

Göy qalsın,
Xoşbəxtlik yerdədir, yerdə;
Xeyir diləyirik evlərə, xeyir,
Gördüm ki, qabarıb çağlayan Kür də
Qoşulub şerimə bayram eləyir...

**QAR ALTINDAN ÇIXAN ÇİÇƏK**

Qar altından çıxan çiçək,
Hara belə tələsirsən?
Quş gözü tək baxan çiçək,
Qışın yolun sən kəsirsən?!

Köçdən qalan durnasanmı,
Qar-çovğuna anasanmı?
Tənha qalan sonasanmı,
Hansı gölə tələsirsən?

Bir balaca çınqı kimi,
Əritmisən qarı necə?
Baharın qılıncı kimi
Doğradın rüzgarı necə?

İlk xəbərsən yazdan, sonam,
İlk sevginin dostu, yarı!
Sən dünyadan köçən zaman,
Gələr sənin dalınca bil,
Nazlı çiçək qoşunları...

**17.03.2003**

**ÜRƏYİM DƏNİZDİR**

Günəş doğur dənizdən,
Göylər sulara hopub.
Hər qağayı elə bil,
Xırdaca bir dalğadır –
Nəhəng dalğadan qopub.

Hər çəməndə görüş var,
Dənizin sahilində,
Daşın da dili varsa,
Dənizlər də danışır
Qağayılar dilində.
Körpə uşaqlar kimi
Çığrışır qağayılar,
Dənizdə tufan varsa,
Mənim də ürəyimdə,
Ürəyimdə dəniz var...

**YAŞA O QƏDƏR Kİ...**

Kimdi yaşamağı sevməyən görən,
Hamıda dünyada qalmaq istəyi...
Biz də çaylar təki ölüb hönkürən,
Nəyi gözləyirik, bəs onda nəyi?!

Həyatda qayğılar daşımaq eşqi
İnsanın insanlıq qüdrətindədir.
Yuva qurmaq eşqi,
Yaşamaq eşqi
Adi qarışqanın zəhmətindədir.

Sehirdi, nağıldı illər, əsrlər,
Sən gərək olduqca,
Yaşamaq odur.
Balaya "can qurban" deyən analar,
Bəzən Əzrailə deyir kənar dur!

Bir ömrü hörmətlə daşıya bilsən,
Hörmət qazandısa,
Ucadır insan.
Yaşa o qədər ki,
Gərək olursan,
Yaşa o qədər ki...
Yaşaya bilsən!

**NİGARANÇILIQ**

Mənim bu halımdan kim halıdır, kim?
Ürəyimə girir nigarançılıq.
Dəxli yox,
İstədim, ya istəmədim –
Qapımı kəsdirir nigarançılıq.

Narahatlıq ilə əkiz bacıdır,
Başımda, beynimdə dolanır qoşa.
Düşünmək insanlıq ehtiyacıdır,
Nigaransız ömür-gün gedər boşa.

Kimi xoş,
Kimi də pərişan etdi
Deyəsən dağlardan duman çəkilir,
Bu günü mən belə yaşadım, getdi,
Sabah nə olacaq – bir Allah bilir!

**17.10.2003**

**MƏNİM GÖZ YAŞLARIM**

**ÇEVRİLDİ DAŞA**

Bağışla... yandırar bu günah məni,

Həddimi çox aşsam,

Tutar ah məni!

Sən yoxsan –

Eşqinlə alışsam da mən,

Məhəbbət önündə

O coşan da mən.

Varım da, yoxum da tək səni bildim,

Bilmirəm mən sənsiz necə sevindim?!

Nakam məhəbbətin qan ağlamağı,

Göstərir gülsüz bülbüllü bağı.

Yaşayır qəlbimdə sevgi növrağı,

Önçündə sevmirəm mən ağlamağı.

Səni məhəbbətlə düşəndə başa,

Mənim göz yaşlarım çevrilir daşa!

## TALEDƏN NECƏ QAÇIM

Qoy Tanrım təzədən qurmasın məni,

Bu qəlbi bəs kimə tapşırım belə?

Sonra uzaq yollar yormasın məni,

Dağları çiynimdən aşırım belə?!

Necə yaranmışam

Qalım eləcə,

Hər anda dəyişən su deyil ömrüm,

Gecəm gündüz olsa,

Gündüzüm gecə,

Necə mən olaram, başına dönüm?

Deyirlər dünyada dünyadı insan,

Nəğməni tapmarsan hər qanadda da.

Qələmim qəlbimlə düz olduğundan

Yəqin düz yaşadım bu həyatda da.

Qoy başa düşməsin kimlərsə, nə qəm,

Sən gəl bu uğurlu taleyimə bax:

Dünyada hamıdan qaça bilərəm,

Tək qaça bilmərəm özümdən ancaq!...

**15.10.2002**

## GECƏ, TƏNHA İŞIQ

Gecə yarı, yatıb hamı,
Yuxusundan kim qalar, kim?
Bir evdəsə tənha işıq
Göz yummayır yetim-yetim.

Adam baxır, heyran qalır,
İşıq – zülmət davasına.
Dözüb qəmin qovğasına,
Bəlkə şair şam yandırıb
Bir şeirin havasına?!

Yer qısılıb nəfəsinə,
Orda yuxu nədən qaçıb?
Bəlkə ana sinə açıb,
Layla çalır körpəsinə?

Baxıb nura gülümsəyir
Ulduzlar da soyuq-soyuq,
Gör ürəyim nələr deyir:
O işığın başındakı,
Cavan sevgi yaşındakı,
Bircə xəstə olmasın, yox!

Bulaq olub axıram mən

O binanın yaxasına.

Heyran-heyran baxıram mən,

İşıq – zülmət davasına...

**18.11.2003**

## SƏNDƏN AĞRIYA-AĞRIYA

Üz tutub gedəsi oldum
Səndən ağrıya-ağrıya.
Bulud kimi qəmə doldum
Çəndən ağrıya-ağrıya.

Kimlər ölər, kim yaşayar?
Qəlb yükünü sim daşıyar,
Sözlərim tilsim daşıyar
Məndən ağrıya-ağrıya.

Düçar olsan dərd-äləmə,
Dərdi ömrə səpələmə.
Ömrü vermişəm sələmə,
Baxıb-baxıb əl eləmə
Gendən ağrıya-ağrıya.

Yer balaca... hara qaçaq,
Yollar-izlər saçaq-saçaq,
Şerlərim gül açacaq
Qəmdən ağrıya-ağrıya;
Qibləm sənədir ancaq,
Səndən ağrıya-ağrıya...

**AXIN, ÜRƏYİMDƏN,**

**AXIN, A ÇAYLAR**

Dünyada bir yol xaliq olmağa,
Yerlərdə Tanrıdan qalıq olmağa,
Buraxın, sularda balıq olmağa,
Məni qəlbinizə yaxın, a çaylar!

Həyatda adamın qəlbi dayanır,
Eh, hardan biləsən kimi kim anır?
Bir baxın, evlərdə çıraqlar yanır,
Sizin qəlbinizdir, baxın, a çaylar.

Hansınız anasız, bala hansınız,
Hansınız nursunuz, bəla hansınız?
Bu quru torpaqda nə tapmısınız,
Axın, ürəyimdən, axın, a çaylar!

## QƏFİL GÖRÜŞLƏR

Baxma elə-belə qəfil görüşə,

Bəlkə də yazılmış bir taledi bu?!

Bu qəfil görüşdən kimə nə düşə –

Kimə səadətdir,

Kimə – boş arzu!

Səni sıxan dünya bir də çıxanda,

Sıxılmış dünyadan kim qalacaq, kim?

Bəlkə də bu səhər evdən çıxanda,

Mən də bu görüşü gözləməyirdim?

Əzəldən qanunu budur həyatın:

Ürək bir olsa da,

Ayrılmağı var.

Sınmağı çox olur qolun-qanadın,

Çünki sındırmağa xoşdur adamlar.

Sevin arzulamaq başqa bir ölkə,

Bu qərib qismətlə kim görüşərdi?

Bu qəfil görüşlər olmasa,

Bəlkə

Çoxları əbədi ayrı düşərdi...

## ALƏM EŞQƏ BÜRÜNƏ

***Lalə Şövkət xanıma***

Tonqaldı canındakı,
Məhəbbət anındakı,
Eşqin zindanındakı
Dustağa aman gələ.

Qaçdım yağış dalınca,
Uçdum çarpış dalınca.
Qış gedə qış dalınca
Dağlara duman gələ.

Göylərtək qurulmağa,
Sulartək durulmağa.
Təzədən vurulmağa
Qəlbimə güman gələ.

Göylərdən bəxt görünə,
Ayrılıqlar sürünə.
Aləm sevgi bürünə,
Belə bir zaman gələ.

## DÜNYA VƏ İNSAN

Dünyanı qüdrətdən yaradan Tanrı,
Qüdrətdən neməti verib insana.
Sevgilər göndərdi dünya qoynuna,
Salıb insanları eşqin oynuna.
Bunu eşq oyunu sanıb bir anlıq,
Duyma həyatını sən firavanlıq.
Yaradan Tanrıdır, yalnız Odur tək,
Yaşadan duyğudur bizi ana tək.

Tanrı insanlara min arzu verir,
Arzular dünyada bitib-tükənmir.
İnsan bu dünyada kamlara çatır,
Fərəhli günləri ömrünə qatır.

Sondasa unudub hər şirin anı,
İnsanlar vəfasız sanır dünyanı.
Vəfasız sanırsa dünyanı insan,
Demək vəfasızdan öyrənir hər an.

İnsan dünya üçün qaldıqca haya,
Dünyanın verdiyi gələcək saya.
Qızıldan qiyməti versə hər ana,
İnsan bəs sanmaz gəlib cahana.
Yaxşı iz qoyarsa dünyada insan,
Dünyanın vəfası ötüşərmi yan?

Həyatın sirridir, dünyanın qəmi,
Yoğurub xəmrini bəni-adəmin.
Mayası dünyanın özündən gəlir,
Xəlbiri, ələyi göydə ələnir.

İnsanın özü də bir dünya olur,
Bu sirli dünyanın bətninə dolur.
Sirli xəzinə tək üyüdür, yeyir,
İnsan bu dünyanı, dünya insanı...
Qalıram həmişə mən də nigaran,
Simuzər, firavan, sirli dünyadan.

**20.10.2003**

***

*Yazılan və oxucular tərəfindən sevilən əsərlərin çoxu qeyri-adi bir anın, hissin, duyğunun nəticəsi olaraq araya-ərsəyə gəlir. Məşhur söz ustadlarının, elm adamlarının uğurlarına səbəb olan bir çox əsərlər, ixtiralar yuxarıda dediyimiz kimi, müəllifinə şöhrət gətirməzdən öncə onların həyatında, məişətdə yadda qalan bir iz qoyub.*

*Pirverdi Dağlaroğlunun sizə təqdim etdiyimiz "Simuzər" şeirinin də yaranmasının qəribə tarixçəsi var. Şair Pirverdi Dağlaroğlu yaxın qohumu Cəmşid müəllimlə həmişə olduğu kimi, ədəbiyyat söhbəti edirlər. Şirin sözün pərəstişkarı olan Cəmşid müəllim söz arası qohumuna "Ədəbiyyat qəzeti"nə müraciət etməyi, Simuzər xanımla görüşməyi məsləhət verir. Dağlaroğlu qohumunun sözü ilə Simuzər xanımın yanına gəlir. Otaqda gülərüz, şirin danışıqlı, yaraşıqlı xanımı görür, salam verir və bir qədər söhbət etdikdən sonra, o, şeirləri haqda bir söz demədən geri qayıdır.*

*Səhəri Cəmşid müəllimin yanına gəlir. Cəmşid müəllim ondan "Simuzər xanıma şeirlərini göstərdinmi? – deyə soruşanda, dinməz-söyləməz bu şeiri Cəmşid müəllimin stolunun üstünə qoyur.*

***Faiq Balabəyli,***

***Paritet qəzeti,***

***25-27.05.2002***

**SİMUZƏR**

Cəmşid, dəhşətdi ki, zalımın qızı,
Ağlımı başımdan aldı Simuzər.
Məni məftun etdi işvəsi, nazı,
Canıma vəlvələ saldı Simuzər.

Dodağı qaymaqdı, yanağı alma,
Gözündə sürmə var, başında çalma.
Dedi: şair dostum, xəyala dalma,
Gözəllikdən yaman boldu Simuzər.

Adını çəkəndə diksindi, baxdı,
Buludtək qaraldı, şimşəktək çaxdı.
Bütün varlığımı yandırdı-yaxdı,
Məni şahmar kimi çaldı Simuzər.

Şeirlə, sənətlə yoxladım onu,
Baharçiçəyitək xoşladım onu.
Qaşımla-gözümlə oxladım onu,
Yaraşıqlı bir maraldı Simuzər.

Ayrılsam da orda qaldı nisgilim,
Ona toxunmadı dodağım, dilim.
Dedim: icazə ver, mən sizə gəlim,
Dinmədi, xəyala daldı Simuzər.

Tufanlı sel kimi çağladım, coşdum,

Onun şərəfinə nəğmələr qoşdum.

Özümü itirdim, yolumu çaşdım,

Əhvalıma bələd oldu Simuzər.

***Pirverdi Dağlaroğlu***

## DAĞLAROĞLUNA

***25-27 may 2002-ci il tarixli "Paritet" qəzeti əlimə düşdü. Yaxından tanımadığım Dağlaroğlu Pirverdi imzası ilə mənə aid olan "Simuzər" şeirini oxudum. Həmin şeirə elə həmən qəzetdə şeirlə cavab yazmalı oldum.***

Bir dodağı qaymaq, yanağı alma,

Səni məftun etdi, a Dağlaroğlu.

Baxdın gözləri sürmə zalıma,

Tab-təvanın getdi, a Dağlaroğlu!

Dodağın qaymağı, yanağın alı,

Gözünün sürməsi, başının şalı,

Tanrıdan pay kimi bu gözəl halı

Bir gizli xəlvətdi, a Dağlaroğlu.

Deyirsən gözəllik ağlını aldı,

Bir şair gözəlin oduna saldı.

Sənin ürəyində məhəbbət qaldı,

Məhəbbət sərvətdi, a Dağlaroğlu!

Şairlik ömrünün çoxusu yoxuş,

Sən Dağlaroğlusan, dağ selitək coş.

Safsa məhəbbətin, həzin nəğmə qoş,

Bu ki cəsarətdi, a Dağlaroğlu.

Deyirəm nağməmə sən bir qulaq as,
Məhəbbət dediyin nə toydur, nə yas.
Füzuli babadan qalıbdır miras,
Qalsın əmanətdi, a Dağlaroğlu.

Ülvi bir məhəbbət yaşayır məndə,
Düşməyib nə felə, nə də kəməndə.
Eşq əhli gərək ki, yaşaya qəmdə,
Qəmin də şöhrətdi, a Dağlaroğlu.

Sevinci dostlara ərmağan etdim,
Kədəri götürüb qəmgilə getdim.
Bu qoşa sevgidə əbədi bitdim,
Ürək məhəbbətdi, a Dağlaroğlu.

Bülbülün səsinə qatıb səsini,
Simuzər oxuyur el nağməsini.
Ona bəxş olunan eşq töhfəsini
Sanır sədaqətdi, a Dağlaroğlu!

## QƏBİRİSTANDA QIZLIGÜL

Bürüyüb başımı yenə duman-çən,

Ürəyim köksümdə dönüb bülbülə.

Yağış çisələyir...

Qəbiristanda mən baxıb

Mat qalmışam

Bir qızılgülə.

Onu kim gətirib əkibdir görən,

Kimin barmaqları dəyibdir ona?

Özü bu gün-sabah solacaq deyən,

Nur saçır dünyanın sonsuzluğuna.

Tanışdı, o gülün doğmadı halı,

Dərdim də onunla qoşa dayanır;

Hansı vurğununsa nakam xəyalı

Qəbrin baş ucunda alışıb-yanır...

**Lənkəran,**

**May, 2002**

## GÖRÜŞƏ GECİKSƏN...

Sev gözəl həyatı,
Sən batma yasa.
İnsan bu dünyanın imdad əlidir,
Həsrət bir ömürlük ayrılıqdırsa,
Görüş – ömürlərin üstəgəlidir.

Di gəl, bir qayğı var,
Qəlbimi qırır:
Olub keçənləri anıram bir-bir,
Görüş var – insanı göyə qaldırır,
Görüş var – insanı göydən endirir.

Gərək gələ sevgin özündən qabaq,
Uçan quşa dönüb can ata ürək:
Görüşə geciksən, itirilən vaxt
Ömürdən həyatdan itkidir demək!...

**27.04.2002**

## BU YAZ YAMAN GECİKDİ...

Əl çəkib gedə bilmir,
Bu küləklər, soyuqlar.
Bülbüldən də zil səslə,
Ötmür qaratoyuqlar.

Buludlar kölgə kimi,
Dolaşır göy üzünü.
Gün də isidə bilmir,
Dünyanın gündüzünü.

Qızılgül qönçələyib,
Elə eləcə qalıb.
Bağların şaxta tutan
Bət-bənizi saralıb.

Pərişan durub baxır,
Ağacdakı alçalar.
Qışdan qalan qardımı,
Yaz göz aşsa alçalar?

Çəmənə qızıl lalə,
Dağa duman gecikdi.
Gecikən sevgi kimi
Bu yaz yaman gecikdi...

**Bakı, 26.04.2002**

**QIŞDAN ÇIXAQ...**

Heç fikir vermisənmi
Qəmdə saza, könül?
Heç fikir vermisənmi
Saz dərdini
Yaza-yaza
Dərd ürəkdən
Sıza, könül.
Heç fikir vermisənmi
Çoxa könül,
Aza könül?

Söz soruşma sizdən, bizdən,
Qat-qarışıq talemizdən,
Görübsənmi ürəksizin,
"ürəyindən"
Beyninə qan sıza, könül?

Göz yaşı göz bəbəyindən,
Axar şair ürəyindən.
Tutaq Tanrı ətəyindən,
Çıxaq qışdan yaza, könül...

**Bakı,**

**21.03.2002**

## UŞAQ QƏLBİ AĞRIMASIN

***Bir ana uşağını döyürdü***

Vurma o uşağı,
Vurma sən elə,
Yoxsa ki, özünü böyük bilirsən?
Gör necə ağlayır o gülə-gülə,
O niyə belədi bilirsənmi sən?
Sən onun gözünün yaşına bir bax,
Uşaq ağlayanda onun yasıdır.
Axı, daş divara qısılan uşaq
Sənin ürəyinin bir parçasıdır!

Axı oxşamayıb yadın birinə,
O canlı nəfəsdir
Canlı bədəndir,
Xoş qılıq yerinə
istək yerinə
sənin əllərində bu daş nədəndir?!

O gülür, ağlayır gör yana-yana,
Yəqin ürəyində düşünür uşaq:
Vur məni, anacan, əzizim ana,
Böyüyüm görərsən mən nə sayağam,
Vurduğun ağacla sənə dayağam.

## TƏZƏ İLƏ SÖZ

***"Elə başlayaq ki, birinci gündən,***

***Peşiman olmayaq sonuncu gündə!"***

***Osman SArıvəlli***

Necə başlayım ki,

Paxıl olmasın –

Çıxmasın yoluma gündə yüz kərə!

Budur sözün düzü, həqiqət xası,

İstəmir baş vuraq dərinliklərə!

Sözümü qönçəykən boğur bilin siz,

Qoca "ustadların" sözü, gileyli.

Mən belə... siz necə köklənirsiniz,

Paxıllar tərsinə çalanda neyi?

Köhnə il, təzəyə könül kimi

Tapşır ürəyində təzə nə ki var.

Mənə də bir dərd ver şehli gül kimi,

Qalan paxıllığı özünlə apar.

Təzə il, eşitdin yəqin bu səsi,

Bədxahın qoy səsi ucalmasın heç.

Saflıq təməlidir körpə nəfəsi,

Qal bu təməllə, qocalma sən heç.

**Bakı,**

**01.01.2002**

## ÜRƏK BİRİNCİ...

Ah, bu yaz gəlişi,

Yaz yağışları!

Ağlımı-huşumu

Aparıb mənim!

Öldürəcək bizi naz baxışları,

Yaz deyil,

Bu fəsil dəlidir, nədir?

Gömgöy dərələrlə duman süründümü

Yazın bayramıdı,

Qışın yasıdı.

Alça ağacları dümağ büründümü,

Baxanda deyərsən qar talasıdır.

Yenə leysanların seli açılar,

Yenə bənövşənin teli açılar.

Ürəkdə məhəbbət at oynayanda,

Göydə şimşəklərin dili açılar.

Günəş xonçaları yerbəyər edir,

Yenə dumanlanan ağla-huşa bax.

Vətəndaş sərçələr uğunub gedir,

Qürbətdən qayıdan qaranquşa bax.

Quşlar cəh-cəh vurur günəşə sarı,

Qalxır obalardan min səs, min səda.

Tökülür göylərdən yerlərin barı,

Hürküb el bağından çəkilir qada.

**ANA XOŞBƏXTLİYİ,**

**SƏADƏT SÖZÜ**

***Səadət nəğməsi – ana kəlməsi silsilə şeir***

***"Səadət" teleproqramının 35 illiyinə***

Başımız üstündə uca bayraqdı,
Sevən sinəmizi öpən torpaqdı.
Bir haqqın altında min olan haqdı –
Ana xoşbəxtliyi,
Səadət sözü!

Eşqin, məhəbbətin kökü özündə,
Yaşayar bulağın parlaq gözündə,
El-oba gücüdür, sınmaz dizimdə
Ana xoşbəxtliyi,
Səadət sözü.

Gül açıb isidər qarı, boranı,
Bu şirin həyatla kəsməz aranı.
Ağa ləkə düşsə pozar qaranı
Ana xoşbəxtliyi,
Səadət sözü.

Mehi qanad alıb cənnət yelindən,
Nəğməsi şaqraqdır, dağlar selindən.
Axar ürəyimin zərif telindən
Ana xoşbəxtliyi,

Səadət sözü.

Hayana üz tutsa, öz adındadı,

İnadı – çarpışmaq inadındadı.

Dərdli Qarabağın qanadındadı –

Ana xoşbəxtliyi,

Səadət sözü.

Eşitsin vətənin hər bir guşəsi,

Səadət nəğməsidir ana kəlməsi.

Simuzər, dünyanın ən şirin səsi,

Ana xoşbəxtliyi,

Səadət sözü.

## HƏKİMLƏR OTAĞA GÜLÜŞLƏ GƏLİR

Həkimlər otağa gülüşlə gəlir,
Məlhəm səpmək üçün xəstə qəlbinə,
Həkimlər xəstənin dərdini bilir,
Qatır dərmanları məhəbbətinə.

Günəşdən pay alan nurlu üzləri,
Qaranlıq dünyada işıqdır yanır.
Məzlum uşaq kimi xəstə gözləri,
Bu nurlu işığı ümidi sanır.

Mələk kimi gəzər tibb işçiləri,
Əlləri şəfqətli, qəlbləri açıq,
Onlar sağlamlığın keşikçiləri,
Hamını görürəm doğmadan artıq.

Səmimi ürəyi, gülər siması,
Qüdrətli həkimin ləyaqətidir.
Ömrünün şərəflə cilalanması,
İçdiyi andına sədaqətidir.

Həyəcan bürüyür məni bu anda,
Həkimlər əlimi qayğıyla sıxır,
Bu nurlu insanlar sanki cahanda
İnsanlıq adını tac kimi taxır.

Simuzər, düşmüşəm çətinə, dara,

Səbir ilə Allaha min şükür eylə.

İnsanlıq dəyişməz dövlətə, vara,

Ürəkdə məhəbbət qalsa bir gilə.

**Stokholm, Karalinka xəstəxanası,**

**07.10.2004**

## İSİDİR MƏNİ...

*İsveçin şimalında yerləşən Qalivari şəhəri*

*Qışda burda sutka ərzində 2 saat hava işıq olur*

Bu yurdun gündüzü görünmür Allah,
Gündüzü gecədir, sabahı gecə.
Burdakı insanlar Gün görmür Allah,
Günəş ərşdə yatıb qalıbmı gecə?!

Üfüqün gözləri şəfəqdən uzaq,
Yanmayır göylərdə alovlu çıraq.
Aramsız qar yağır dünya ağappaq,
Təbiət ağ donda görünür incə.

İnsanlar dolanır, gəzir qarnı tox,
Kimsənin bu yerdə dərdi-səri yox.
Fəqət gün çevrilib olduqca sabah,
Bir gecə gələcək, gecə keçincə.

Açılmır gecənin nurlu səhəri,
Ağızın dadı yox, qəlbin təpəri.
Qovsun ürəyimdən kaş ki, qəhəri,
Deyirəm açılsın səhər indicə.

Qəribə duyğular gəlir insana,
Sanki cahan dönür qəbiristana.
Günəşsiz nur verən yox ki, cahana,
Sirli dünya çəkib məni içinə.

Qəlbində işığı olmayan insan,

Günəşsiz dünyaya bənzəyər, aman!

Ürəyim nur saçıb isidər hər an,

Məni də Simuzər, dünya durunca.

**Qalivari,**

**23.12.2003**

**YEDDİ NƏSİL, YEDDİ FƏSİL**

İnsan nəsilləri bir çələng kimi,
Yaranıb yeddi not,
Yeddi rəng kimi...

Gəlib-gedir yer üzünə hər insan,
Yeddi nəsil, yeddi arxa durmadan.
Sirli dünya, bu nə sirr:
Dövran birdir,
Torpaq birdir,
Kəfən bir?!

Yeddi fəsil, yeddi nəsil – bu nədir?
Açım sizə varaq-varaq, birbəbir.

Birinci babadır
nəslin təməli,
nəslə nümunədir
hər bir əməli
elin ağsaqqalı, evin dirəyi
övladın baş tacı,
ömrün gərəyi.
Onun qayğısıyla böyüsə övlad,
Qəm yeməz, həyatda yaşayar dilşad.
Babanın adıdır uludan ulu,

Dünyanın şahıdır, babanın qulu.

Bağban kimi meyvələri görəndə,
Çox şad olar bar budağı əyəndə.
Anam Tanrı, naşükürlük olmasın,
Boran vurub meyvələri salmasın.
Bu minvalla yaş qatlanar yaş üstə,
Pənbə bulud kölgə salar qaş üstə.

İkincinin adı nəvə adlanar,
Sevgisiylə ürək yanar, odlanar.
Nənə, baba bu paydan çox şad olar,
Ev nurlanar, damaqlarda dad olar.
Xonça kimi nənə-baba əlindən
Düşməz nəvə,
Doymaq olmaz dilindən.
Ona ad verərlər dövlətdə dəvə,
Bəd nəzər dəyməsin
Taxarlar şəvə.
Çox yazmışam nənələrin adından,
Məst olmuşam mən də nəvə dadından.
Nənə olsun kaş ki, bütün analar,
Nənəliyi müqəddəs pir sanalar!

Bu dünyadan çox şirinlik yeyiblər,
Üçüncüyə naticədir – deyiblər.
Naticənin naticəsi nə olur,

Ömür gedən

Yol yolçusu yorulur.

Bu varislər ömrə-günə gün qatar,

Tanrı versə bu ömrə də gün çatar.

Dördüncüyə ad verilib kötücə,

Çünki kötük dönüb olur bir bücə.

Kötücələr kök üstündə köklənir,

Kökləndikcə ömrümüz çiçəklənir.

Daha uca zirvələrə qalxırıq,

Son bahardan ilk bahara baxırıq.

Beşincisi düyünçədir, düyünçə,

Ya qismətə bu badəni kim içə?

Düyünçə öz düyünçəsin bağlayır,

Kimi gülür,

Kimi baxıb ağlayır.

Altıncısı sorun nədir – əticə!

Sümük gedir, ət bağlayır nəticə.

İndi gözlə nəticənin sonunu –

Dəyişdikcə nəsil-nəsil donunu.

Yeddincisi, nəhayət ki, iticə –

Yorğun karvan gəlib dayanır dincə.

İtən itir, qalan qalır, kim bilir?

Amma nəsil, nəsil dalınca gəlir!

Zülmət gecə gündüzlərdən nur alır,

Nəsillər də dünya kimi fırlanır.

Rüzgar əsdi xəfif-xəfif səbadan,

Bu məqamda bir səs gəldi səmadan.

Simuzər, bu şeir də əmanətdir, qoy qalsın,

Nəsil nəsillərə pay olsun.

**01.11.2002**

## ŞEİRİM VƏ MƏN

Şeirimi göylərdən yığa bilmirəm,
Nə qədər torpağa bağlansam da mən.
Mən öz orbitimdən çıxa bilmirəm,
Sinəmdən min dəfə dağlansam da mən.

Verək əl-ələ biz,
Qəm dağı yıxaq.
Biz ki söz acıyıq,
Şeir acıyıq,
Gəl ömrün ekvator xəttinə çıxaq,
Orda eyni dərdli – qardaş-bacıyıq.

Ötəri yanmayan hər təmiz ada,
Dərd varsa – əbədi,
Neylər əbədi,
Mən də ötəriyəm gidi dünyada,
Yaxşı ki, ötəriyəm göylər əbədi...

## HƏSRƏTİM

Yada düşdü dağa duman çökəndə,
Od sinəmin yüz xanəsi həsrətim.
Dost-doğmalar karvan çəkib köçəndə,
Ağlamağın bəhanəsi həsrətim.

İlham kimi odur mənim gərəyim,
Duzum-suyum, adım-sanım, çörəyim.
Alov saçıb göydə çaxan şimşəyim,
Gün şöləsi, Ay haləsi həsrətim.

Şeir olub varaqlarda qalan o,
Gündə məni haldan-hala salan o.
Yaşa dönüm gözlərimə dolan o,
Ayrılığın divanəsi həsrətim.

Hənirlidir, bənzəri var ocağa,
İşıq saçır gecələri otağa.
Məni səslər yaxınlardan uzağa,
Saf eşqimin pərvanəsi həsrətim.

Qartal kimi göylərimdə tək süzər,
Ulduz-ulduz dünyamızı o bəzər.
O – anadır, balasıdır Simuzər,
Ömrümdəki həyat səsi həsrətim...

**26.04.2002**

## *NƏĞMƏLİ AYIM, İLİM*

### BİR ALLAH

Hər dərdin Allahdan gəlir əlacı,
Allah qismətindən ad alır hacı.
Yazıram, mənim də başımın tacı
Bir Allah, Məhəmməd, bir də Əlidir!

Məkkə, Mədinənin yolları çiçək,
Zinət-ziyarətin olsun mübarək.
Min bir zinətində dühasında tək
Bir Allah, Məhəmməd, bir də Əlidir!

Gəzdin Araratı, Mina gərdənin,
O müqəddəs məbəd amanın sənin.
Nə qədər din olsa, imanı dinin
Bir Allah, Məhəmməd, bir də Əlidir!

Dolan bu dünyanı, öyrənib tanı,
O ali məzara tay olan hanı?!
Ürəklər hakimi, ruhlar sultanı
Bir Allah, Məhəmməd, bir də Əlidir!

Böyük yaradandır hikməti verən,
Gedib görməsəm də vəsf edirəm mən.
Xeyirlik toxumun qəlblərdə əkən
Bir Allah, Məhəmməd, bir də Əlidir!

Qənimi olanda şeytan insanın,

Şəri vüsət olar cümlə-cahanın,

Köməyi rəyyətin, həm də ki, şahın

Bir Allah, Məhəmməd,  bir də Əlidir!

Allah murad verir qurbanlar kəsə,

O haqq yollarından keçən vərəsə.

Ən böyük şəfqəti verən hər kəsə

Bir Allah, Məhəmməd,  bir də Əlidir!

Qəlbim gər kamansa, mizrabı, simi,

Çalar Tanrı eşqin nəğmələr kimi.

Verən bir kədəri min sevinc kimi

Bir Allah, Məhəmməd,  bir də Əlidir!

Tanrı cəlalıdır Məkkə sərvəti,

Şəninə çatmayır sözün qüdrəti.

Dünyalar varının şanı-şöhrəti

Bir Allah, Məhəmməd,  bir də Əlidir!

Ayılsın qəflətdə yuxusun yatan,

Görsün şeytana, şərə daş atan.

Simuzərəm, həmişə dadıma çatan

Bir Allah, Məhəmməd,  bir də Əlidir!

**Zəvvarlar Həcc ziyarətində olarkən,**

**10.01.2006**

## HƏMİŞƏ YAZDI

***Rəsul Rzanın öz ifasında radio ilə***

***şeirlərini dinləyərkən***

Şairin xoş səsi gəldi efirdən,
Doldu otağıma sirli xəzinə.
Səsi titrəyirdi sözündə hədən,
Kainat dönürdü şerin özünə.

Şeir – nəğməsiylə axan çay kimi,
Köksümə süzülüb bulaq yaratdı.
Qaranlıq gecədən baxan ay kimi
Pay verdi işıqdan çıraq yaratdı.

80-ci ildə lentə yazılıb,
Bu böyük şairin şeiri dedilər.
Misradan nə qədər kədər asılıb,
Kədərlər qəlbimi yaman diddilər.

İnsana isinir, halıdan-halı,
Olmaq istəyiydi isinməsində.
Dünyadan nigaran şair əhvalı
Duyurdum misranın hər kəlməsində.

Bir uzaqgörənlik işıq saçırdı,

Rəsul Rza adlı baxışlarında.

Şeiri vərəqlənib dünya açırdı

Sözünün xalı tək naxışlarında.

Duyğum xəyallarım mənə köməkdi,

Duyurdum şairin böyük qəlbini.

Onun hər kəlməsi kərim deməkdi,

Hikmətdi sözünün imanı, dini.

“Ürək bir cihazdır, mənimçün azdır”

Deyən sənətkarın ürəyi dağdır.

Şair payızda da həmişə yazdır,

Hər iki dünyada üzü də ağdır.

**Bakı,**

**16.02.2005**

## OQTAY RZA

*Şair Oqtay Rzanın 70 illik yubileyinə*

Bəlkə də yorubdur yetmiş il səni
Ömrün keşməkeşli yoxuşlarında.
Fəqət yormamışdır şeir sinəni,
Oxunur həmişə baxışlarında.

Mülayim qəzəbin coşqun sevincin
Şair şəfəqidir, yanır üzündə.
Ömrün hər adımı parlayan incin
Yaşayır zinət tək sənin özündə.

Qocalmır, ucalır şeir yolunda,
Oqtay Rza sirli həyat kimidir.
Yük ağır olsa da şair qolunda,
Daşıyır, əbədi qanad kimidir.

İstedadlı şair, həm də müəllim,
Bəhərli bir ömrün barı səndədi.
Dünyanın eşqindən aldığın təlim,
Sevdalı köksündə, od sinəndədi.

**25.12.2004**

## ÖLÜM AĞIR SƏFƏRDİR

***Bibimin xatirəsinə***

Ölüm ağır səfərdir,
Bu səfərin
Yol sirləri bilinmir.
Ölüm ağır səfərdir,
Bu səfərə
Gedənlər geri dönmür.

Qəfil xəbər gətirirlər
Ölümdən,
Fikir dönür karvanlara
Gəlir,
Keçmir önümdən,
Gözlərimin içində
Lövbər salıb dayanır.

Ürəyimdə qəmlə dolu
Xatirələr oyanır,
Gedəmmədim, görəmmədim
O kəsi

Ki, hər an onun

Ürəyinin tikəsi,

Budur,

Qulağıma dolur onun xoş səsi,

“Bibi sənə qurban”

Deyən kəlməsi.

Əzizləri itiririk,

Gedir

Bir də geri dönməyərək

O gedən,

Bilmirik nədən,

Biz bilmirik!...

Ölüm ağır səfərdir,

Bu səfərin

Yol sirləri bilinməz.

Ölüm ağır səfərdir,

Biz bilirik, bu səfərə gedənlər

geri dönməz.

**HANI TELLİ SAZIN,**

**MİZRABIN SƏNİN**

***Aşıq Ulduzun məclisinə getdik, gördük***

***sazı divardan asılıb, mizrabı yoxdur.***

Gəldik məclisinə, ay aşıq bacı,
Hanı telli sazın, mizrabın sənin?
Çəkmisən topuğa o uzun saçı,
Hanı telli sazın, mizrabın sənin?

Bizi qarşıladın gülər üzünlə,
Mənalı baxışla, süzgün gözünlə.
Mirvari düzürsən incə sözünlə,
Hanı telli sazın, mizrabın sənin?

Sal səni Tanrı, sazı boynuna,
Gətir naz-qəmzəni meydan qoynuna.
Könülləri salan eşqin oynuna
Hanı telli sazın, mizrabın sənin?

Bu da məclisi – "Şam" gəldi düzüldü,
Şerə ürək verdin canın üzüldü.
Məhəbbətlə doldu gözlər süzüldü,
Hanı telli sazın, mizrabın sənin?

Saçı uzun olan bir qız olmusan,
Köçmüsən göylərə, ulduz olmusan.

Mizrabın xalından köz-köz olmusan,

Hanı telli sazın, mizrabın sənin?

Simuzərəm, eşq odunda yerim var,

Sehrli sazında dinən telim var.

Mizrabın telində yanan dilim var,

Hanı telli sazın, mizrabın sənin?

**09.05.2005**

## MEHRİ BALAM

İlk taleyim,
İlk qismətim,
İlk barımsan!
Bu dünyada sərvətim sən,
Varım sən.
Taleyimin bağçasında,
Bağlarında qönçələnən
İlk çiçəyim, nübarımsan,
Mehri balam,
İlkin balam.
Qəm karvanı, həsrət mülkü
Olurkən ürəyimin sarayı,
Bu sarayı
Məhəbbətin
Naxış-naxış bəzəyib
Taleyimin xoş müjdəli
Harayı.
Sənin sevgi dolu
Gözlərinin parıltısı
İşığıdır.
Yadımdadır ilk arzumda,
Qollarımın üstündə,
Körpə qundaq içində,

Xırda qara gözlərini

Açmağın.

İşıqlı, nurlu bir dünyamdan

Mənə müjdə gətirdiyin

Dünya boyda analığın məhəbbət

Şəfəqini

Gözlərinə

Gözlərimdən saçmağın.

Oğul kimi qız balam,

Sən gələndən bu dünyaya,

Analığın rəmzisən.

Amma doğulduğun gündən,

Elə, oğul kimi olmusan.

**02.07.2006**

## AY OĞUL BALAM

Sən qərib könlümün həmdəmi oldun,

Ay canım, gözüm, ay oğul balam.

Həm böyük sevincim, həm qəmim oldun,

Balımsan, şəkərim, ay noğul balam.

Sən bu dünyaya gələndən bəri,

Mən unutmuşam bütün qəmləri.

Olsa da qəlbimin çox sitəmləri,

Eşqim, məhəbbətim sənsən, ay oğul!

Anan ürəyinə yağ səndən alıb,

Səndən həmişə nigaran qalıb.

Yenə ana ürəyim xəyala dalıb,

Eşqim, məhəbbətim sənsən, ay oğul!

Analar balanı düşünən kimi,

Balalar kimləri düşünür, kimi?

Fərq etməz sən kimi düşünsən, kimi,

Eşqim, məhəbbətim sənsən, ay oğul!

Bəzən mələk kimi göydən enmisən,

Ananı dərdinə dərman demisən.

Sən həyat eşqini mənə vermisən,

Eşqim, məhəbbətim sənsən, ay oğul!

Dünyanın sərvəti dünya qədərdi,

Varı, dövləti də gəldi-gedərdi.

Hər sonun sonuna qalan kədərdi,

Eşqim, məhəbbətim sənsən, ay oğul!

Duasız keçinməz ana söhbəti,

Ulu Tanrı versin sənə dövləti.

Əmanət saxla gəl bu təravəti,

Eşqim, məhəbbətim sənsən, ay oğul!

Mən səni dövlətim, varım bilmişəm,

Başqa bir sərvətə göz dikməmişəm.

Simuzərəm, həmişə haqqı demişəm,

Eşqim, məhəbbətim sənsən, ay oğul!

**05.07.2006**

## ƏZİZLƏRİM

Balalarım, oğlum, qızım,

Nəvələrim – əzizlərim

Siz,

Taleyimdə, ömrümdə hər şeydən

Qiymətli incilərimsiz!

Mən tək sizin üçün yaşa doldum,

Sizin arzularla qoşa oldum.

Sevincinizi, kədərinizi

Ürəyimin tellərinə gizli-gizli

Yükləyib dolandım,

Siz mənim dolu andım,

Taleyimin ən uğurlu anları sizi sandım.

Sanmayın sizdən nəsə

Umuram, düzü

Bilirəm anayam,

Ana borcunu qaytarmağın

Mümkünü yox,

Anadan anaya keçəndə

İnsan bunu düşünür çox.

Tanrıya min-min şükürlər deyirəm,

Mən sizi dünyalar qədər sevirəm.

Övladlarım, hər biriniz xoş taleli, xoş günlü,

Bir əbədi işıq kimi yaşayın!

Sonu, ucu bilinməyən

Dünya boyda məhəbbəti

Nəğmə-nəğmə ötüşün,

Çələng-çələng daşıyın,

Mənim sirli,

Dil bilməyən dilimdən!

Aylarımdan, ilimdən.

## SƏMA BALAM

***Səmanın ad günündə***

Qış ötüşür, el bağlara yaylanır,
Səma balam ildən-ilə boylanır.

Çiçək kimi qönçələnir çəməndə,
Tər çəmənlər sübh şehində çiməndə.
Ətir umur saçından yasəmən də...
Qış ötüşür, el bağlara yaylanır,
Səma balam ildən-ilə boylanır.

Günəş öpür Ay üzünü nurlayır,
Nazlı balam ulduz kimi parlayır.
El toyları tar-qavalla gurlayır,
Qış ötüşür, el bağlara yaylanır,
Səma balam ildən-ilə boylanır.

İşığını görüb göydə ay batır,
Kirpikləri qəmzə-qəmzə ox atır.
Eşq nağılı hələ yuxuda yatır,
Qış ötüşür, el bağlara yaylanır,
Səma balam ildən-ilə boylanır.

Yamacların sinəsi gül bağlayır,
Şer qoşur, söz bulağı çağlayır.
Uğurları addımın soraqlayır,

Qış ötüşür, el bağlara yaylanır,
Səma balam ildən-ilə boylanır.
Həyasından, zəkasından şövq alam,
İlahidə hikmətlidir nur balam.
Söz acıtək bu şərəfdən söz salam,
Qış ötüşür, el bağlara yaylanır,
Səma balam ildən-ilə boylanır.

Yanaq lalə, dodaq qönçə, buxaq tər,
Müjdə verir dan ulduzu hər səhər.
Şükür edir, Tanrısına Simuzər,
Qış ötüşür, el bağlara yaylanır,
Səma balam ildən-ilə boylanır.

**16.12.2001**

**ŞÖVKƏTİM**

Şövkət qızım, can qızım,

Boy atıb boydan qızım,

Sən çörəyim, həm duzum,

Şövkət qızım, şan qızım,

Günəş qızım, dan qızım.

Saçların qulac-qulac,

Sünbültək bağlayıb, aç,

Ətrafına işıq saç,

Şövkət qızım, şan qızım,

Günəş qızım, dan qızım.

Göydən ulduzları yol,

Dərs oxu, elmli ol,

Sənin yolundu bu yol,

Şövkət qızım, şan qızım,

Günəş qızım, dan qızım.

Qoru onu, ilahi,

Eşqi olsun günahı,

Boyu uca sürahi,

Şövkət qızım, şan qızım,

Günəş qızım, dan qızım.

**İsveç,**

**09.03.2004**

## CƏVAHİRİM

Çağırsam hər an gələr,
Bağlardan çiçək dərər,
Saçına çələng hörər,
Ləl qızım – Cəvahirim.

Sözündə hikməti var,
Gözündə sevgi yanar,
Günəşlə bir oyanar,
Ləl qızım – Cəvahirim.

Çox sevir sədaqəti,
Vüqarı, dəyanəti,
Vətənimin sərvəti,
Ləl qızım – Cəvahirim.

Sevgidən daşıb coşdum,
Adına şeir qoşdum,
Qəlbimi sənə açdım,
Ləl qızım – Cəvahirim.

Şirni yox, balım kimi,
Xalın var, xalım kimi,
Könlümün sarı simi,
Ləl qızım – Cəvahirim.

**09.03.2004**

**SƏMAM MƏNİM**

Səmam mənim,

Nəvəm mənim,

Gözlərimdə şəvəm mənim.

Sən Aydan da durusan,

Gözlərimin nurusan,

Gözəllərin içində,

Bir mələksən, hurisən.

Səmam mənim

Nəvəm mənim,

Gözlərimdə şəvəm mənim.

Tellərini meh darar,

Saçlarını Ay hörər.

Xəcalətdən gizlənər,

Səni gündüz Gün görər.

Səmam mənim

Nəvəm mənim,

Gözlərimdə şəvəm mənim.

Eşqimin sorağısan,

Ürəyimin yağısan,

Ətirli çiçək qızım,

Sən məhəbbət bağısan.

Səmam mənim

Nəvəm mənim,

Gözlərimdə şəvəm mənim.

**İsveç,**

**10.02.2003**

## FİDANIM

Biz qızım var Fidanım,

Yanağı qızıl danım.

Ona bağlıdır mənim

Ürəyim, həm də canım.

Özü dağlar çiçəyi,

Dodağı gül ləçəyi.

Evimizin göyçəyi,

Sevgi bağım Fidanım.

Fidanım asta gəzər,

Bağçamızdan gül üzər.

Telinə çələng düzər

Mənim ürkək Fidanım.

Oolub Tanrı fərmanı,

Atasının dərmanı.

Sevincimdir hər anı,

Fidan qızım cahanım.

Əmilər, həm dayılar

Onçun əziz sayılar.

Məhəbbətdən payı var,

Adım, sanım Fidanım.

**08.03.2004**

## SƏRGİ SALONUNDA

***İnsan portretlərinin gözəl təsvirçisi***

***rəssam Minayə Dəyanətqızına***

Sərgi salonuna yığışıb hamı,
Tablolar görünür bir canlı kimi.
Sanki yandırmısan möcüzə şamı,
Hamı tamaşada, məftundu kimi.

İnsandır dünyanın gözəl sərvəti,
Fırçan bu hikməti duyur əlində.
Təsvirlər gizlicə, sakit, xəlvəti,
Danışır səninlə, sənin dilində.

Bəxş edib, sərvətdir bütün təbiət,
Tanrı gözəlliklər verib insana.
Burda payın vardır sənin də əlbət,
Allah hüzurundan bizim cahana.

Qadınsan, rəssamsan, həm də bir ana,
Gecəni gündüzə qatırsan, bacım.
Ömür yaşayırsan sən yana-yana,
Böyük arzulara çatırsan, bacım.

İstedad önündə söz qoş, Simuzər,
Bir Günəşə bax, dəyər min Aya.

İşıqlı bir ürək dünyanı bəzər,

Köksündə Günəş var sənin Minayə.

**20.10.2003**

**MÜƏLLİM ÖNÜNDƏ**

*Müəllimim Mirhaşım Talışlının*

*75 illik yubileyinə ithaf edirəm.*

Adi görünməyib mənə müəllim,
İlk dəfə sinifə girən günümdən.
Qələmi tutanda titrəyib əlim,
Müəllim keçəndə partam önündən.

Ana yazmaq sözün öyrədib mənə,
Ayağım torpağa bərkiyib həmən.
Çevrilib vətənin bir tikəsinə,
Dönmüşəm daşına, torpağına mən.

Müəllimin ömrü bənzəyər şama,
Ürəyi yağ kimi əriyib gedər.
Gündüzün gününü qatıb axşama,
Müəllim özünü bir çıraq edər.

Saçları dağlarda sanki qar kimi,
Nur saçar ağılın elmin yolunda.
Zəhməti bağlarda sanki bar kimi,
Yaşayar vətənin, elin yolunda.

Müəllim kəlməsin qoruyar dilim,
Gör neçə misranın, sözün içində.
Müəllim kəlməsi deyirəm, gülüm,

Yaşayar köksümdə közün içində.

***

Nə vaxtsa balaca bir qız idim mən,
Şagirdlik ömrümdə sədəfli bir saz.
Mənə elm öyrətdin çox şövq ilə sən,
Min ömür calasan azdır, yenə az.

Bu xoş qismətimə görün nə düşüb,
75 yaşını təbriklər üçün.
Qayğıdan, qüssədən, qəmdən ötüşüb,
Vətənə gəlmişəm, müəllim, bu gün.

Zəhmət qarşısında görərdim onu,
Fikrini necə də dərin qazardı.
Nəsihətlərinin olmazdı sonu,
Dərsi alnımıza sanki yazardı.

Əziz müəllimim sənin önündə,
Baş əyib deyirəm yaşa, yüz yaşa.
Bu müdrik çağında gözəl günündə,
Kövrək arzuların dəyməsin daşa.

Kövrək tar simiyəm müəllim önündə,
Hər ad çəkiləndə düşmərəm oda.
Simuzər, həyatda şax dolansam da,
Bənövşə kimiyəm, müəllim, önündə...

**Lənkəran,** **21.05.2002**

## QADIN ADIMIZLA BİZ YÜKSƏLİRİK

(poema)

***"Sürüklənən bəşəriyyət qadınla yüksələcək"***

***H. Cavid***

Getdim görüşünə
Lalə Şövkətin,
El onda görürdü
Şanı-şövkətin.
Nə gördüm, ilahi,
Göz-gözə bu gün.
Dəyanətlə gəldim
Üz-üzə bu gün.
Ləyaqət məkanı
Bir nəcib qadın
Qaldırır göylərə
vətənin adın.
Məğrur millətimin
Aslan qadını
Tanıyır dostunu,
Duyur yadını.
Kor olsun paxıllar,
Xar olsun yağı!
Dəyməsin torpağa
Nankor ayağı,
Həsrətin kamanda,
Göz yaşın neydə.

Möcüzə taleyin

Enibdi göydən.

Bir kəlmə eşitdin

Kimsə söylədi,

“Siz Azərbaycanın erkəyisiniz”

Yox açmadı məni bu kəlmə,

Ürəyim hökm etdi mənim əlimə,

Səsimi dünyaya ucaldıb deyəm.

Bil vətən övladı,

Gör kiməm, nəyəm.

Göylərdə görünən

Ayın haləsi,

Dağların çiçəyi,

Düzlər laləsi.

Bu elin torpağın

Huri mələyi,

Nizamə salacaq çərxi-fələyi.

Sənə ad verirəm:

Millət anası!

Həqiqət aynası,

Vətən laylası,

Mərdlik qayəsisən

Beşlik başında,

Çəkilib qılıncın

Qələm qaşında,

Yarandın torpağın

al qanı kimi.

El deyib, mən deyim,

Bir də qulaq as,

Aslanın erkəyi,

dişisi olmaz!

***

Torpaq, qara torpaq –

Ana torpaq

Birləşib yaratdı məni üzü ağ,

Səpələnmişəm

Vətən düzünə.

Şərəfim nur saçır

Elin üzünə;

Sənə üz tuturam, ey ər oğlu ər,

Qoşa qanadındır hər axşam-səhər

Ləyaqət rəmzidir

Həyatda qadın,

Kişi kəlməsiylə

Dəyişmə adın.

Çəkir dünya boyda

Sinə ahını,

Qadındır yetirən

Kişi dahini.

Dahilər yaradıb

Qoyurlar min iz,

Ərlərə əvəzdir,

Unutmayın siz.

Tomrisdən, Nigardan,

Həcərdən danış.

Vətən Günəşiylə

Alovlan, alış.

Yazdıqca dahilər
İncitək şerin,
Açıblar dünyanın
Açılmaz sirrin.
Leyli məhəbbəti,
Şirin dəyanət.
Nüşabəylə gülüb
Gülməyən həyat.
Adları
Tarixdə əbədi qalır,
Mən söylədikcə
onlar çoxalır,
O qəlbilə qadın
İpək tək əsdi,
düşmən başlarını
qılıncla kəsdi,
Dünyanı fəth etdi
kişi İsgəndər.
Qan töküb ad qoydu,
O ər oğlu ər.
Ağlının gücüylə
Kəsdi qan izin,
Nüşabə qadındı,
Çox zərif həzin.

Yeri var açılsın

Yenə söhbətim,

Zamanın hökmüdür

Lalə Şövkətim.

Ey çaylar nəğməsi,

Göllər sonası.

Polad məğrurluğun

Deyil sınası,

Sənin gözəl çöhrən

Saldıqca işıq.

Taxt-tac da hüsnünə

Üstün yaraşıq.

İgidlər içində

Yox sənə əvəz,

Sənə bir kimsə

Bənzəyə bilməz,

Sən gəldin;

Sənintək de kim gələcək?

Millətim səninlə çox yüksələcək.

Simuzər, bulaqlar gözündən içib gəlirik,

Qadın adımızla biz yüksəlirik!

**13.10.2003**

## AYTƏNİM

(Aytənin toy gününə)

Aytən özü çiçəkdi,

Dibçəklərdə gül əkdi.

Gözəllərin içində

Aytən bircədi, təkdi.

Dünya dolu bir güldü,

Güldən şəbnəm üzüldü.

Aytəni gəlin gördüm,

Qəlbim fərəhdən güldü.

Üzü almadan aldı,

Sözü şəkərdi, baldı.

Ağlın başından aldı,

Eminin bu gözəllik.

Həmişə xoşbəxt olsun,

Taleh üzünə gülsün.

Düşdüyü ocağında,

Külün də qədrin bilsin.

Ayla, günlə olub tən,

Bizim qızımız Aytən.

Fəxr edər, deyər Emin

Dünyada xoşbəxtəm mən.

Xoşbəxtliyə ad olsun,

Aytən Emin şad olsun.

Ömür yolu, gün yolu,

Damağıza dad olsun.

**02.11.2005**

## ABUZƏRİN DÜNYASI

***Balaca rəssam-şair Abuzərə***

Hər insan – gəzəri, canlı bir ölkə,
Yaranıb ölümü qocaltmaq üçün.
Sən də yer üzünə gəlmisən bəlkə,
İnsanlıq adını ucaltmaq üçün.

Gəzib-dolanırsan pərişan, hallı,
Xəyal dünyasında nə arayırsan?
Dar tora ilişmiş balıq misallı
Azadlığa gedən yol darayırsan.

Ulduz gətirəndə göy tabaq-tabaq,
Sən quşa dönərsən,
Uça bilərsən.
Sən qaça bilərsən hamıdan, ancaq,
Özündən bəs necə qaça bilərsən?!

Yazıb-yaratdıqca dönərsən neyə,
Uşaqsan,
Ömrünün büllur çağısan.
Ağlının ağası olsan da niyə,
Qəlbinin qulusan, oyuncağısan?

Sən – yuva

Nə sirlər hörülüb sənə,

Sözündə, rəsmində nələr çəkərsən?

Bu vergi Tanrıdan verilib sənə,

Özünü çəkəndə haqqı çəkərsən...

**27.10.2002**

## MÜŞFİQ

***M. Müşfiqin 90 illik yubileyinə***

Saçı buludların halayı kimi,
Qəlbi məhəbbətin sarayı kimi,
Bir sirli nəğmədir ellərə Müşfiq,
Müqəddəs kəlmədir dillərə Müşfiq.

Coşqun sinəsində böyük sevgisi,
Dağların başından axır çay kimi.
O böyük istedad, Tanrı vergisi,
Gecəni boynuna taxan Ay kimi.

Atlası yaradan qurama kimi,
İçində boğulan ipəkdi Müşfiq.
Bahardan yol keçib borana kimi
Getsə də solmayan çiçəkdi Müşfiq.

Sözü nəğmələrdə şərbət kimidir,
Qəlblərə süzülür, könül oxşayır.
"Oxu tar"ı qəlbimizin simidir,
Unudulmaz köksümüzdə yaşayır.

Ömrümə qəsd edib bir nur cavanın,
Başında gəzdirən qanla dolu "tac".

Rəhmi qan çanağı hökmü rəvanın,

Vicdanı həmişə rəhminə möhtac!

Eh, Müşfiq... dənizin sözünə dönüb,

Yaşayar qırçınlı dalğalarında.

Dalğanın mirvari gözünə dönüb,

Alışır sahilin sırğalarında.

Vətənin daş-qaşı, zəridi Müşfiq!

Onu dəryaların dizində axtar.

Bu ana torpağın təridi Müşfiq,

Elə torpağın da özündə axtar!...

**29.12.2001**

## ƏMİNƏ XANIM

Üzündə təbəssüm, gözündə sevgi,
Eşqin dünyasıdır Əminə xanım.
Qələmim yazdısa ürəyim dedi,
Elin anasıdır Əminə xanım.

İstedadı var, söz ola bilməz,
Etibarı çoxdur, az ola bilməz.
Yeri var, nazı tək naz ola bilməz,
Dostluq anasıdır Əminə xanım.

Ürəyi yuxadır, yayılar, axar,
Həyatın gözünə zirvədən baxar.
Danışsa ağzından bal, şəkər axar,
Bir dürr danəsidir Əminə xanım.

Ağlayanla ağlayar, gülənlə gülər,
Əhli-hal olanın qədrini bilər.
Simuzər deyibdir, həmişə deyər,
Göllər sonasıdır Əminə xanım.

**20.12.2004**

**MÜŞKİNAZIM**

Adına nəğmə yazım,
Dillənsin telli sazım,
Oxu, oyna, gəl qızım,
Ay mənim Müşkinazım.

Atanın dilli qızı,
Telləri güllü qızı,
Baharımsan, həm yazım,
Ay mənim Müşkinazım.

Dərdimə min bir əlac,
Saçların qulac-qulac.
Sən mənim şəkər, duzum,
Ay mənim Müşkinazım.

Nənənin gül nəvəsi,
Ürəyinin həvəsi.
Toyunda süzüm özüm,
Ay mənim Müşkinazım.

## XƏZƏRDƏ ŞƏKLİM

***Müğənni Rəna, hərbçi-şairə Gülnigarla mən "Xatun" ədəbi məclisimizdən çıxıb sahil parkı ilə gedirdik. Gülnigar şəklimi götürüb heyranlıqla baxırkən, qəfil külək əlindən vurub dənizə saldı. O, şəkli dənizdən çox cəsarətlə çıxartdı.***

Bir gün Gülnigarla Rəna, bir də mən,
"Xatun" məclisindən çıxmışdıq çox şən.
Gedirdik Xəzərin sahili ilə,
Şeirlə mahnını bölüşürdük tən.

Susmurdu Rənanın gözəl avazı,
Gülnigar şerlə səpirdi nazı.
Beləcə bizimlə həmdəmdi Xəzər,
Nəğməkar dalğalar mahnıdan gözəl.

Əksimi Gülnigar alıb əlinə,
Baxırdı, çəkirdi sığal telinə.
Qəfil qalxan külək aldı şəklimi,
Dalğalar qoynuna saldı şəklimi.

Xəzər sularında üzürdü şəkil,

"Mənə kömək" deyə süzürdü şəkil.

Heyrət içindəydik – görəsən indi,

O şəkli Xəzərdən götürən kimdi?!

Nigar tək meydana endi Gülnigar,

Gördük cəsarətə təndi Gülnigar –

Şığıyıb şəkili aldı əlinə,

Xəzərin qoynunda taxdı belinə.

Şairi şeirlə eylədi həmdəm,

Özü də bir şeir istədi məndən.

Ləpələr misratək düzüldü şerə,

Şər də xəcalətlə qısındı Xeyrə.

Cəsarət meydanı sənindir, sənin,

Döyüşçü qızısan sən bu vətənin.

Şeirsən, hünərsən, ay Nigar bacım,

Həmişə cəsursan, Gülnigar bacım.

## GÜLƏRİM

***Gülərin toy gününə nənəsinin dili ilə***

Gülər gülür,

çəmən gülür.

Bu mübarək gündə bu gün el gülür.

İllər boyu zaman-zaman gözlədik,

Gülər qızım, qədəmini izlədik.

Nəhayət ki, sən göz açdın dünyaya,

Xoşbəxtliyin həddi gəlmədi saya.

Əziz balam, şirin qızım, Gülərim,

Fərəhlənib sevinibdir

Sənlə ötən günlərim.

Tanrıya çox şükürlər

Mən demişdim o günə.

Zaman gələr, kaman dinə,

Nəğmə dinə, tar dinə.

Sən çatasan analığın həddinə,

Şükür olsun, biz çatmışıq bu günə,

Toy çalınır sənin böyük eşqinə.

Ürəyimdə gizli-gizli

Ümidlərim oyanır,

Ötüb keçən xoş günlərin

Fərəhinə boylanır.

Nənən deyib, yenə deyir,

Xoşbəxt olsun Gülərim,

Tükənməsin həyatında

Sevgi dolu günlərin!

**10.06.2006**

**LƏMPƏ ŞAM DEYİL**

Hər baxış insanda görən göz deyil,

Hər söz söyləyənin sözü söz deyil.

Min bir sirri var qiymətli sözün,

Söz deyən sözüylə tanıdır özün.

Şam öz şöləsini Günəşdən almış,

Füzuli babadan yadigar qalmış.

Bəlkə bu işıqdan yaranıb söz də,

Duyur hənirini görməyən  göz də.

Tale oyunudur bir sal yadına,

Eşqdə dönük çıxan, yara yad olan,

Yüz ömür yaşasa, talandı talan.

Çatmaz muradına, yetməz əhdinə,

Onun alovun nə, onun odu nə?

Odundan, közündən sönən bir "gözəl"

Zülmətə tuş gələr işıqdan əzəl.

O yanmaz şam kimi öz alovunda,

Qalar ləmpəli bir gecə oyununda.

Şama ləmpə deyən nadan sərsəri,

Eşitsin sözümü bu gündən bəri.

Ləmpə ki şam deyil, yanar, ərimæz,

Yaşayıb-yaratmaq əzmini bilməz.

O kəs ki, ləmpəylə şamı dəf salar,

Yanmaz bir "işıqla" zülmətdə qalar.

Yaşayar işığın eşqidən alan,

Yaşamaz eşqisiz işıqda qalan.

Qərinə-qərinə işıq giləsi,
Şeir haləsidir şamın şöləsi.
Bu halə əbədi məhəbbət saçır,
Axır ürəyimə, sözüm gül açır.
Öz işığını götürüb şamdan,
Simuzər dünyaya gəldiyi andan.

## *BU HEÇ VAXT OLMAYIB SİRR,*
## *FİL FİLDİ, ŞİR DƏ Kİ, ŞİR...*

### SÖZ SƏNƏTİN...

Söz sənətin qanmayana öyrədin,
Şeir oxuyub anmayana öyrədin.
Peyda olub indi Mirzə Qələmlər,
Şöz çaqqalı, əldə gürzə qələmlər.
Nə bilirlər, pələng nədir, şir nədir?
Bu Mirzənin əlləri dal cibdədir.
Söz sənətin qanmayana öyrədin,
Şeir oxuyub anmayana öyrədin.

Mirzə Qələm, qələmini basginən,
Get bazara, bir qazan al, asginən.
Kal kəlmələr bir az bişib dadlansın,
Ac qulaqlar onu yusib sallasın.
Söz sənətin qanmayana öyrədin,
Şeir oxuyub anmayana öyrədin.

Öyrədin həm yazan, həm də naşiri,
Ta qanmazlar qanmayınca şairi.
Mirzə deyib ucuz tutma qələmis,

Hədyan yazıb qatmaginən Aləmi.

Söz sənətin qanmayana öyrədin,

Şeir oxuyub anmayana öyrədin.

## KƏBUTƏR

Dərya aşar, göl aşar,

İlan udar,

Qurbağanın işi nə?

Yazıq kəbutər düşüb

Yekə tülkü dişinə.

## KƏKLİK

Kəkliyin adını de,

Doğması, yadını de.

Göydə qanad çalmağı,

Yerdən ilham almağı

Veribdir Tanrı ona ,

Amma girib min dona

kol dibində gizlənər,

Daş dibində izlənər.

## ÇAQQAL

Çaqqal-çuqqalla gəda
İndi çatıbdır ada.
Bircə salmayır yada,
O, çaqqaldı dünyada.

Soruşma həyanlıdı,
Bilirəm tikanlıdır.
Atanlı-tutanlıdı,
Bircə salmayır yada,
O, çaqqaldı dünyada.

Bu heç vaxt olmayıb sirr,
Fil fildi, şir də ki, şir.
A çaqqal, unutma, bil,
Aradasan, arada,
Sən çaqqalsan dünyada.

## *ÇƏMƏNDƏ QIZILGÜL*

## *DƏRDİMİ DƏRDİ*

**BAYATILAR**

Əzizim, gözə gəldim,

Vuruldum üzə gəldim.

Dərdi tək çəkəmmmədim,

Baş alıb sizə gəldim.

* * *

Əzizim, yeri baxsan,

Nolar ötəri baxsan?

Boynun əyri bitməz ki,

Bir dönüb geri baxsan?!

* * *

Mənada mən oldum, gəl,

Dəryada doğuldum, gəl,

Sən ömrümdən gedəni,

Damlada boğuldum, gəl!

* * *

Əzizim, can sadağa,
Baxma sinəmdə dağa,
Bu yol məzarə gedir,
Qoy mən düşüm qabağa.

* * *

Ay mənim canım-gözüm,
Dayan, sənədir sözüm,
Dözümə dərs verirəm
İndi daha mən özüm.

* * *

Gündüz çaya dönəydim,
Gecə aya dönəydim.
Çiçəklər məst olanda
Bu dünyaya dönəydim.

* * *

Yurda xeyrim olaydı,
Ölməz şerim olaydı,
Ötən durna qatarı,
Səndə yerim olaydı.

* * *

Bu xəzandı nur yayan,
Yarpaqları qovlayan.
Ayaq altda yarpaq yox,

Payızdı çabalayan.

* * *

Tənha bulaq nə idi,

Quzutək mələyirdi.

Bu çay başını qoyub,

Dəryaya nə deyirdi?

* * *

Gedən yolum olaydı,

Dağım-çölüm olaydı,

Ağac kəsilən yerdə

Düşən qolum olaydı.

* * *

Sevib ana torpağı,

Tərgitdim ağlamağı.

Məndən şeir soruşan,

Özüm şeirəm axı!

* * *

İncidir söz şairi,

Sinəsi köz şairi,

Kişi şairlərimiz,

Qoruyun qız şairi!

* * *

Həsrət dağlatdı məni,

Söz qana atdı məni.

Mən sənə aldanmazdım,

Qəlbim aldatdı məni.

* * *

Sinəm sözlə doluyam,

Qayğılardan bolluyam,

Çəkil göyümdən, bulud,

Mən günəş arzuluyam.

* * *

Eldə ötən sazam mən,

Səsəm mən, avazam mən,

Qoşa gözüm yaş dolu, –

Kürəm mən, Arazam mən...

* * *

Buludsuz aya dönəm,

Bir insaf dünyaya dönəm,

Lal dərya kimə lazım,

Nəğməkar çaya dönəm!

* * *

Gələnlər qaldı, getdi,

Demə, xəyaldı, getdi.

Bu dünyanın kamını,

Sevənlər aldı, getdi.

* * *

Ey eşqim, kamala gəl,

Sevmirsə, zavala gəl.

Demədim gəl mənim ol,

Deyirəm xəyala gəl.

* * *

Durna qayıdıb gələr,

Yer-göyü çatıb gələr.

Çaylar getdi, qayıtmaz,

Yollar qayıdıb gələr.

* * *

Sevgimdə yoxdu yalan,

Hardadı belə talan.

Mən sənə tuş gələndən,

Qəlbimdi oyaq qalan...

* * *

Haraylayıram, ana,

Odda yanıram ana,

Öz doğma şəhərimdə,

Mərdi danıram ana.

* * *

Kim kimə qənim, haray,

Dumanım-çənim, haray,

Şəhid ola bilmədim,

Ana Vətənim, haray!

* * *

Dağlarda belim hanı,

Çaylarda selim hanı?

Daraq aldım darayam,

Əlimdə telim hanı?

* * *

Namərd, ağlı sönüklər,

Bizdən üzü çönüklər,

Biz qızı qonşu idik,

Dönük çıxdı dönüklər.

* * *

Dad aldım çörəyimdən,

Ellərə gərəyimdən,

Xocalım qanlı bayraq –

Asmışam, ürəyimdən.

* * *

Kal bişər, bişmiş olar,

Ocaqdan düşmüş olar.

Məhəbbətin qorası,

Ta gələr kişmiş olar.

* * *

Talışdağın zirvəsi,

Daim eşit bu səsi.

Elin qeyrətli oğlu,

Yeməz haram tikəsi.

* * *

Övladların yalandı,

Ata, evin talandı,

Gördü yurdu dağılıb,

Qəlbin oda qalandı.

* * *

Çörək tikə loğmalar,

Nankor çıxdı doğmalar,

Mən yurddan küsüb getdim,

Namərd qalıb, yorğalar.

* * *

Bu gördüyüm taladı,

Gözəlliyim bəladı,

Yar mənə könül verdi,

Eşq evimi taladı.

* * *

Yağı kimdi, vətən kim,

Quşlar kimi ötən kim?

Bu dünyada qalan kim,

Bu dünyadan gedən kim?

* * *

Gözlərim ağlar oldu,

Çay kimi çağlar oldu.

Səndən mənə ayrılıq,

Həsrət yadigar oldu.

* * *

Eşqim qarlı yaz oldu,

Sevgim yorulmaz oldu,

Sussa da dilim, ağzım,

Ürəyim susmaz oldu.

* * *

Güllü çöllərim haray,

Dağda sellərim haray,

Vətəndir əldən gedən,

Haray, ellərim, haray!

* * *

Əzizim, qanan ağlar,

Dağ getsə, aran ağlar.

Bağban vaxtsız ölübsə,

Bağ-bağça viran ağlar.

* * *

Dağların başı deyil,

Torpaq savaşı deyil,

Bu çay mənim çayımsa,

Niyə göz yaşı deyil?

* * *

Əzizim, tək məni yox,

Yurdu yox, vətəni yox,

Dərd qoşun çəkib gəlir,

Çəkilib gedəni yox.

* * *

Demərəm Allaham mən,

Bəndəyəm, günaham mən,

Təkcə paxıl bilsun ki,

Bir nurlu sabaham mən.

* * *

Dağda duman, çən dedim,

Onu dedim, mən dedim,

Ayağıma daş dəydi,

Can dedim, Vətən dedim.

* * *

Tanrının dəmiyəm mən,

Biçilməz zəmiyəm mən,

Vətən, dərdin dəryadır,

Bir sınmış gəmiyəm mən...

* * *

Baxıram günə, aya,

Ulduzu saya-saya,

Bilsəm dünya beləymiş,

Gəlməzdim heç dünyaya.

* * *

Əzizim, sular getsin,

Səmada qular getsin,

Qəm çayı ol, çiynində

Qəmsiz duyğular getsin.

* * *

Tanrı var, yaşa dağlar,

Hüsnü tamaşa dağlar,

Mən də köksü dağlıyam,

Duraq baş-başa dağlar...

* * *

Dağlarda duman gözəl,

Ürəkdə güman gözəl,

Sən məndən ayrılalı,

Olmuşam yaman gözəl.

* * *

Bağlardan gülü dərmə,

Dərib günlüyə sərmə,

Sən mənə həsrət yolla,

Vüsal qalsın, göndərmə.

* * *

Uşaqların sevinci,

Birincidir, birinci.

Dünya səslərlə dolu,

Körpə səsi birinci.

* * *

Səs salıb düzə-dağa,

Uçub-uçub qabağa,

– Çay haraya tələsir?

– Dənizə baş qoymağa!...

* * *

Çox şeir yazmışam mən,

Qəmlərdə azmışam mən,

Könül mizrab, ürək tel,

Sən demə, sazmışam mən.

* * *

Ceyranın gözünə bax,

Dənizin duzuna bax,

Min qəmzəli, min nazlı,

Talışın qızına bax.

* * *

Xeyirdə əlin olsun,

Cəvahir gəlin olsun,

Qəlbi, çörəyi isti,

Suyu da sərin olsun.

* * *

Elə alış, elə yan,

Düş ürəyə, dilə yan.

Ocağında köz qalsın,

Gün gəlsin, küldə oyan.

* * *

Qərib ölkə, qərib dağ,

Ürəyim əsən budaq.

Məni görüb utandı,

Yaşmağın saldı bu dağ.

* * *

Stokholm bir çıraq,

Nura dönübdü sol, sağ,

Burda gülür, ağlamır,

Yaşıl tala, yaşıl bağ.

* * *

Torpağımda yad gəzir,

Bu dərd qəlbimi əzir,

Vətəndən didərginlər,

Həm qəribdi, həm rəzil.

* * *

Hər dərdi anmaq olar,

Atəşdə yanmaq olar,

Vətəndə atlas olan,

Yad eldə yamaq olar.

* * *

Yorğununa, dincinə,

Diz ağrısa, dinci nə?

Yad elin sarayları,

Dəyməz vətən küncünə.

* * *

Gəzdim bütün dünyanı,

Qarış-qarış hər yanı.

Ey vətəndaş, de görüm,

Vətənimə tay hanı?

* * *

Anıram hər anımı,

Vətən – şöhrət, şanımı.

Sağ olsun Rəsul yazıb,

"Mənim Dağıstanım"ı.

* * *

Günəş hayana dönüb,

Göy üzü dana dönüb,

Dünyanın dərdi çoxmuş,

Ürəyi qana dönüb.

* * *

Duman bağa yol salır,

Dərələrə xal salır,

Dağ dumansız utanır,

Buluddan örpək alır.

* * *

Gəldi ayrılıq dəmi,

Neyləyək biz bu qəmi?

Vətən uzaq, mən qərib,

Yox könlümün həmdəmi.

* * *

Kaş yanımda olaydın,

Eşq dərdinə dolaydın,

Mən nazı baha satdım,

Sənsə ucuz alaydın.

* * *

Ürəyim sanki quşdu,

Eşq dağına qonmuşdu,

Hürkütdün düzə saldın,

Hicranın yenə xoşdu.

* * *

Həsrətin qəlbimdədi,

Səhər, axşam inlədi,

Eşqin məzarım kimi,

Həmişə mənimlədi.

* * *

Eşqdə yandım, sönmərəm,

Sədaqətdən dönmərəm,

Alovum göyə qalxsa,

Söndürsələr, enmərəm.

* * *

Məhəbbətimdən dəlim,

Sizdə qaldı səndəlim,

Eşqin çaşdırdı, getdim,

Mən dəlinəm, sən dəlim?

* * *

Yad eldə hənası yox,

Gölü var, sonası yox,

Torpağım ağlar qalıb,

Çağırır, anası yox.

* * *

Vətənin oğulları,

Yorublar bu yolları,

Ürəyi vətəndədi,

Açılmayır qolları.

* * *

Vətəndə yadı yoxdur,

Ad qoyub, adı yoxdur.

Qürbətdə hər şeyi var,

Ağzının dadı yoxdur.

* * *

Vətən dedim, ay dedim,

Dərdimi al, yay dedim,

Azərbaycan dərdini,

Sapa düzdüm, say dedim.

* * *

Sərvət ilə dolubdu,

Vətən nədən solubdu?

Namərd yeyib doymayıb,

Mərd didərgin olubdu.

* * *

Simuzərəm, bir başam,

Vətənə vətəndaşam,

Məni qoparan olmaz,

Həm qayayam, həm daşam.

* * *

Dolandın bu dünyanı,

Gövhər daşı hər yanı,

Ürək hər an soruşdu,

Bəs mənim dünyam hanı?

* * *

Kirpiklərim yaş alsın,

Sevinclə göz yaşarsın,

Oğul ona deyərəm,

Oğul adın yaşatsın.

* * *

Eşqi duymuşam nə qəm,

Gözümdən qəm silirəm,

Birini bilməyəndə,

Birini də bilirəm...

* * *

Əzizinəm, bayatı,

Şeirin, sözün soy adı,

Köhnə yara kimidi,

Bayatının boyatı.

## QÜRBƏTDƏ YAŞAYAN
## BALALARIMA BAYATILARIM

Könlüm çırpınır darda,
Deyir Cəvahir harda,
Gözüm onu axtarır,
Bağrıma basım, bir də.

* * *

Bir qucuma alaydım,
Boynuna qol salaydım,
Bu arzuma çatmağa,
Kaş ki, bir quş olaydım.

* * *

Baldan şirin dillərin,
Qaşı üstə tellərin,
Oxşayaydım, öpəydim,
O göyərçin əllərin.

* * *

Qolumun arasında,
Gözümün qarasında,
Axtarıram mən onu,
Qızların sırasında.

* * *

Qəlbim onun möhtacı,

Odur başımın tacı,

Balam qərib, el uzaq,

Yox hicranın əlacı.

* * *

Alnım açıq, üzüm ağ,

Yollar, cığırlar uzaq,

Qoşa qanadım ola,

Şövkət, Cəvahir uçaq.

* * *

Cəvahirim əzəldi,

Gözəllərdən gözəldi,

Ona nə söz söyləsən,

Gözəl söylə, gözəl de.

* * *

Nəğməli ayım, ilim,

Cəvahirim, bülbülüm,

Gecə-güdüz naz versəm,

Ona yorulmaz dilim.

* * *

Alnında puçurlu tər,

Şövkətim elmə sipər,

Görsəm sevinər, gülər,

Ürəyim tapar təpər.

* * *

Yəqin olub yeməli,

Bizim Məhəmməd Əli,

Ona hər an yetişsin,

Pərvərdigarın əli.

* * *

Mehri balam, sevin, gül,

Dünyan olsun dolu gül.

Xoş olsun, uğur olsun,

Ömründə hər gün, hər il.

* * *

Simuzərəm, yazaram,

Eşq yolunda azaram,

Sizlə min il yaşasam,

Mən demərəm bezaram.

* * *

Şövkət, Cəvahir qanım,

Onlarsız ağrar canım.

Məhəmməd Əli balam,

Oğul vicdanım mənim.

* * *

Bilirəm gün gələcək,

Tanrı qüvvət verəcək,

Məhəmməd Əli adı,

Onunla bir güləcək.

* * *

O İsveçdə doğuldu,

Vətənin oğlu oldu,

Onun ən böyük yolu,

Azadlığın yoludu.

* * *

Dişdiy, el adətinə,

Əməl eyləyir nənə.

Hədiy bişirir onun,

Yeni çıxan dişinə.

* * *

Nənə atdı hər işi,

Başladı bu biş-düşü,

Rahat çıxsın qoy dişi,

Çətin olmasın işi.

* * *

Eşqin ilki, əzəli,

Şövkət ellər gözəli,

Tanrının hər bir zaman,

Çatsın ona öz əli.

* * *

Düzlərim, talalarım,

Dağlarım, qalalarım,

Dayaq olun vətənə,

Oğul, qız balalarım.

* * *

Pay götürün mətini,

Qovun zülmü, çətini,

Çevirin bal, şəkərə,

Vətənin həsrətini.

* * *

Öz ana-bacısına,

Sipər eyləsin sinə.

Min haram qurban etsin,

Bir halal tikəsinə.

* * *

Allah sizə yar olsun,

Düşmən daim xar olsun,

Ruhunuzu oxşayan,

Kaman olsun, tar olsun.

* * *

Balam sevsin dinini,

Adətini, dilini,

Duysun, düşünsün daim,

Vətənini, elini.

* * *

Nənənin balasısan,
Qəlbimdə qalasısan,
Bağçamda qönçə çiçək,
Sən sirlər qalasısan.

* * *

Sənə şeir qoşuram,
Mehri balam, coşuram,
Eşqimsən, ilkin balam,
Bilirsən, soruşuram?!

* * *

Sən qızların gözüydün,
Günəşin lap özüydün,
Mehri balam, deyirəm,
Deyilməmiş söz idin.

* * *

Bax mamanın sözünə,
Sən fikir ver özünə.
Mən sənə and verirəm,
Muncuq taxma gözünə.

* * *

Gözü yolda qalanım,
Balaları balamın,
Sizə yeri qalıbdı,
Hər izində qalamın.

* * *

Allah qorusun sizi,

Cəmizi, hər birizi,

Xoşbəxt ömrünüz olsun,

Qəmin qalmasın izi.

* * *

Qalsın sizə zəmanət,

Nəsihətim əmanət,

Mən bilirəm ki, əlbət,

Qız balam, oğul balam,

Etməz ona xəyanət.

## RÜBAİLƏR

Səxavət bir əlim, qələm bir əlim,
Tanrıdan nur alır, eşqim, əməlim.
Hərənin qızıldan taxt-tacı olsa,
Şeirimdi, sözümdü sadə heykəlim.

* * *

Göylər də baş əyir cahan önündə,
Qanmayan tab etməz, qanan önündə,
Hamı insanlardan bezar olsa da,
Yenə diz çökürəm insan önündə.

* * *

Dörd yan gözəllikdir, yeri, yeri, bax,
Hər çiçək dil açır: bəri, bəri bax,
Sən ey üfüqlərdə itən xəyalım,
Dünyada tək qaldım, bir dön, geri bax.

* * *

O yurdun yadımda ahları qaldı,
Şimşəkli-qartallı dağları qaldı,
Dağlar arxamızdan uçdu qala tək,
Yanar sinəmizdə dağları qaldı.

* * *

Vuruldum hər günə, hər aya, yandım,

Sinəmdə qurduğum saraya yandım.

Eşqlə bacarmadım təkbaşına mən,

Çağırın Leylini haraya, yandım!

* * *

Bu ömür nə şeydir, düzü bilmirəm,

Qalırmı həyatda izi bilmirəm.

Qəlbim çıraq oldu özgələrinə,

Mən belə yaşadım, sizi bilmirəm.

* * *

Eşq olsun məhəbbət ocaqlarına,

Sonsuzluqdan gələn soraqlarına.

Dağın ayağına gedəndə Məcnun,

Dağ gələr Məcnunun ayaqlarına.

* * *

Ömrü məhəbbətlə sürəndə bildim,

Qəlbimdə qəm yuva hörəndə bildim.

Həsrətin dadını, duzunu, yarım,

Mən səni yanımda görəndə bildim.

* * *

Lalə tək yamacda solardım mən,

Şimşəktək buluda dolardım mən,

Səni bağışlaya bilsəydim əgər –

Dünyanı bağışlamış olardım mən.

* * *

Yenə nə deyirsən, a dəli könlüm,

Mənim özümdən də gülməli könlüm?

Zarafat elədim, məni bağışla,

Mən deyə bilmərəm ölməli könlüm.

* * *

Getdi... mənim ayrılığım, yaşa, getdi!

Getdi, hansı talekəmlə qoşa, getdi.

Bircə onu bilirəm ki, bu dünyadan

Haşa getdi, haşa getdi, haşa getdi.

* * *

Ömründə bildinmi bir çəmən məni?

Dərdinmi bənövşə, yasəmən məni?

Dünyaya təzədən gəlsəydik əgər,

Mən gəzərdim səni, yoxsa sən məni?

* * *

Gecə-gündüz həsrətini izlərəm,

Aydan-gündən, göydən səni səslərəm.

Bazar deyil sevgi, alıb-satasan,

Sən gəlməsən, mən ölüncə gözlərəm.

* * *

Mən adını xoş xatirə saxlaram,

Bu sinəmi çalın-çarpaz dağlaram.

Yaz yağışı həzin-həzin yağanda

Ürəyimdə qərib-qərib ağlaram.

* * *

Məhəbbətli ömür demə həvəsdi,

Yaşa könlün qədər, sirli nəfəsdi.

Məhəbbətsiz ömür bir aysız gecə,

Vallahi, həm də ki, quruca səsdir.

* * *

Gözümdə bənzəyir günəşə vətən,

Nə ola, gözümdə yerləşə vətən.

Xəzərdən ayrılıb gəlmişəm, Araz,

Deyirəm, gün doğa. Birləşə vətən.

* * *

Qəbiristan – o ayrılıqlar dənizi,

Atam-anam – uddu duman, çən sizi.

Bu nəvə, uşaq-övlad baş qatır,

Amma yenə unutmuram mən sizi!..

* * *

Yanıram, sinəmin odu görünmür,

Donuram, qəlbimin donu görünmür.

Bu sevgi bir sirli okeandırmı –

Əvvəli görünmür, sonu görünmür?

* * *

İnsaf, mürvət deyib çox ağlamışam,

Ölən duyğulara yas saxlamışam.

Deyəsən mərhəmət, rəhm işində,

Mən səni bir azca qabaqlamışam.

* * *

Hər zəng həsrət dolu oddur-ocaqdır,

Sözlər qönçə-qönçə, qucaq-qucaqdır.

Susur telefonum nə vaxtdan bəri,

Sanki əlim dəysə partlayacaqdır.

* * *

Gəzirəm dünyanı, aşiq kimiyəm,

Mizrabı qırılmış aşıq kimiyəm,

Eşqimdə həsrətim, ahım-zarım var,

Zülmətdə tənha bir işıq kimiyəm.

* * *

İnsan insan deyil yurdsuza dönsə,

Od, alov qızdırmaz can buza dönsə.

Simuzər köksündə ocaqlar çatar,

Şeiri ulu göydə ulduza dönsə...

* * *

Demirəm dünyada azmağa gəldim,

Mən ömrü oxuyub yozmağa gəldim.

Kim üçün dərd nədir, deyə bilmərəm,

Mən dərdi nəğmə tək yazmağa gəldim.

* * *

İlhamı pərişan etmə, amandır,

Ötəri duyğuya yetmə, amandır.

Halal şöhrətindən heykəl qurmamış,

Ucuz şöhrətlərə getmə, amandır.

* * *

Buludlar göylərdə ağladı getdi,

Yollar yurdu yurda bağladı getdi.

Simuzər bihuşdu, gəldi dünyaya,

Suyu saf bulaq tək çağladı getdi.

* * *

Həya ilahidən yaranır bəlkə,

Tellər eşq ahıyla daranır bəlkə,

Zənn etmə, boynunu büküb bənövşə,

Yazıq yad baxışdan qorunur bəlkə.

* * *

Dünyada nə varsa, bu həyatdadı,

Dərd kökü dərində, söz qanaddadı.

Çayların sorağı durğun dəryada,

Mənimsə sorağım kainatdadı.

* * *

Bu bircə cahanda neçə cahanam,

Ayam, illərəm mən, saatam, anam.

Mənim işığımda uçan kəpənək,
Solan gül deyiləm, qalan insanam.

* * *

Dağlara yaraşıq nədir – duman, çən,
Bulud ağlamasa, gülərmi çəmən?
Sən mənim sinəmə dərd selitək gəl,
Damla tək asılım mən kipriyindən.

* * *

Sevincdi, kədərdi, ahdı məhəbbət,
Duyğular içində şahdı məhəbbət.
Mənimsə qəlbimin bircə sözü var,
Tanrı alqışıdı, vəhdi məhəbbət.

* * *

Eşqin hüzuruna divanə gəldim,
Duydum, sevə-sevə fəğanə gəldim.
Sən məndən ötrü doğuldun tək,
Mən də səndən ötrü cahanə gəldim.

* * *

Bu dünya bir yalan taxtım, ağladım,
Ayrılıq əbədi baxtım, ağladım,
Axar bulaqlara yazığım gəldi,
Sonra da özümə baxdım, ağladım.

* * *

Eli tut, özünü gətirmə dilə,

Ocaqsız közünü gətirmə dilə;

Yana bilmirsənsə, günah kimdədir?

Məhəbbət sözünü gətirmə dilə.

* * *

Elimdə bülbül tək ötən olaydım,

İmdada, haraya yetən olaydım.

Ey Vətən, yolunda can qurban verib,

Mən də bircə parça Vətən olaydım.

* * *

Qismətim əhdimə yetirdi məni,

Eşqin dəryasında itirdi məni.

Yağı elə bildi çıxdı sonuma,

Yurdum şəhid kimi bitirdi məni.

**DÖRDLÜKLƏR**

Daş oldum gölə düşdüm,

Yaş oldum selə düşdüm.

El bayrama qovuşdu,

Mən də ki, belə düşdüm.

* * *

Ürəyim ayazda gəl,

Həsrətim tar, sazda gəl.

Qışda gəlib çıxmadın,

İndi daha yazda gəl.

* * *

Yandı qalam, o yana, bax,

Bu yatmış oyana bax.

Tüstü qalxır vətəndən,

Oyana, o yana bax.

* * *

Nə gündüz, gecə gəldin,

Qəlbə gizlicə gəldin.

Ayrılığın sərhədsə,

Bəs onda necə gəldin?

* * *

Xoş günüm aləmdəsə,

Hər şeirim sələmdəsə,

Sinəmdədir ürəyim,

Qələmim əlimdəsə...

* * *

Vətənə məhəbbət, yara sədaqət,

Amalı olmalı hər vətəndaşın,

Qurub yaratmağa edənlər adət,

Yaşadar əbədi öz gövhər daşın.

* * *

Pislikdi o duman, o çən dünyada,

Yaxşılıq – solmayan gülşəndi, gülüm.

Yanıram deməsin yerindən duran,

O şam yanağından düşəndi, gülüm.

* * *

Çadrasın atanı xanım eylədilər,

"Azad qadın" deyə dastan söylədilər.

Tuncdan heykəl yapıb, zirvə dedilər,

Millətin atlasını bəs neylədilər?

# *QÜRBƏTİN UZUN GECƏSİ*

## *Yol boyu*

### Yollar uzun... ellər uzaq...

2003-cü ildə mən Avropanın bir neçə ölkəsində oldum. Səyahətə oğlumla çıxmışdım. Bakıdan başlanan səfərimiz Kiyevdən keçirdi. Ukraynanın şəhər, kənd və qəsəbələri ilə belə yaxından tanışlığım ilk dəfə idi. Mənə elə gəlirdi ki, bu səyahətlə həyatımda yeni bir dövr başlanır. Yol uzandıqca, təbiətin mənzərəsi də dəyişirdi. Ümumiyyətlə, yol boyu görünən füsunkar gözəlliklər adamı düşündürməyə bilmirdi. Bu elə bir mövsüm idi ki, təbiət öz yaşıl donunu tam dəyişməmiş, hətta qızılı payızdan da bir qədər uzaqlaşmamışdı. Meşələri, yamacları, düzləri bürüyən çiskinli duman sanki zinət əşyaları kimi təbiətin boynuna dolanır, onun füsunkarlığını artırmağa can atırdı. Bütün bu gözəlliklər insanın qəlbinə fərəh gətirirdi. Lakin bu gözəl duyğularla yanaşı, hardasa məni sıxan bir hiss də var idi. Mən torpağımdan, nəfəsinin ətrindən həmişə canlandığım vətənimdən və dostlarımdan uzaqlaşırdım. Yol boyu bu hisslər məni haldan-hala salır, bəzən ürək, baş ağrıları hiss edirdim.

Meşə yolları getdikcə uzanırdı. Ağcaqayın meşələrinin gözəlliyindən göz yorulmurdu. Balaca, xudmani tikilmiş bağ evləri nəzərə çarpırdı. Mal-qaranın otlaqlarda görünməsi bərəkətli Ukrayna torpağının əkinçilik və maldarlıqla məşğul olan zəhmətsevər insanlarından xəbər verirdi. Beləliklə, insanın və onun qara torpağı zinətə gətirən zəhmətsevər əllərinin, həyatın ən qiymətli gözəlliklərini yaradan varlıq olmasının bir daha şahidi oldum. Hələ Kiyevdə olarkən Dnepr çayı üzərindəki körpüdən keçdikdə "Axın ürəyimdən, axın, a çaylar" adlı şerim yadıma düşdü:

*Eh, hardan biləsən kim-kimi anır,*
*Keçdiyim izlərdə sevgim dayanır.*
*Bir baxın, evlərdə çıraqlar yanır,*
*Sizin qəlbinizdir, baxın, a çaylar.*

*Dünyada bircə yol xaliq olmağa,*
*Yerlərdə Tanrıdan qalıq olmağa,*
*Buraxın, sularda balıq olmağa,*
*Məni qəlbinizə yaxın, a çaylar.*

*Hansınız anasız, bala hansınız,*
*Hansınız nursunuz, bəla hansınız?*
*Bu quru yerlərdə nə tapmısınız?*
*Axın ürəyimdən, axın, a çaylar.*

Kiyevdən Berlinə qədər neçə-neçə çayların üzərində qurulmuş körpülərdən keçdik. Buradakı çaykənarı vadilərin özünəməxsus gözəllikləri var idi. Beləliklə, oğlumla Ukraynanı keçib, Polşa

sərhədinə yaxınlaşırdıq. Sübhün qızıl şəfəqləri bizi Varşavada qarşıladı. Sonra isə Almaniya sərhədi gəlirdi. Ən nəhayət, Berlin. Səhər saat 9-da biz artıq Almaniyanın qədim paytaxtında idik. Bu məmləkətə çatanda fikirlərim məni istər-istəməz başqa səmtə yönəltdi. Qanlı-qadalı müharibə illəri, tökülən günahsız, nahaq qanlar yada düşdü. Düzdür, mən o illəri görməmişəm. Lakin atam hələ 1939-cu ildə ordu sıralarına gedəndən sonra müharibə başlamışdı. O, bir də 1948-ci ildə sinəsi orden və medallı vətəninə qayıtmışdı. Atam Kerç, Qara dəniz sahillərindən Berlinə qədər döyüş yolu keçmiş və əsir düşərgələrində olmuşdu. Yadımdadır, bizim yeniyetmə çağlarımız idi. Atam müharibə illərini yada salanda, gözləri yaşla dolardı. Adətən atam bu qanlı-qadalı illərdən bizə danışmaq istəməzdi. Biz isə israr ilə ondan bu haqda — yəni, müharibə olaylarından danışmasını xahiş etdikdə deyərdi: “Mən bu müharibə söhbətləriylə sizin ürəyinizi ağrıtmaq istəmirəm. İnşallah, böyüyüb hər şeyi özünüz biləcəksiniz”. Bütün bunlara baxmayaraq, hərdən dostlarına Almaniyada əsirlikdə olduğu müddətdə başına gələn hadisələrdən, dəfələrlə düşərgədən qaçmasından və almanların onu tutub yenidən düşərgəyə qaytarmasından danışanda, biz də maraqla qulaq asardıq. Böyüyüb hər şeyi bildik. O vaxt atamızın bulud kimi dolan gözlərini bu günə kimi unutmadıq.

... Budur, zaman elə gətirib ki, mən həm qanı tökülən, həm də günahsız qanlar tökən bu ölkənin vətəndaşları arasındayam. Dörd tərəfimlə hərəkət edən bu bəxtəvər insanların heç biri qəlbimdən keçənləri duymur və mənim fərqimə varmadan yanımdan ötüb keçirlər. Mən isə bu zaman düşünürəm: dünyanın gərdişi nə qədər qəlizdir...

Bu girdə dünya fırlanır, fırlanır, yenə gəlib öz noqtəsinə çatır, lakin gözləmir. Daim hərəkətdədir. Həyatsa nə qədər mürəkkəbdir. Elə bu mürəkkəb həyat kimi, mənim səyahətim də davam edirdi.

Almaniya torpaqlarına keçən kimi sanki həyatın ritmi dəyişdi. Buradakı səliqə-sahman, hətta evlərin quruluşu, küçə və vadilərdəki səliqə, təmizlik, həyət və bağçaların sahmanı bu məmləkətin insanlarındakı yüksək zövq, onların böyük mədəniyyət, həmçinin dəqiqliyə malik olmasından xəbər verirdi. Bir maraqlı hadisənin şahidi olduq. Dəmir yol vağzalında oğlumla qatar gözləyirdik. Oğlum siqaret çıxarıb çəkməyə başladı. Heç bir dəqiqə keçməmişdi ki, bir qadın bizə yaxınlaşdı. Oğluma “burada siqaret çəkmək olmaz” – qadağasını xatırlatdı. Oğlum siqareti söndürüb zibil qutusuna atdı. O qadın oğlumdan çərimə istəmədi. Çünki birinci dəfə idi ki, o, qanunu pozmuşdu. Əgər belə hal bir neçə dəfə baş verərsə, onda mütləq cərimə ödəməli olacaqsan. Siqaret çəkmək üçün xüsusi guşələr var idi. Qatarda, avtobusda, metroda, liftdə, blokda, evdə, mağazalarda, vağzallarda, bütün mədəni-məişət obyektlərində, xəstəxanaların dəhlizlərində və başqa yerlərdə siqaret çəkmək qadağandır. Onu da deyim ki, bu vəziyyət Avropanın bütün ölkələrində hökm sürürdü. Bu ölkələrdə yaşayan insanların böyük əksəriyyəti siqaret çəkəndilər. Lakin heç kəs qayda-qanunu pozmur və hamı onun qorunmasına çalışır.

Biz Hanburq şəhərində olarkən, Azər-baycandan olan iki nəfərlə rastlaşdıq. Görüşdük; mənə elə gəldi ki, onlar bu görüşə bizdən də çox sevinirdilər. Onlardan birinin adı Coşqun idi. Coşqun qardaşı, bir də qohumları ilə burada — Hanburqda yaşayırdı. Coşqunun dediyinə görə, o, yeddi il idi ki, bu qürbət eldə işləyirdi. Burada bir oğlu da dünyaya gəlmişdi. Onlar Azər-baycanın Qazax rayonundan idilər. “Burada vəziyyətiniz necədir?” — deyə sual verərək onların ürəklərinin dərinliklərində gizlətdikləri və heç kəsə büruzə vermək istəmədikləri duyğularından bir az hali olmaq istədim. Yadıma hələ üçüncü kitabımda çap olunmuş bir şerim düşdü:

*Bu gizli sirrimi*
*qoy açım sənə;*
*Əsl insan olan*
*yaşamalıdır*
*Qürbətdə olsa da,*

*üzü vətənə!*

Söhbətdən bəlli oldu ki, bu oğlanlar qürbətdə yaşasalar da, üzləri doğurdan da vətənə idi. Coşqunla belə bir söhbətim oldu:

— Yəqin burada sizin üçün çox xoş keçir?

— ...

— Məgər bir çətinliyiniz var?

— Yox, Simuzər xanım, burada bizim hər şeyimiz var. Pulumuz da, imkanlarımız da. Hətta naxoşlayıb xəstəxanaya düşsək, bizə çox yaxşı qulluq edirlər. Nə desəniz alıb gətiririk evə, bişiririk, yeyirik. Amma ağzımızın dadı yoxdur. Dad o dad deyil. Vətəndə yediklərimizin dadını heç nə vermir.

– Bütün bunlar vətən həsrətinin əhval-ruhiyyənizə göstərdiyi təsirdəndir. Yəqin ki, el-obanız, doğmalarınız üçün darıxırsız?

O, yenə susur. Bu vaxt mən onun üzündəki ifadəyə, bütün varlığına diqqətlə nəzər salıram və həmsöhbətimin ürəyinin dərin qatlarında qaysaq bağlamış yaralarının sızladığını hiss edirəm. Elə buradaca söhbəti bir qədər başqa səmtə yönəldirəm:

— Yəqin ki, vətənə qayıtmaq fikrindəsiz?

— Biz vətənə günü sabah dönərdik. Amma bilmirik ki, bir parça çörək pulu qazana biləcəyikmi?!

— Darıxmayın, Azərbaycan yaxın vaxtlarda bütün problemlərini həll edəcək, hamınız vətənə qayıdıb firavan yaşayacaqsınız, — deyib ona özümün “Həyatın qəmində sevinc tapardım” və “Gecəni çıraq edib” adlı şeir kitablarımı bağış-ladım.

— Mən kitab oxumağı çox sevirəm, — deyə Coşqun dilləndi.

Sonra isə “Sizin kimi şair, yazar xanımla görüşmək, vətənlə görüşmək qədər bizə xoş oldu” – deyib mənə minnətdarlığını bildirdi: — Mən bu şeirlərin hamısını oxuyacağam.

— Bax ha, oxuyub ağlamayasan, — deyə mən zarafatla dilləndim.

Beləcə, doğma Azərbaycanımızın Qazax bölgəsindən olan bu vətən oğulları mənim şair qəlbimi sızlatsalar da, onlardan xoş ovqatla ayrılıb, qatara mindim. Yol boyu qəlbimdə yeni şerimin misraları səslənirdi:

*Necə ulduz-ulduz siz odlanırsız,*
*Ey qərib durnalar, qərib durnalar.*
*Göydə qəmgin-qəmgin nə dolanırsız?*
*Buludda qanadlar sərib, durnalar!..*

*Səma yazılası düm ağ varaqlı,*
*Könül vermisiniz ünə, avaza.*
*Yollar çəkirsiniz səsli, soraqlı,*
*Bahardan payıza, payızdan yaza.*

*Dünyadan kədəri, qəmi silin ki,*
*Yerə qəm yağışı tökməsin kədər.*
*Körpü salırsınız, onu bilin ki,*
*Qürbətdə olsaz da, vətənə qədər!..*

***"Ədəbiyyat qəzeti",***

***2005***

# Qürbətin uzun gecəsi

II bölmə

Hələ Almaniyada olarkən mən İrina adlı bir rus qızı ilə ünsiyyət bağladım. Bu qız bəstəboylu, arıq, olduqca cəld və qüvvətli idi. Üzügülər, mehriban və səmimi İrina bizi öz avtomobilinə mindirib şəhərlə tanış etmişdi. Geniş dünyagörüşə malik bu qız mənim diqqətimi cəlb edir, marağıma səbəb olurdu. Neçə ildir Berlində yaşayırsan? — soruşduqda "on ildir, valideyn-lərimlə birlikdə 1993-cü ildən burada yaşayırıq" — dedi.

— Yəqin güzəranınız burada çox yaxşı keçir?

— Heç bir şikayətimiz yoxdur. Qayda-qanunlu ölkədə yaşamaq insan üçün heç bir problem yaratmır. Əsas məsələ budur ki, işləyəsən.

— Siz harada işləyirsiniz?

— Restoranda. İşim yaxşıdır, yüksək əmək haqqı alıram.

— Çox gözəl, buradakı azərbaycanlılarla necə, əlaqən olurmu? Axı nə vaxtsa bir ölkənin vətəndaşları olmuşuq.

— Əlbəttə, rastlaşan kimi əlaqə yaradırıq.

Son dövrlər burada azərbaycanlılara çox rast gəlmək olur. Almaniyada 2 milyona yaxın azərbaycanlı var.

— Onların vəziyyəti burada necədir?

— Bilirsiniz, hərtərəfli yaxşı yaşamaq üçün gərək bu ölkənin vətəndaşı olasan. Son dövrlər bu iş bir qədər çətinləşib. Bir məsələni xatırlatmaq istərdim. Azərbaycan neçə ildir dünyanın inkişaf etmiş ölkələri ilə neft kontraktı bağlayıb. Sizin neftiniz xarici ölkələrə su kimi axır. Ölkəniz çox dövlətli, insanlarınız isə kasıb və qaçqındırlar. Görəsən bunun səbəbi nədir?

Düzünü deyim ki, İrinanın bu sözündən halım çox pərişan oldu. Onun sualına cavab vermədən öncə bir az fikirləşməli idim. Özümü ələ alıb dedim: — Azərbaycan müharibə şəraitində yaşayır, bizim bir milyondan artıq məcburi didərgin və qaçqınlarımız var. Gələcək üçün çox gözəl planlar hazırlanır, yəni insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına dair böyük işlər görülür. Yaxın gələcəkdə Azərbaycan xalqı-nın yaşayış tərzi yüksələcək.

İrinanı belə işgüzar və bacarıqlı görəndə düşündüm: bu balaca qızcığazın gördüyü işləri handa bir kişi bəlkə də görə bilməzdi. Söz yox ki, İrinanı belə işgüzarlığa cəlb edən, onun işinə məsuliyyətlə yanaşması və zəhmətə bağlılığı idi. İstər-istəməz fikirlərim məni yenə vətənə — Bakı küçələrinə yönəltdi. Azərbaycanın rayon və kəndlərindən Bakıya işləmək üçün üz tutmuş

cavanlarımızı düşündüm. Məsələ burasında idi ki, Bakının öz gəncləri, gündüz küçələrdə, gecələr isə barlarda gün keçirirdilər. Belə baxanda bizim cavanlarımız bu İrina kimilərdən heç də əskik deyildilər, lakin məşğuliyyət arasındakı fərq çox böyük idi. Hələ gözəl, bərli-bəzəkli Bakının küçə və xiyabanlarında əllərinə cürbəcür geyim və yeyinti məmulatları alıb səhər, axşam alverlə məşğul olan insanları xatırlamaq nə qədər ağır idi. Bəlkə bu çətinlik idi ki, həmişə öz doğma yurd-yuvalarını hər şeydən üstün tutan Azərbaycan xalqı indi xarici ölkələrə pənah gətirmişdilər. Axı küçə alverini də hamı bacarmırdı. Bir də Avropa ölkələrinə işləyib yaşamaq üçün getmək o qədər də asan iş deyildi. Bunun üçün böyük vəsait lazım idi. İnsanlar öz ev-eşiklərini satıb, xarici ölkələrə üz tutur, özlərinə xoş güzəran axtarırdılar. Onlar başa düşmürdülər ki, ən xoş güzəran onların öz doğma vətənlərində idi. Sadəcə olaraq bir qədər zəhmətə qatlaşmaq lazım idi. Bütün bu hadisələr mənim gözlərimin qarşısında baş verirdi. İndi mən Avropa küçələrində gəzə-gəzə, özünə xoş güzəran axtarmaq üçün didərgin düşmüş öz zavallı xalqımı düşünürdüm. Beləcə fikir və düşüncələrim məni şeir dünyama aparır, İrinanın avtomobili isə şütüyürdü.

*Qalxmışam, mən baxıram*
*İndi yenə millətimə,*
*Çevrilib millətimin*
*dərdi yaman zillətimə.*

Bir qədər sonra İrina avtomobili saxladı. Biz düşüb, qədim və əzəmətli binalara tamaşa etdik. Sonra isə, ölkənin qədim, tarixi abidələrinin gözbəbəyi kimi necə qorunub saxlanıldığının canlı şahidi oldum. Şəhərin olduqca gözəl və dəbdəbəli görünüşü var idi. Hər şey son dərəcə mənalı görünür, xoş təəssürat yaradırdı. Onu da deyim ki, sonralar mən Avropanın gördüyüm şəhərlərində tarixi abidələrə, qədim adət və ənənələrə olan yüksək səviyyədə maraq, hörmət göstərən, onun qorunmasında böyük rolu olan bu ölkələrin vətəndaşlarına qibtə etməyə bilmirdim. Mənim yadıma İçərişəhər, Qız qalası, Qobustan qayaları, Bakının mərkəzi küçələrindəki gözəl memarlıq nümunələri düşürdü. Mən Bakı haq-qında çox şeirlər yazmışdım. Bakı o qədər gözəl şəhərdir ki, onun qədim abidələri dünyanın bütün qədim şəhərlərində olan abidələrlə müqayisədə heç də geri qalmır.

*Şəhərlər içində daş-qaşım, incim,*
*Yoxdur bərabərin, tayın, ay Bakı!*
*Qəlbimdə əbədi eşqim, sevincim,*
*Tanrıdan yaranıb payın, ay Bakı!*

*...Vətən, səninləyəm, əlimdə qələm,*
*Əngin üfüqlərin gümüşdü, zərdi.*
*Bu ömrü vermişəm dünyaya sələm,*
*Axtar, tapa bilsən de, Simuzərdi!..*

**H a ş i y ə**

Avropadan qayıtdıqdan sonra hər dəfə baxanda gözlərimə gözdağı kimi görünən bir mənzərəni xatırlatmaq istərdim. Görəsən düzəlməsi mümkün olmayan bu səhvi tarix və gələcək nəsillər bizə bağışlayacaqmı? Mən şəhərin mərkəzi küçələrinin birində yaşayıram. Qoqol küçəsi ilə Nizami küçəsinin kəsişdiyi yerdə (köhnə adı Tarqovı idi). Burada qədim, üç-dörd mərtəbəli memarlıq nümunəsi olan binaların ara-sında on bir mərtəbəli binanın tikintisi aparılacağını

eşitdik. Demək olar ki, küçənin bütün sakinləri bu tikintiyə öz etirazlarını bildirdilər. Mən də həmçinin. Biz bu barədə hətta şəhər merinə bir neçə dəfə teleqram da vurduq. Bu tikintinin çox böyük bir səhv olduğu göz qabağında idi. Bir ildən sonra qayıdıb gəldikdə həmin binanın artıq tikilib əhaliyə satıldığının şahidi oldum. Onu da deyim ki, bu tikintinin mənə heç bir maneçiliyi yoxdur. Amma şəhərimizin gözəlliyinə və qədimliyinə xələl gətirir.

***

Qarşıdan yeni il gəlirdi. Hamı 2004-cü ili qarşılamağa hazırlaşırdı. Yeni ilin gəlməsinə bir ay qalsa da, Avropa tam bayram əhval-ruhiyyəsi içərisində idi. Küçələrdə isə insanlar görünmürdü. Görünənlər ancaq yaşlılar və şəhərə gələn qonaqlar idilər. Mən bunun səbəbini soruşduqda dedilər: “Bu vaxt insanların küçədə nə işi var. Onlar iş başındadılar.” Bu o demək idi ki, şəhərdə bir nəfər də olsun boş-bekar adam yox idi. Elə bizi şəhərlə tanış edən İrina da öz işinə çox tələsirdi. Beləliklə, bizim növbəti səfərimiz İsveçə idi. Lakin təsadüf nəticəsində tale bizi gətirib Hollandiyanın tanınmış və çox gəlimli-gedimli şəhərlərindən biri olan Amsterdama çıxartdı. Düzünü deyim ki, mən əvvəl özümü itirmişdim. Lakin sonradan düşündüm ki, yəqin bu da taleyin bir qismətidir ki, gəlib buraya çıxmışıq. Məmməd adlı bir türk qardaşımız oğluma və mənə bələdçilik etdi, bir neçə gün burada — Amsterdamda qaldığımız üçün bizə şərait yaradılmasına kömək etdi. Əvvəla, onu deyim ki, şəhərin ümumi mənzərəsi çox gözəl idi. Çox yeniliklərlə qarşılaşırdıq. Avropanın mərkəzində yerləşən bu diyarda dünyanın hər millətinə rast gəlmək mümkün idi. Bu səhərdə insanlar özlərini olduqca sərbəst hiss edirdilər. Ümumiyyətlə, burada adamlar nəyə istəsələr pul xərcləmək imkanlarına malik idilər. Onların qarşısında heç bir məhdudiyyət yox idi. Lakin bu ölkəyə gələnlərin əksəriyyəti pullu, şüurlu, demokratik və azad insanlar idilər. Düzdür, şəhərin özünəməxsus qayda-qanunları vardı. Amma böyük sərbəstlik hökm sürürdü. Şəhərin başqa görməli yerləri ilə də tanış olduq. Bir maraqlı məsələ ilə qarşılaşdım. Hər tərəfdə çoxlu velosiped dayanacaqları görünürdü. Biz bunların nə olduğunu soruşduqda türk qardaşımız Məmməd bizi başa saldı ki, bu insanların milyonları var. Hamsının da avtomobilləri qarajdadır, amma, velosipedlə gəzirlər. Benzin baha olduğu üçün onlar iqtisadi metoddan istifadə edirlər. Zənnimcə, belə qənaətcil olmaq heç də pis hal deyil. Belə vəziyyətlə Avropanın başqa şəhərlərində də qarşılaşmaq mümkün idi. Bu həm də şəhərin ekologiyasının təmizliyinə xidmət edirdi. Bir qədər əvvəl mən Berlin təəssüratlarımdan ürək açıqlığı ilə danışıb o hisslərimi açıqlayarkən məni başqa duyğular bürümüşdü, yəni insanın insan kimi varlığına qibtə edirdim. İndi mən yenə həmin anlara — Berlin və Avropanın başqa ürəkaçan şəhərlərinə qayıdırdım. Budur, yenə qatardayam. Amsterdam — Stokholm qatarı. Qatarlar olduqca rahat və səliqəli idi. Belə qatarlarda həftələrlə yol getmək adamı yormurdu.

Marşrutumuz belə idi: Amsterdam, Hamburq, Hamburqdan Kopenhagenə, sonra isə İsveçə. Danimarka ilə tanışlığımız da çox mənalı oldu. Biri-birindən gözəl şəhər, qəsəbə və kəndlər arxada qaldıqca, qatarın süröti artırdı. Avropanı dolaşdığım vaxt qarşıma çıxan yaxşı və pisləri görmək, gözəllikləri və çirkinlikləri duymaq təxəyyül və təfəkkürümdə çox qəribə izlər buraxırdı. Mən düşünürdüm. Doğrudan da min dəfə eşidib oxumaqdansa, bir dəfə gəzib-görmək yaxşıdır. Bu şəhərlərdə biz türklərlə çox rastlaşır və böyük məmnunluq duyurduq. Türk kafelərində oturub türk musiqisi dinləyərkən o anda mənə elə gəlirdi ki, Azərbaycandayam, özümü doğma evdəki kimi hiss edirdim. Bu səliqəli, rahat qatarda getdiyimiz yol uzanırdı. Qatarda kompüter üsulu ələlxüsus diqqətimi cəlb etmişdi. Yəni qatarın hansı saatda, nə vaxt, hansı dayanacaqda dayanması ekran vasitəsilə göstərilirdi. Məişət xidmətləri dünya standartlarına tam cavab verirdi. Bu minvalla biz gəlib İsveçin paytaxtı Stokholm şəhərinə çatdıq. Gündüz saat 13.30-da şəhərə çatsaq da, hava artıq qaralmaq izrə idi. Çünki bu vilayətdə hava gec işıqlanır, tez qaralırdı. Əlbəttə, qış mövsümündə. Yayda isə günəşin çıxması ilə

batması arasındakı fərq çox az idi. Saat 23-də günəş batır 2-də çıxırdı. Sutkanın 90 faizi gündüz olurdu. Bu vəziyyət İsveçin şimal ölkəsi Qalivaridə daha çox davam edirdi. Mənimsə, günəşli dünyanın vurğunu olan ürəyim öz işığından qida alırdı:

*Bu yurdun gündüzü*
*görünmür, Allah!*
*Gündüzü gecədir,*
*Sabahı gecə.*
*Bu yurdda insanlar*
*gün görmür, Allah!*
*Günəş ərşdə yatıb, qalıbmı*
*gecə?!*
*Üfüqün gözləri şəfəqdən*
*uzaq,*
*Yanmayır göylərdə alovlu*
*çıraq.*
*Aramsız qar yağır,*
*Dünya ağappaq,*
*Təbiət tül donda görünür çılpaq.*

İnsan ürəyində yaşayan əbədiyyətlə dolu bir dünya zülmət-qaranlıq qərinələrə işıq saçmağa qadirdir. Dahi Nizami Gəncəvi demişkən: “Səni qorxutmasın gecənin qaranlıqları, hər zülmət gecənin bir parlaq ulduzu var”. Mənə elə gəlir ki, qaranlıq gecələrin parlaq ulduzu məhz insanın içində yaşamalıdır. Axı qaranlıq gecələrin qənimi olan ulduzlar özləri də qaranlıqsız görünmür. Ona görə də qaranlıqdan qorxmaq yox, ona qalib gəlmək maraqlıdır. İndi mən də günəşli gündüzümdən ayrılıb qaranlıq dünyaya düşən bir varlıq kimi idim. Lakin vətənimin mənə bəxş etdiyi işıq bütün qaranlıqlara qalib gəlməyə qadir idi. Gecəm gecə idi, gündüzüm də gecə. Bu gecələrimi gündüzə çevirən isə yazdığım şeirlərim idi. Bütün bunlara görə Ulu Tanrıma min şükürlər olsun deyirəm. Bir də onu deyərdim ki, böyük Füzuli öz dahi ömrünü, qaranlıq dünyada zərrə kimi görünən füsunkar şam işığı ilə əbəs yerə keçirməmişdi. O, zərrə bir işıqla özündə dünyanın günəşini tapmışdı.

Kaş bu günəşin işığından bizlərə də bir zərrə düşəydi. Ürəkdən gələn işıq dünyanı nura boyayar. Belə olan halda heç bir dünya işıqsız qalmaz. İşıqlı ürək həm də təmiz olar, lap elə gəlib qoynuna çatdığım İsveç kimi.

***

İsveçin çox gözəl və təmiz ekologiyası var. Səkkiz milyon əhalisi olsa da, çox böyük ərazisi olan bu ölkənin vətəndaşlarının bir kiçik problemi yox idi. Şaxta 25 dərəcə idi. Qar aramsız yağırdı. Yağan qar yerdə zər kimi par-par parlayırdı. Əvvəl qarın belə zər kimi parıldaması məndə təəccüb doğurdu. Sonra başa düşdüm ki, narın yağan qar hələ havada ikən buza dönüb yerə düşür. Ona görə də parıldayırdı.

Bu mənzərədə təbiət elə bil nağıl kimi görünür. Bir də adam inana bilmirdi ki, bu təbiət nə vaxtsa canlanacaq. Elə bilirdim ki, dünya donub, donmuş dünya mənə baxır.

*Şimal ölkə, zər kimi qar,*
*Gör bir qışın nə hökmü var...*
*...Ürəyimdə bir qəribə*
*duyğu doğur,*
*Fikirlərim məni boğur.*

*Elə bil ki, bu*
*təbiət donub baxır,*
*Donmuş dünya*
*məni yaxır...*

*Mən baxıram,*
*təbiət də*
*dönüb baxır,*
*Sirli-sirli gözlərimə*
*dolub baxır...*

***Qalivari,***
***04.01.2004***

***"Ədəbiyyat qəzeti",***

***2005***

## İsveçin bəyaz qarı

III bölmə

Bəli, mən artıq Avropada yaşayış tərzi, həyat səviyyəsi yüksək olan demokratik ölkələrdən biri – İsveçdəyəm. Bu ölkə öz qanunlarını əsas tutaraq uşaqlara birinci, qadınlara ikinci, heyvanlara üçüncü, kişilərə isə dördüncü yeri verir. Belə qayda-qanun ilk baxışda adama qəribə görünür və düşünürük, görəsən kişilərə münasibət niyə belədir? Onlar hətta heyvanlardan da sonraya qalır. Başqa ölkələrdən bu ölkəyə yaşamaq üçün gələn kişilərin ilk baxışdan bu qanunlara mənfi münasibətdə olmalarının şahidi də olmuşam. Lakin bir qədər dərindən fikirləşib özünü özündə tapan insan bu həqiqətin varlığına inanır və özünün kim olduğunu dərk etməyə nail olur, özünü bəşəriyyətin layiqli bir nümayəndəsi kimi hiss edir. Beləliklə, təxəyyülümün duyduğu əsl həqiqəti açıqlamaq mənim öhdəmə düşür. Kişilər dedikdə kimlər nəzərdə tutulur?! İlk növbədə atalar, oğullar, ərlər, ölkənin fiziki cəhətdən ən güclü varlıqları olan vətəndaşları. Bu vətəndaş isə bütün varidatını qorumaq prinsipini əsas tutaraq

arxa plana keçməli – daha doğrusu, arxa olmalı, vətəninin bütün canlı aləminin arxasında duraraq onu qorumalıdır. Bu mənada kişilər arxada qalmaqla nəinki kiçilmir, əksinə, onların arxa planda dağ kimi görünmələri bir fakt kimi nəzərə çarpır.

Beləliklə, isveçlərin zəifdən güclüyə – uşaqları I, qadınları II, heyvanları III və kişiləri IV yerdə – yəni arxada qoyaraq qanunun hökmünə vermələri, zənnimcə, həyatın ab-havasını sağlamlaşdırır, vətənin və sərvətin qorunmasına sövq edə-edə onları ana-bacıların, qadınların sipərinə çevirir və deyir: Buyur vətənini tam varlığın ilə qoru! Bu prinsipdə kişilər öz missiyalarını aparıcı qüvvə kimi həyata keçirirlər.

Gördüklərim o qədər yeni və maraqlı idi ki, hər bir otun, yarpağın, daşın, kəsəyin, gülün, çiçəyin yanından biganə ötə bilmirdim. Bəzən çiçəklərin ləçəklərini, ağacların yarpaqlarını ovcuma alıb onların təmizliyinə və təzəliyinə heyran-heyran tamaşa edirdim. Talaların, ormanların yanından keçərkən günəş şüalarından bərq vuran və xəfif mehlə pıçıldaşan ağacların yarpaqlarının seyrinə dalır, sanki onların sevincini duyurdum:

*İsveç talasının aralarında*

*Dovşanlar, dələlər adamı süzür.*

*Hətta insanların sıralarında*

*Göllərdə ördəklər arxayın üzür.*

*Duyğuma zövq verir əlvan meşəsi,*
*Baxıram qəlbimdə arzu oyanır.*
*Gözəllik yaradıb insan peşəsi,*
*Meşə yollarında çıraqlar yanır.*

*Mirvari qaşıtək daşlar görünür*
*Dağların, düzlərin boğazlarında;*
*Dərədə, yamacda duman sürünür,*
*Sanki yaşmağı var ağızlarında.*

Mən bu ölkəyə qış mövsümündə gəlmişdim və donmuş təbiətin nə vaxtsa canlanmasına, ağacların, yamacların, otların, çiçəklərin cana gəlib yaşıllaşmasına inana bilmirdim. Çox səbirsizliklə baharın gəlməsini gözləyirdim...

Yeni il axşamı idi. Qar aramsız yağırdı. Mənsə pəncərənin önündə yazı masamın arxa-sında idim.

*Avropa mehiylə darandı telim,*
*Mən təzə ilimlə üz-üzə gəldim.*
*Açanda qapımı bu təzə ilim,*
*Ona qələmimlə süfrəmi sərdim.*

Saatın əqrəbləri öz hərəkətinə əməl edir, mən isə yazırdım.

Əziz dostlarım, bilsəniz belə anlarda sizdən ötəri, vətən üçün nə qədər darıxırdım. Həsrət ürəyimdən gözlərimə qəm buludu səpələyə-səpələyə məni ağuşuna alır, sizlərlə birgə keçən şad və sevimli günlərimin xəyallarına aparırdı. Xoşbəxtliyim onda idi ki, bu həsrətimi yaşamağı

bacarırdım.

*Qürbətdə bürünüb dumana, çənə*
*Könlüm ayrılıqla verdi səs-səsə.*
*Mən addım atırdım üzü vətənə —*
*Burda hara gedib, hara döndümsə...*

Bu qürbət elə səfərim kədərdən nur ala-ala məni işığa aparırdı. Səhər saat on bir idi. Hava yenicə işıqlaşmışdı. Yerimdən qalxıb pəncərəyə yaxınlaşdım. Çox maraqlı mənzərə gördüm. Qaryığan maşınların qardan düzəltdikləri qar dağlarının qoynuna uşaqlar yığışıb oynayırdılar:

*Səpələnir bəyaz qar*
*Oynadıqca uşaqlar.*
*Baxmır qar yağışına,*
*Atılır ağuşuna,*
*Qar qorxutmur onları,*
*Tükənmir oyunları.*
*Hamı sürüşür-düşür,*
*Heç birisi üşümür.*

Mən Stokholmdan İsveçin şimal ölkəsi Qalevariyə qonaq gəlmişdim. Buraya məni Fəridə dəvət etmişdi. Fəridə üç il idi ki, bu ölkəyə ərə gəlmişdi. Onun əri türk idi. Biz Fəridə ilə hələ Bakıdan tanış idik. İndi mənim İsveçdə olduğumu bilib çox sevinmişdi. Lakin Azərbaycandan gələn insanlarla rastlaşmağım və onların həyatı ilə maraqlanmağım mənim bu şəhərdə qalıb yubanmağıma səbəb oldu. Hamı ilə görüşmək, onlarla söhbətləşmək mənim arzum idi. Çünki əli qələmli bir insan kimi öz həmvətənlərimin və qeyri-həmvətənlərimin, ümumiyyətlə, bu ölkəyə qaçqın və başqa adla gələn insanların taleyinə biganə qala bilməzdim. Söz yox ki, məni maraqlandıran əsas məsələ azərbaycanlıların həyatı idi. Axı hələ Azərbaycanda olarkən qaçqınlarımızın taleyindəki ağrı-acılar, dərd-sərlər mənim ürəyimin lap təzə yaraları idi. İndi burada Avropada mən yenə qaçqın sözü ilə qarşılaşmışdım. Ən böyük marağıma səbəb isə Azərbaycanın cənub bölgəsindən gəlmiş bir ailə oldu. Bir az dəqiq desəm, bu ailənin qadını Mailə adlı bir xanım. Mailə ilə tanışlığım isə İsveçin Yevlə adlı şəhərindən başlamışdı. Bu şəhərə məni Fəridə ərinin qohumlarıgilə gətirmişdi. Parkların birində gəzirdik. Azərbaycan dilində bir səs eşitdim: “Oğlum, Anar, bu tərəfə gəl”. Dönüb baxdım. O andan da Mailə ilə tanışlığım başlandı. Mailənin bu ölkəyə qaçqın kimi gəldiyini bildikdən sonra onunla lap yaxından tanış olmaq istəyirdim. Bu yaxınlığın əsl səbəbi mənim başıma gələn bir hadisədən yarandı. Ertəsi gün Mailəyə şəhəri tam ikiyə bölən çayın üstündəki körpüdə görüşməyi təklif etdim. Mailə mənim təklifimi qəbul edib oraya gəldi. Biz körpünün üstündə dayanıb çaya tamaşa edirdik. Birdən çayın içindən bir dəstə ördəyin uçub kənara qondu-ğunu gördüm və Mailənin əlindən tutub quşlar olan səmtə getmək istədiyimi bildirdim. Hava soyuq və şaxtalı idi. Qəfildən ayağım sürüşdü, arxası üstə bərk yerə yıxıldım. Başıma vurduğum sancaq çilik-çilik olub yerə səpələnmişdi (Bəlkə də başımdakı sancaq məni ağır xəsarətdən xilas etmişdi). Başımda ağrılar olduğu üçün məni hospitala apardılar. Həkimlər ciddi bir zədə almadığımı desələr də, qan təzyiqimin yüksək olduğunu vurğuladılar və mən yüngül müalicə qəbul etdim. Bununla da Mailənin mənimlə yaxınlığı başlandı. O, üç oğlu və həyat yoldaşı mənə tez-tez baş çəkir və qayğı göstərirdilər. Mailə çox narahat idi. Qəriblik onu sıxırdı. Lakin ürəyindəki kədəri büruzə vermək istəməsə də, mən onun bu sıxıntısını hiss edirdim. Deyəsən peşiman olmusan, Mailə, —

deyə mən onunla bir qədər həmsöhbət olmaq istədim. O, elə bil mənim bu kəlməmə bağlı idi. Dərdi açıldı: nə açıldı. “Bilirsiz, Simuzər xanım, bizi aldadıblar. Axı nə var bu qərib ölkədə. Gül kimi ev-eşiyimizi satmışıq. İndi də olmadı elə, oldu belə, nə edəcəyik? Geri dönməyə heç imkanımız da olmayacaq. Fikirləşəndə, az qalıram dəli olam. Yaşamaq üçün sığınacaq, soyuqdan donmamaq üçün yorğan-döşək, ac qalmayasan deyə bir qarın yemək, bir az da pul versələr də, eh, adam ac olsun, ya tox, öz vətənində olsun”. Mailə çox kövrəlmişdi. Ona bal vəd etmişdilər, əvəzində isə şor çıxmışdı. Mən bir həftə bu şəhərdə qaldım. Mailə hər gün mənə baş çəkirdi. Mənim şeirlərimlə maraqlanırdı, oxuyurdu. Qəriblik ona təsir edirdi. Sizin şeirləriniz məni çox duyğulandırır, — deyə Mailə dilləndi. Çox təsirli, həyati duyğulardan yazırsız.

Dediyinə görə o, çox az kitab oxumuşdu. Ümumiyyətlə, kitaba həvəsi olmamışdı. Rayon yeri, ev-eşik, uşaq qayğıları buna imkan ver-məmişdi. Əlbəttə, çətin olub. Uşaqlar balaca olmasalar da, hələ məktəbli idilər. İndi mənim kitabımın Mailənin əlindən yerə düşməməsi onu göstərirdi ki, o kitab oxumağı sevirdi. “Bu şeri necə də gözəl yazmısız, Simuzər xanım, elə bil mənim həyatımdır” — deyib şeri mənə başdan axıra qədər oxudu. Bəzən şeirlərimi mənə oxutdururdu. Bir dəfə şeri oxuyub qurtardıqdan sonra onun üzünə baxdım. Yanaqlarında göz yaşları gördüm.

— Bu nədir Mailə, sən ağlayırsan? Mən sənə şeir oxuyuram ki, bir az ürəyin açılsın.

— Simuzər xanım, mən sizin şeirlərinizdə özümü yenidən tapıram, — deyib gözlərinin yaşını sildi. Sözün təsir gücündən kövrələn, öz daxilində gizlənmiş varlığını dərk edib aşkara çıxaran insan mənəviyyatını mənim gözlərimin qarşısında zənginləşdirirdi. Bu mənimçün qızıl bir dünya idi.

*Dolandım bu dünyanı,*
*Ləl-gövhərdir hər yanı.*
*Ürək hər an soruşdu:*
*Bəs mənim dünyam hanı?*

Mən Mailədən ayrılıb Qalivariyə, oradan da Stokholma qayıtmalı idim. Mailə məndən göz yaşları içində ayrıldı və bir bayatı dedi:

*Gəldi ayrılıq dəmi,*
*Neyləyək biz bu qəmi?*
*Vətən — uzaq, mən, — qərib,*
*Yox könlümün həmdəmi.*

Mən isə vətənimin günahsız qaçqınlarının ağrı-acılarını necə qələmə almaq barədə düşünə-düşünə yoluma davam edirdim. Stokholmda olarkən bu ölkənin ədəbi aləmi, incəsənəti, kitabxanaları da mənim diqqətimdən yayın-mamışdı. Maraqlı idi ki, İsveçin paytaxtı Stok-holmda da mən Eriksonun heykəlindən başqa heç bir heykələ rast gəlmədim. Təkcə bu heykəl əzəmətlə şəhərin mərkəzində ucalırdı.

***“Ədəbiyyat qəzeti”,***

***04.11. 2005***

## Bu yaranın izi getməz...

26 fevral 2004-cü il. Əsrin amansız qanlı Xocalı faciəsi! Bu faciəni bütün dünya azərbaycanlıları kimi, İsveçdə yaşayan azərbaycanlılar da yad edirdilər və mən bu tədbirə dəvət olunmuşdum. Yüksək səviyyədə təşkil olunmuş bu tədbirdə Xocalı ilə bağlı filim-kasetlər göstərilir, foto-şəkillərdən istifadə edilir, çox həyəcanlı çıxışlar eşidilirdi. Məni Azərbaycandan gəlmiş qonaq kimi təqdim edib, söz verdilər. Şəhidlər xiyabanı və Xocalı ilə bağlı şeirlərimi söylədim. O insanların kədərli üzləri və göz yaşlarını hələ də unuda bilmirəm. Düzünü deyim ki, mən özüm hamıdan artıq həyəcanlı idim. Axı 26 fevral 1992-ci ildə baş vermiş faciə həmin insanlardan fərqli olaraq mənim gözlərim qarşısında baş vermiş və mənim həyat yoldaşım bu faciədən sonra könüllü olaraq cəbhəyə getmiş, iki il Qarabağ döyüşlərində erməni qəsbkarlarına qarşı vuruşmuşdu. İndi vətəndən çox-çox uzaqlarda, xarici ölkədə, soydaşlarımızın vətənə, vətəndaşlarımıza olan böyük məhəbbət və ehtiramları vətəndən uzaq, dərdlərinə isə yaxın olmaları mənim ürəyimi dağa döndərir, qəlbimi bir yandan ovudur, o biri yandan da göynədirdi. Məclis çox ağrılı keçirdi. Mənim şerimin sonuncu misraları belə bitdi:

*Bir gün gəlib qapını*
*Xocalı körpəsinin*
*xırda ruhu döyəcək,*

*Sənin günahlarını*
*gələcək nəsillərə*
*zaman özü deyəcək,*
*tarix özü deyəcək!*

Burada "Azərbaycan evi" adlı qurumun sədri Said Azizi idi. Davud Eldemir, Salamat Daşti, Nadir Aytaş, Məmməd Azər, Ruhəngiz Daşti, Əsəd Sadiqi və başqaları bu qurumun fəal üzvlərindən idilər. Tədbirin sonunda "Azərbaycan" cəmiyyətinin sədri Səməd ağa bizi öz maşınında evə yola saldı. Yol boyu söhbətlərimiz də elə bugünkü günün kədərli notları üzərində köklənmişdi. Səməd bəyin mənə təqdim etdiyi "Azərbaycan" adlı dərgi Xocalı soyqırımına həsr olunmuşdu. Bu dərgi İsveçdə fəaliyyət göstərən Azərbaycan dərnəyi əməkdaşları tərəfindən hazırlanır. Redaksiya heyəti M.Azər, Siyavuş Yusifli, S.Nigardır. Dərgi Azərbaycan Respublikası himninin sözləriylə açılırdı. Dərgidə Xocalı soyqırımı ilə bağlı fotoşəkillər, bayatılar, şeirlər və s. yazılar nəzəri cəlb edirdi.

İnsanlıqdan söz açmaq gözəlliklər dünyasının süfrəsini açmaq kimidir. Bu süfrənin başına yığışan insanlar yaşada-yaşada yaşayır, özləri də ən böyük mənəvi sərvətə çevrilirlər. Doktor Rza Bərahənin doktor Cavad Heyətə həsr etdiyi "Bizim azadlıq quşumuz" adlı məqaləsi də diqqəti çəkirdi:

"Doktor Cavad Heyət 25 ildir bu dərgini yaşadır". Onu "Yaxın Şərqin hikmət səsi" bilərək barəsində bunları söyləyir: "Qoca saymaram səni, ona görə ki, sən təzə dil açıb ana dilimizdə danışan uşaqlar qədər cavansan. Cavan saymaram səni, ona görə ki, sən əsrlər boyu danışdığımız dil qədər qocasan".

Beləcə, cavanlaşa-cavanlaşa qocalan, qocala-qocala cavanlaşan bəşər övladının qoyub getdiyi yol əbədidir, bu əbədiyyətdən doğan nə varsa, yaşayır, yaşayacaqdır. Bu səfər boyu

gördüklərim mənə haqq verir deyim ki, Azərbaycanın başına gələn faciələr, o cümlədən əsrin ən qanlı faciəsi Xocalı soyqırımı heç vaxt unudulmayacaq!

Bütöv bir şəhərin yer üzündən vəhşicəsinə silinməsi, onun bütün sakinlərinin "günah"ı yalnız türk olaraq doğulmasından ibarət minlərcə insanın ucdantutma qətlə yetirilməsi, yurdundan didərgin salınması!

Bəşəriyyət tarixinin ən qanlı terrorlarından biri — minlərcə günahsız qoca, körpə və qadınların qəddarcasına güllələbaran edilməsi.

XX yüzillik tarixindən silinməz xəcalət səhifəsi özünü "mədəni" adlandıran çağdaş vandalların neçə minillik aborigenlərə qarşı Avropa və Amerikanın gözü qabağında gerçəkləşdirdiyi etnik təmizləmə siyasətinin tükürpədici örnəyi — Xocalı faciəsi!

Azərbaycan xalqını düşmənlərinə qarşı həmişə ayıq-sayıq olmağa, qisası yerdə qoymamağa çağıran xəbərdarlıq zəngi — Xocalı faciəsi!

Azərbaycanın və Türk dünyasının başına gətirilmiş bu faciələr haqqında nəinki yazmaq, həm də var səslə bütün dünyaya car çəkmək bir vicdan borcu kimi bizim qarşımızda durur. Vaxtilə iş yerimlə bağlı olaraq mənim yanıma Binəqədi rayon ərazisində məskunlaşan qaçqın insanlar gəlir və kömək istəyirdilər. Onlarla söhbət etmək, dərdlərinə şərik olmaq, başlarına gələnləri bilmək hamı kimi, məni də maraqlandırırdı. Bir gün yenə Ağdamdan, Şuşadan, Laçından, Xocalıdan, Qarabağın başqa bölgələrindən yanıma qaçqın insanlar gəlmişdi. Onların ürəkləri çox dərdli olduğundan, söhbətlərinin ucu-bucağı yox idi. Hər kəs özünün və qohum-əqrəbasının, qonşusunun başına gələn bəlalardan, onlara edilmiş genosiddən yanıqlı-yanıqlı söz açırdılar. Onu da deyim ki, Xocalıdan gələn qaçqınlar çox az idilər. Bir neçə adam. Onlar da ki, ölümlə pəncələşə-pəncələşə, yalnız təsadüf nəticəsində canlarını qurtara bilmişdilər.

Onların başına gələnlərə qulaq asmaq, onların hisslərinə şərik olub yaşamaq, onların gününə düşmək kimi idi. Çox dəhşətli hadisələr danışırdılar. Bizim yeniyetmə, yeddi-səkkiz yaşlı qız balalarımıza olunan genosiddən elə danışırdılar ki, adamın dili gəlmir bu hadisələrdən söz açsın. Lakin azğın ermənilərin yalan uydurmalarını bütün dünyaya yaydıqları bir zamanda, onlara qarşı olmayan genosiddən bar-bar bağırmaları bizim haqq səsimizi susdur-mamalıdır.

Təhqirlərə məruz qala-qala öz dərdlərini sellərin yükünə də sığışdıra bilməyən, evindən-eşiyindən, ata-ana qəbirlərindən, öz doğma ocaqlarından qovulan bu günahsız insanlara qulaq asdıqca, ürəyimdə intiqam qəzəbi baş qaldırırdı. İstəyirdim əlimə silah alıb cəbhə bölgələrinə yola düşüm. Məni bu fikrimdən ayıran Xeyri nənə birdən dilləndi: "Hələ bu nədir ki, Ağdamda bir həkimin əməliyyat zamanı ürəyi partlayıb öldüyünü eşitmədiniz?

Xocalıdan bir qadını ağır vəziyyətdə Ağdama gətirmişdilər. Qadın huşunu itirmiş halda idi. Həkim onu dərhal əməliyyata hazırladı. Əməliyyat zamanı qadının ana bətnində pişik balasını görən həkim infarkt keçirib iş başında həlak oldu.

Bu söhbəti eşitmək çox dəhşətli idi. Ayağa qalxıb otaqda var-gəl edib, özümü ələ almağa çalışırdım. Lakin özümü ələ ala bilmirdim. Nə edəcəyimi də fikirləşə bilmirdim. Məsələ burasında idi ki, mən bu hadisələri hansısa rəyavət kimi eşitmir, kitabdan oxumurdum. Mənim gözlərim qarşısında olan bu insanlar bu dəhşətli hadisələrin canlı şahidləri idilər.

2004-cü il fevralın 26-da İsveçdə azərbay-canlıların yüksək səviyyədə təşkil etdikləri Xocalı faciəsi günü bütün yuxarıda gördüklərimi yenidən  gözlərim önündə canlandırırdım. O hadisələri danışan insanların, Xeyri nənənin həyəcanlı simasını xatırlayırdım. Ermənilər tərəfindən törədilmiş minlərlə belə genosid hadisələr zaman-zaman olub. Xocalı faciəsi isə əsrin ən qanlı faciəsidir və on dörd ildir ki, bütün azər-baycanlılar bu faciənin unudulmaz yaralarının ağrılarını duya-duya, hiss edə-edə yaşamaqdadır.

*Yurdum yandı ocaq kimi,*
*Düşmən gəzir qoçaq kimi.*
*Boş qalıbsan papaq kimi,*
*Ağlama, Şuşam, ağlama!*

*Xocalının ahı bitməz,*
*Ürəklərdən dərdi itməz.*
*Yüz il gəlsə, min il getsə,*
*Bu yaranın izi getməz.*

***"Ədəbiyyat qəzeti",***

***17.03. 2005***

# Qaçqınlar

Telefon zəng çaldı.
– Alo, salam!
– Salam!
– Fəridə, sənsən?
– Hə, mənəm, çox sevindim.

O, məni yenə Qalivariyə dəvət edirdi. Əgər yadınızdadırsa, ötən sayımızın birində mən Fəridədən söz açmışdım. O, İsveçin şimal ölkəsi Qalivari şəhərində yaşayırdı. Qarşıdan Milad bayramı gəlirdi. İsveçlər bu bayramı çox gözəl qarşılamağa hazırlaşırdılar. Ölkəyə gələn başqa insanlar da bu bayram şənliklərindən geri qalmırdılar. Telefonda bir qədər hal-əhval tutduqdan sonra Fəridə dedi:

– Bilirsən, tanışlıq üçün keçən səfər imkan olmadı. Səni heç kəslə tanış edə bilmədim. Bu şəhərdə dünyanın hər yerindən gəlmiş qaçqın insanlar yaşayır, o cümlədən azərbaycanlılar. Bilirəm, səni bu məsələ çox maraqlandırır. Gəl buraya, həm onlarla tanış olarsan, həm də bayramı birlikdə qeyd edərik.

Mən razılaşdım.

Artıq bir gün idi ki, mən bu yerli-yataqlı rahat qatar ilə yol gedirdim. Əlbəttə, Fəridənin xahişi ilə. O, məni dayanacaqda qarşılayacaqdı. Bu qatar Qalivaridən Kirunaya gedirdi. Kiruna isə İsveçin sonuncu şimal ölkəsi idi. Ondan sonra artıq şaxtalı, buzlu okeanlar gəlirdi. Deyilənə görə orada qışda şaxta 30 dərəcəyə çatırdı. Yol boyu qatarda maraqlı hadisələr baş verdi. Mən burada bir neçə azərbaycanlı ailəsi ilə tanış oldum. Onlar Kirunaya gedirdilər. Bu insanlar məcburi köçkün və qaçqın, ermənilər tərəfindən doğma yurdlarından didərgin salınmış, sığınacaq arzusunda olan qarabağlı soydaşlarımız idi. Onları Kirunada məskunlaşdırmışdılar. Ümumiyyətlə, bu ölkəyə gələn qaçqın insanları ölkənin paytaxtından çox-çox kənar şəhər və qəsəbələrində yerləşdirirdilər. Kiruna böyük şəhər idi. Lakin ölkənin demək olar sərhəd hissəsi idi. Məsələ burasında idi ki, buraya göndərilən insanlar çox narahatlıq hiss edirdilər. Çünki şaxtalı, buzlu bir diyarda yaşamaq asan deyildi. İllah da ki, cənub ölkələrdən gəlmiş olasan. O ki, qaldı sosial-məişət məsələlərinə, onun heç bir fərqi yox idi. Bu rahatlıq ölkənin hər yerində eyni idi. İndi məni başqa maraq bürümüşdü. Mən Kirunaya getmək fikrinə düşmüşdüm. İstəyirdim öyrənəm ki, mənim soydaşlarım olan qaçqın insanlar bu ölkədə özlərini necə hiss edirlər. Nəhayət, qatar Qalivariyə çatdı. Fəridə məni qarşıladı. Biz evə getdik. Mənə bu ailədə çox hörmət və mehribançılıq göstərilirdi. Mənim gəlişim Fəridəni çox sevindirdi. Bu,

mənə də xoş təsir bağışlayırdı.

– Sən bizə gələndə elə bilirəm Azərbaycandayam, – deyə Fəridə dilləndi. — Sən mənə vətənin bir parçası kimi görünürsən, qəribliyimi mənə unutdurursan.

– Gör neçə ildir burada yaşayırsan, Fəridə, hələ bu mühitə alışmamısan?

– Yox, əzizim, məsələ belə deyil. İş burasındadır ki, alışmağına alışırsan. Lakin vətənin adı gələndə, ya da onunla bağlı bir şey görəndə, bir insanla rastlaşanda ürəyin göyüm-göyüm göynəyir. Mənim yadıma sənin şerindəki bir misra düşür: "Vətəni vətən edən qürbətə qurban". Doğrudan da qürbət vətənin nə olduğunu adama çox dərk etdirir.

Fəridə danışdıqca onun gözlərində qığılcımlar parlayırdı. O, həm sevinir, həm də kədərlənirdi. Onu başa düşmək mənim üçün çox asan idi. Fəridəyə baxdıqca düşünürdüm: "İlahi, insana yaşamaq üçün nə lazımdır? Vətən, məhəbbət, gözəl ünsiyyət yaratdığın dostlar. Bunlar olmadıqda yaşa-maq nə qədər çətindi".

– Yolda necə keçdi, bir çətinlik olmadı ki? Bilirəm, burada uzun yol səyahətləri belə adamı yormur.

– Hə, doğrudur, belə bir çətinlik olmadı, amma maraqlı işlərlə rastlaşdım. Kirunaya gedən qarabağlı soydaşlarımızla görüşdüm.

– Hə, nə deyirdilər, necə idilər? – deyə Fəridə də çox maraqlanmağa başladı. Mənə elə gəldi ki, onlara Kirunada yaşamaq heç də xoş deyil.

– Bilirsən, Kiruna çox şaxtalı olur. İnsanlar nədənsə orada çox qəribsəyirlər. Bir də, orada çox maraqlı bir yer var: "Buz restoranı", hər şey buzdandır. Fincanlar, nəlbəkilər, qab-qacaqlar, hər şey. Hətta oturacaqlar, masalar, divarlar belə buz-dandır.

Məni maraq bürüdü:

– O necə olur ki, hər şey buzdandır? Onda yəqin muzey kimidir də.

– Yox, ay qız, nə muzey — restorandır? İnsanlar gedib orada çay, qəhvə içir, yemək yeyirlər.

– Əcəb maraqlı yerdir, Fəridə, ora getmək çətindir?

– Yox, elə bir çətinlik yoxdur. Kiruna Qalivariyə çox yaxındır. Cəmisi 40 km məsafə var. Amma ora İsveçin şimalında sonuncu şəhərdir. İstəsən bayramı orda keçirə bilərik, bizim orada tanışlarımız var. Sənə çətin olmaz ki? — deyə Fəridə məndən soruşdu.

– Yox, nə çətin. Mən orada olan soydaşlarımızla görüşmək istərdim.

– Bu çətin iş deyil, darıxma, mən səni elə bir yerə aparacağam ki, orada Azərbaycandan gələn adamlarla yaxından tanış olacaqsan, özün də nə qədər istəsən qələm-dəftər götür ki, çatdıra biləsən, – deyə Fəridə zarafata başladı. Sonra da köks ötürüb üzümə baxdı.

– Sən xoşbəxt adamsan, gördüklərini qələmə alıb heç olmasa ürəyini boşaldırsan. Sonra yenə zarafatla: – Sən məndən də yazacaqsan? – deyə soruşdu.

– Əlbəttə, sən mənim əsərimin baş qəhrəmanı olacaqsan, – deyib, bir qədər zarafatla deyib-güldük. Qalivaridə şaxta 25 dərəcəyə çatırdı.

Yanvar-fevral aylarında isə şaxtanın 28 dərə-cəyə çatacağı gözlənilirdi. Lakin şaxtanın belə yüksək olmasına baxmayaraq, insanlar isti geyim-lərlə çox sərbəst hərəkət edirdilər. Hətta uşaqların həyətdə oynaması müşahidə olunurdu. Hava olduqca quru və sakit idi. Evlərdə də rahatlıq və istilik elə idi. Pəncərədən çölə baxanda sənə elə gəlirdi ki, bayırda heç bir şaxta-filan yoxdur. Bu şəhər adama beynəlxalq şəhəri xatırladırdı. Çünki burada dünyanın hər yerindən gəlmiş, özünə sığınacaq tapmaq arzusunda olan insanlar var idi. Fəridə məni Azərbaycandan gəlmiş bir neçə adamla tanış etmişdi. Qalivari çox da böyük şəhər olmadığına görə, burada insanlarla təmas yaratmaq, yaxından tanış olmaq asan idi. Ona görə də mən Orta Asiya, Rusiya ölkələrindən, Qafqazdan gəlmiş adamlarla, xüsusən Qarabağdan olan soydaşlarımızla tanış olur, onların taleyi ilə maraqlanırdım. Onların taleyi bir idi – qaçqınlıq. Bu insanlar hərəsi bir dərd üzündən öz vətənlərindən, ev-eşiklərini atıb, satıb bu ölkəyə didərgin, qaçqın kimi düşmüşdülər. Onu deyim ki, belə talelə barışmaq istəyənlər də az deyildi. Lakin onlara bu ölkədə yaşamaq hüququnun verilməsi məsələsi çox da asan başa gəlmirdi.

Şəhər çox gözəl və yaraşıqlı idi. Yaşayış yerləri əsasən üçmərtəbəli binalardan və birmər-təbəli

xüsusi mülklərdən ibarət idi. Evlərin həyət-ləri çox səliqəli, gül-çiçəkli, yaraşıqlıydı. Bahar fəslində burda hər tərəf yamyaşıl görünür. Ən maraqlı odur ki, həyətlər arasında heç bir hasar yox idi. Bu da insanların bir-birinə qarşı olan inamından, etibarından, çox sağlam bir ab-havada olmasından xəbər verirdi. Əgər əlindəki zənbilini bir yanda –küçədə, bağda yaddan çıxarıb qoysan, iki gündən sonra da qayıdıb gəlsən, zənbili yerindəcə qalmış görəcəksən. Kimsə ona toxunmayacaq. Məsələ burasında idi ki, qayda-qanunun aliliyi hökm verirdi ki, bu ölkəyə gələn əcnəbi insanlar da bu prinsiplərə hörmətlə yanaşsınlar. Çünki insan şəxsiyyəti o qədər qorunur ki, kimsə özünü alzaldıb kiminsə malına göz dikmək iddiasında olmurdu. Bu ab-hava məmləkətin hər nöqtəsində hökm sürürdü.

**Maraqlı bir haşiyə**

Bir gün villaların arası ilə yol gedirdim. Bu füsunkar mənzərəyə tamaşa etmək olduqca maraqlı idi. Yuxarıda dediyim kimi, evlərin həyətləri yamyaşıl, güllü-çiçəkli, meyvə ağaclarında budaqlar meyvənin ağırlığından sanki sınıb yerə düşəcəkdi. Qonşularla aralıqda da ki, heç bir hasar-filan yox. Göz oxşadıqca gözəl evlər, bağ-bağçalar, həyətlər uzanıb gedirdi. Mənim yadıma Nizami Gəncəvinin "İsgəndər-namə"si düşdü. İsgəndər gəlib Nüşabənin ölkəsinə çıxır. Görür ki, həyətlər, qapılar açıq, qoyunlar çobansız otlayır, dükanlar da ki, qıfılsız. İnsanlar bir-birinin sevincinə və kədərinə yekdildirlər. Öz-özümə düşündüm, bəlkə, insanlar rəhmətlik N.Gəncəvinin o şah əsərlərindən faydalanıb, öyrənib, özləri üçün belə həyat yaradıblar.

Beləcə, öz xəyallarımla, yolları seyr edə-edə gedirdim. Nənəmin adını qoyduğum 9 yaşlı sevimli Cavahirim də mənimlə idi. O, İsveç dilini yaxşı bilirdi. Birdən hansısa həyətin qurtaracağında, küçənin qırağında içərisi almalarla dolu böyük bir vedrə gördük. Almalar da nə almalar, adam istəyir ki, əl atıb götürüb yesin. Fikirləşdim, isveçlər heç vaxt küçədə nəsə qoyub satmırlar. Görəsən bu nə sirdir? Cavahirə dedim:

– Qızım, soruş gör bu almaları nə üçün buraya qoyublar.

Uşaq əvvəl tərəddüd edib soruşmaq istəmədi və məni başa salmağa çalışdı ki, bu, onların şəxsi işidir. Bizim onların işinə qarışmağa ixtiyarımız yoxdur. Mən də uşağı başa saldım ki, mənə bu işin səbəbini öyrənmək çox vacibdir. Nə isə, ağıllı balam məni başa düşdü və bu sirri öyrəndik. Sən demə, isveçli bu gözəl-göyçək yeməli almaları dərib küçə qapısına qoyub ki, kim istəyir aparsın. O, bu almaları öz həyətindən dərsə də, yeməyəcək. Çünki almalar ekoloji cəhətdən təmiz deyil. O, almanı mağazadan alır. Mağazada isə hər şey sağlamlıq üçün yararlıdır. Düzü, bu, bizə çox qəribə göründü. Necə yəni həyətindən dərdiyin almaları yeməyəsən? Yadıma bizim bazarlar, talkuçkalar, səkilər üstə qoyulmuş ərzaq, mer-meyvələr düşdü. Bu barədə yəqin ki, danışmağa ehtiyac yoxdur.

Mən bu insanlarla görüşdüyüm zaman onların düşdükləri çətinliklərlə üz-üzə gəlirdim və başa düşürdüm ki, heç kəs öz doğma vətəninin rahatlığını atıb, bu həyatla asanlıqla barışmağa qadir deyildir. Çünki rahatlıq və xoşbəxtlik yalnız vətəndə yaşamaqdadır prinsipi, bu insanların gözlərindən istəsələr də, istəməsələr də çox aydın oxunurdu.

İndi Raisa Akopovnanın da gözlərindən axan kədər onun ürəyinə süzülürdü. Onun həyat yoldaşı azərbaycanlı idi. Oğlu İlqarla bu ölkəyə sığınacaq almaq üçün gəlmişdilər, adları da qaçqın idi. İlqarın oğlu-qızı vətəndə qalmışdılar. Raisanı həyat yoldaşından, qızlarından, nəvələrindən ayrı düşmək çox sıxırdı. Lakin indi onun qanını qaraldan nə həyat yoldaşından, nə də uşaqlarından ayrı düşməsi deyildi. "Bizə bu gün "neqativ" göndəriblər, — deyib, Raisa yaşla dolmuş gözlərini silirdi. Bu neqativ elə bir sənəd idi ki, onu alan şəxs, bu ölkəni tərk edib, öz vətəninə qayıtmalı idi.

Liliya Ambarsumova çox həyəcanlı halda ondan soruşdu:

– Hə, bu nə vaxt olub?

– Elə bu gün, Miqraşondan bizə məktub gəlib. Heç bilmirəm nə edim.

Raisa çox kədərli cavab verdi. O, çox narahat idi. Axı yaşadığı yurda necə qayıdaydı? Oğlu da anasının oduna düşmüşdü.

– Necə yəni, heç bir çıxış yolu yoxdur?

Çeçen qızı Asiya sözə qarışdı:

– Siz vəkil tuta bilərsiniz.

Liliya Ambarsumova da Raisaya ürək-dirək verib onu sakitləşdirir, əlavə vəkil tutmasını təkid edirdi. Çünki burada bütün işləri vəkillər həll edirdi.

Raisa məyus-məyus dilləndi:

– Əlavə vəkil tutmağa pul lazımdır. Bizim o qədər pulumuz haradandır? Miqraşonun verdiyi pul ilə siz ki, bilirsiniz, əlavə vəkil tutmaq mümkün deyil.

Raisa bu "neqativ" məsələsində sübut etməli idi ki, həqiqətən o, geriyə qayıtsa, onu faciə gözləyir. Əks təqdirdə onu öz vətəninə deportasiya edəcəkdilər.

Görəsən Raisanın vətəni hara idi? O, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda böyüyüb boya-başa çatmış, azərbaycanlı ilə ailə həyatı qurmuş, uşaqlar doğmuşdu. Azərbaycana çox bağlı idi. Ona görə də Ermənistandan gəlmiş ermənilər onu "Azərbaycanskaya armyanka" adlandırırdılar. Axı insanın vətəni onun doğulduğu, boya-başa çatdığı və taleyini bağladığı torpaqdır. Bu, birmənalı olaraq belədir. İndi fikirlərim, düşüncələrim məni didərgin salmışdı. Bilmək istəyirdim görəsən, Raisa ürəyinin lap dərin qatlarında öz vətəni haranı hesab edir? Bayram gecəsi onun Aygün Hümbətovanın ifasında "Tut ağacı" mahnısının kasetinə qulaq asa-asa ürək ağrısı ilə tökdüyü göz yaşlarının canlı şahidi olmuşdum. O, necə də sızım-sızım göynəyib ağlayırdı. Aman Allah, qəriblikdə olmaq, qərib insanların qəlbini duymaq, onların keçirdiyi kədər və iztirabları kənardan seyr etmək, sonra da bu kədərli notlardan söz açmaq...

Mənim qonaq kimi bu ölkədə qərib olmağım asan idi. Lakin qərib qəlbimlə bu qaçqın qəriblərin qərib qəlblərini duymaq, onların ürək ağrılarını görmək çox çətin idi. Raisanın oğlu İlqar söz yox ki, əzəli torpağımız olan Qarabağa vətən deyirdi. Lakin bu vətəni onun əlindən zorla alıb, onun qəlbini göynədə-göynədə vətənsiz edən hansı qüvvə idi? Əlbəttə, erməni daşnaklarının illər boyu Azərbaycanın başına gətirdikləri ağlasığmaz bəlaların nəticələri, torpaqlarımızın gözlərimiz görə-görə oğurlanması, üzümüzə dost deyib arxadan vurduqları zərbələrin ağrıları... Bu idi işin aqibəti. Bu gün özü öz əli ilə öz xalqını məşəqqətlərə salan erməninin və ermənipərəst insanların cəmiyyətə gətirdikləri çirkabıq. İlqar vətəni bütünlüklə daşlı-kəsəkli qəlbinə köçürmüş, vətənilə tək-tənha bir guşəyə çəkilmişdi. Elə bir guşəyə ki, onu oradan heç kəs qopara bilməzdi. Yəqin bu qərib duyğuların istisi, hərarəti idi ki, kimliyindən və necəliyindən asılı olmayaraq, bu insanlar bir-birinə çox hörmət və məhəbbətlə yanaşırdılar. Çünki onları birləşdirən bircə məqam idi — qaçqınlıq! Qaçqınlığın gətirdiyi bütün çətinliklər, kədər, qəm-qüssə hamının birgə duyduğu dərd idi. Onların ürəkləri mənə inqibator cücələrini xatırladırdı. Bir boyda, bir biçimdə, bir rəngdə.

– Sabah mən Kirunaya vəkillə görüşməyə gedirəm deyə, – Raisa dilləndi. Bu vəkil onlara dövlət tərəfindən ayrılmış vəkil idi. Liliya Ambar-sumova və başqa erməni, çeçen, Azərbaycan millətindən olan qadınlar da söhbətə qarışır, Raisaya ürək-dirək verir, onu sakitləşdirir və cürbəcür çıxış yolları göstərirdilər. Liliya Ambarsumova bu ölkəyə öz qızı Ofeliya ilə Yerevandan gəlmişdi. Raisagilin yaşadıqları binanın üçüncü mərtəbəsində olurdular. İndi bu qonşular dərdlərini bölüşmək üçün bir yerə yığışmışdılar. Liliyanın dediyinə görə onun qızının da atası azərbaycanlı idi. 24 yaşlı Ofeliya hündürboy, yaraşıqlı qız idi. Onlar üç il idi ki, bu şaxtalı Qalivaridə yaşayırdılar və bu soyuq pəncərələrdən baxmaqdan yorulmuşdular. Raisanın başına gələn bu fəlakət Liliya və onun qızı Ofeliyanı da çox təşvişə salmışdı. Çünki bu "neqativ" deyilən məsələ onların da başına gələ bilərdi. Ümumiyyətlə, bu ölkəyə pənah gətirmiş hər bir qaçqın üçün bu vəziyyət çox acınacaqlı idi. Axı onlar bu ölkənin vətəndaşı olmaq və ölkənin hüquqlarından istifadə etmək, daha yaxşı yaşamaq, qaçqınlıq həyatından yaxa qurtarmaq istəyirdilər.

– Dünyanın ən böyük neməti olan insan... Ulu Tanrı doğrudan da insanı böyük xarüqələr üçün, qurub-yaratmağa, sevib-sevilməyə yaratmışdır. İnsan insan kimi yaşamaq üçün insanlıq zirvəsinə daim can atır, lakin bu zirvəyə çatmaq üçün insanlardan çox şey tələb olunur. İstər Tanrı qarşısında, ya da insanlar qarşısında.

Qaçqınlıq... Şeytan qüvvəsimi insanları gətirib qaçqınlıq həyatına çıxarır?!

Əzəli torpaqlarımız olan Qarabağdan qaçqın düşmüş soydaşlarımız, eyni zamanda, neçə-neçə gürcü, çeçen, yəhudi, ərəb, rus və s. və ilaxır...

Əcəba, bəs bu insanlar nədən və kimdən qaçırdılar?! Görəsən, bu insanlar firavan yaşamaq arzusu ilə öz şirin dünyalarının şeytanlarından qaça-qaça bütün dünyaya səpələnib hansı mələyi axtarırdılar?! Onlar qaçqındırlar! Lakin hara və nə üçün qaçdıqlarını başa düşə bilmirdilər. Həm də başa düşə bilmirdilər ki, dünya girdədir. Hara qaçsalar da, yenə üz-üzə gələcəklər. Elə bu yeni il axşamında olduğu kimi.

**"Ədəbiyyat qəzeti"**

**25.08.2005**

# Üz-üzə

İlin son gecəsi idi. İnsanlar bayram əhval-ruhiyyəsində idilər. Vətəndən, el-obadan didərgin düşmüş qaçqın insanlar da öz daxili aləmlərindəki kədərin əleyhinə çıxmağa can atır, özlərini zahirən də olsa bayram ovqatında göstərməyə çalışırdılar. İlqar özü ilə Azərbaycan mahnılarından ibarət kasetlər gətirmişdi. Gözəl bayram süfrəsinin başında erməni, rus, azərbaycanlı, çeçen, uyğur və başqa millətlərdən olan insanlar əyləşmişdilər. Vaxtanın həyat yoldaşı rus qızı Tanya, iki uşaqları və erməni qızı Akuş öz oğlu ilə Ermənistandakı Azərbaycan torpaqlarından gəlmişdilər. Hamı yeyib-içir, gülüb-oynayırdı deyilən sağlıqlar valideynlərin və əzizlərin şərəfinə idi. İlqar gözlərindən yaş axa-axa gətirdiyi "tut ağacı" mahnısına qulaq asırdı. A. Hümmətovanın ifasında olan bu mahnı məni də kövrəltmişdi. Onların bir-birinə ən xoş arzuları bu idi: "Qoy bu il bizə səadət gətirsin. Hamımız bu ölkənin vətəndaşı olaq".

Bütün bunlar mənə çox qəribə görünürdü. Düşünürdüm. Görəsən doğrudanmı insan öz vətənindən həmişəlik ayrı düşə bilər? Xəyallarım yenə məni çox uzaq olmayan keçmişlərə aparırdı. Azərbaycanın 28 faiz torpaqları işğal altında idi. Zaman-zaman evimizin içində, çörəyimizi yeyə-yeyə evimizin sahibi olmaq istəyən bu insanlar üçün vətən anlayışı əlbəttə yox idi. Qaçqın kimi dünyaya səpələnmiş ermənilər üçün hər kəsin vətəni vətən sayıla bilərdi. Onlar bu gün Azərbaycana vətən desələr də, vətənsiz qalmışdılar. Çünki Azərbaycan azərbaycanlıların idi. Azərbaycanlılar heç vaxt başqa millətlərə xor baxmamışdılar, o cümlədən erməni millətinə. Lakin özündən başqa millət tanımayan ermənilər hər kəsin malına, payına ortaq çıxmağa vərdiş etmiş və nəticədə də millətlər arasına nifaq salmağa nail olmuşlar. İndi bu gün – bu yeni il axşamında yenə üz-üzə oturaraq yurdsuz-yuvasız insanlar kimi özlərinə sığınacaq axtarırdılar. Birdən ara qızışdı. İlqar qədəhi əlinə alıb: – "Yaşasın Azərbaycan! Qarabağ, Qarabağ! " – dedi.

Hamı əlində qədəhləri donub qalmışdılar. İlqar gözlərini Anuşun gözlərinə dikərək dedi: "Hə, Anuş, niyə içmirsən, yoxsa erməni olsan da Azərbaycan torpaqlarında olmağını unutmusan?" Mən bu badəni Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın sağlığına içirəm" – deyib qədəhi başına çəkdi. Tanya sözə qarışdı: Dostlar, gəlin bayram şənliyini poz-mayaq, hamımızın sağlığına içək. Anuş, sənin sağlığına – deyib badəsini axıra qədər içdi. İlqar isə Qarabağ, Qarabağ – deyib sözündə israrlı idi. Heç kəs İlqara qarşı çıxa bilmirdi. Çünki mühit insanları elə bir hala salmışdı ki, yalnız həqiqət qələbə çalırdı. Yəni erməni də, azərbaycanlı da başa düşürdü ki, qatıq qara ola bilməz. Qarabağ Azərbaycana məxsusdur.

XX əsrin sonu, XXI əsrin əvvəllərində Azərbaycanda çox mühüm hadisə baş verdi. Azərbaycan bütün dünya ilə neft kontraktı bağladı və dünyanın ən böyük, inkişaf etmiş ölkələrinin diqqətini özünə yönəltdi. Amerika, Fransa, İngiltərə, demək olar ki, bütün Avropa Azərbaycana istənilən miqdarda sərmayə buraxdı. Külli miqdarda kreditlər verildi, investisiyalar qoyuldu. 1996-cı ildə ildən başlayaraq 2003-cü ilə qədər artıq Azərbaycan dünyada ən dövlətli ölkələrdən birinə çevrildi. Lakin insanlar köləlikdən və kasıbçılıqdan yaxa qurtara bilmirdi. Çünki Qarabağ məsələsi həll olunmurdu. Azər-baycanlılar Ermənistandakı öz doğma Azərbaycan torpaqlarından qovularaq Bakıda və Bakının ətraf kəndlərində yerləşdirilirdilər. Gözəl paytaxtımız olan Bakı köçkünlər şəhərinə çevrilmişdi. Elə buna görə də Bakıda və rayonlarımızda bir qisim insanlar, xarici ölkələrdə yaşamaq həvəsinə düşürdülər.

Bu ərəfələrdə Azərbaycanda çoxlu otellər, restoranlar, şirkətlər fəaliyyət göstərirdi. Xarici ofis, şirkətlərdə işləyən Azərbaycan vətəndaşlarına xaricilərdən 10-15 dəfə az əmək haqqı verilirdi. Maraqlı burası idi ki, öz neftçi mütəxəssisləri ilə həmişə bütün neft ölkələrində nüfuz sahibi olan Azərbaycan indi xarici ölkə vətəndaşlarına möhtac qalmışdı. Bunun da səbəbi qanlı müharibə idi.

Xarici ölkələrə üz tutmuş Azərbaycan vətəndaşlarının isə bu ölkədə heç bir hüququ yox idi, onlar ən yüksək səviyyəli mütəxəssis olsalar belə.

Mən Avropada olduğum zaman bu ölkələrin vətəndaşlarının hüquqlarının əcnəbi vətəndaşların hüquqlarından qat-qat artıq olduğunu gördüm və bu ölkə vətəndaşlarına həsədlə baxdım. Azərbaycanda isə Azərbaycan vətəndaşları əcnəbilərə həsədlə baxırdılar. Hər dəfə bu fərq haqqında düşünəndə istər-istəməz daxili gərginlik keçirirdim. İlahi, mənim ölkəmin vətəndaşları nə qədər möhtac, düşkün, zəlil, kölə halına düşmüş, gülüncluyə düçar olmuş şəxslər idilər. Azərbaycanın sərvətlərini və imkanlarını dərk etdikcə düşünürsən. Bir parça çürük erməni nə böyük bəla olub çıxıb qarşımıza. Nə üçün bu bəladan xilas ola bilmirik? Nədir bu başıbəlalı millətin günahı? Nə üçün bu böyük və imkanlı Azərbaycan bir ovuc erməniyə qalib gələ bilmir? Amma bir ovuc çeçen dünyanın ən güclü ölkələrindən olan Rusiyaya qalib gəlməyi bacardı. Əgər rus belə qorxuludursa, bəs çeçen niyə ondan qorxmadı? Nə isə, bu siyasət mənim işim deyil?! Onu bilirəm ki, milyonlarla qaçqını, torpaqları işğalda olan və müharibə şəraitində yaşayan bir ölkə üçün dövlətçiliyi qurub yaşatmaq o qədər də asan iş deyildir. Azərbaycanda 2 milyondan çox qaçqın yaşayır. Kim idi bu qaçqınlar?...

Ermənistandakı Azərbaycan torpaqlarından deportasiya olmuş, Qarabağ torpaqlarından qovulmuş və Azərbaycanın işğal olunmuş digər torpaqlarından didərgin olmuşlar!.. Onlar azərbaycanlılar idi. Öz ocaqlarından qovularaq, vətənlərində qaçqın olmuş-dular. Bütün bunları nəzərə aldıqca düşünürsən, torpaqlarının 28 faizi işğal altında olan bir ölkəyə ateşkəs üzqaralıqdan və başıaşağılıqdan başqa heç nə vermir. Bu vəziyyət yalnız düşmən tərəfə qələbə və başucalığı gətirir. Əlbəttə elə bunun nəticəsidir ki, Ramil kimi bayraq dərdinə dözməyən qeyrətli oğul-larımız xarici həbsxanalarda ömürlük həbslərə məruz qalıb və cavan ömürləri bada verilir. Bəs erməni?!...

Azərbaycan torpaqlarını zaman-zaman mənim-səyib, qətrə-qətrə özününküləşdirməyə can atıb. Kiminsə heysiyyətinə toxunmaq üçün, onun bayrağını ayaqları altına atıb tapdalayan birisinin aqibəti yalnız ölümdür. Heç bir qeyrətli vətən övladı buna dözməz və əminəm ki, məhs Ramil kimi hərəkət etmişdi. Bəs vətən, vətən necə? Ümid-varam ki, vətən də Ramili yaşadacaq!..

Bir də axı insan nə qədər qaçqın olarmış?! Hələ yerin altında üstündəkilərdən də çox olan, adları və soyadları dəqiq hesablanmamış şəhidləri, qaçqınları olub Azərbaycanın. Onlar öz

səslərini ucalda bilmə-diklərindən unudulub. Gözümüzün qabağında baş vermiş faciə isə əsrin ən qanlı faciəsi oldu. Xocalı faciəsi, Xocalı qaçqınları, onlar qaça bilmədilər. Yox, burda bir qədər səhv etdim. Xocalılılar sadəcə qaçmaq istəmədilər. Onlar qaçmadılar. Onlar öz doğma torpağına qarışıb öz vətənləri Xocalıda və Xocalı faciəsində əbədi yaşadılar. Vurulub irəli yıxıldılar və torpaqlarını öz boyları qədər xilas etdilər.

*Vurulsan həmişə irəli yıxıl,*

*Xilas et torpağı öz boyun qədər!*

Həm də ki, qaçqın adını özlərindən bir ləkə kimi sildilər, xocalılılar!..

Özünün ağ gecələri ilə günəşsiz gündüzlərini yaşayan şimal ölkə, bal kimi şəffaf sularından şirə çəkən gözəl təbiətli İsveç.

Buludlu, aylı, ulduzlu, şaxtalı gecələrinin biri idi. Hamı masa arxasında yeyib-içir, ürəklərindəki vətən həsrəti həyatlarında isə qaçqınlıq, didərginlik anlarını unutmağa çalışırdılar. Bir sözlə, şənlik davam edirdi. Gürcü, erməni, rus, udin, çeçen, indus, uyğur, azəri, türk, kürd, ərəb, yəhudi və s.

Burada insanların milliyəti ön planda deyildi.

Görəsən, nə idi bu insanları bir-birinə bağlayan və onların mənəviyyatını tapdaqdan xilas edən? Bəlkə İsveçdə, bu şimal səmalarda yetmiş yeddi rəngi xatırladan rənbərəng buludların füsunkar gözəlliyi, ya da İsveç vətəndaşlarının beyinlərində uzun illərdən bəri şüurlu şəkildə inkişaf etmiş demokratik güc, ya da insana və insan hüquqlarına etdikləri hörmət, ümumiyyətlə, canlı varlıqlara göstərdikləri qayğı və rəğbət idi? Burada evlərdə saxlanılan heyvanlara belə quşa, itə, pişiyə də dövlət tərəfindən hər ay maddi yardım göstərilirdi. Humanist İsveç xalqı heyvanı da əllərdən atılmış qır-qırıntıya möhtac saxlamırdı. Əlbəttə, canlı varlıqlara, ələlxüsus da insana göstərilən belə qayğını görəndə, yaşayış tərzinin yüksək səviyyədə olduğunu dərk edən hər bir kəs üçün bu ölkədə qalıb rahat ömür sürmək arzusu yaranırdı. Beləliklə də buraya gələn əcnəbi insanlar bu rahatlıqdan imtina etmək istəmirlər və çalışırlar ki, burada vətəndaşlıq hüququ alsınlar.

Bu məmləkət dünyadan gəlmiş bütün qaçqın insanları qəbul edir. Onlara sığınacaq verir, bütün irili-xırdalı tələbləri təmin edirdi. Hər şey qanun çərçivəsində həll olunurdu. Söz yox ki, ölkə vətəndaşlarının hüquqları ilə qaçqın statusu almış insanların yaşayış səviyyəsi çox fərqli idi. Bütün qaçqınların hüquqları onların qaçqınlıq statusu çərçivəsində həll olunsa da, özlərinin şəxsi hüquqları yox idi. Məsələn, onlar istədikləri vaxt xəstəxanada yatmaq, ciddi müalicə almaq, əməliyyat olunmaq, şəxsi evlə təmin olunmaq iqtidarında deyildilər. Lakin təcili olaraq yaşamaları üçün qorxulu olan xəstəliklərin müalicəsi və əməliyyatların aparılması lazım gəldikdə buna çox diqqətlə yanaşılır və təmin olunmasına şərait yaradılır. Təslim olduqları xalqın dilini bilmək lazım idi, hansı ki, ölkə bunu yüksək səviyyədə həll edirdi. Bir də əgər maddi vəziyyətini daha da yaxşı etmək istəyirsənsə, buyur işlə, həm dövlətə vergi ver, həm də yüksək maaş al. Bunun üçün də söz yox ki, ölkənin dilini bilməlisən.

İnkişaf etmiş demokratik bir ölkədə, onun yüksək hüquqlu vətəndaşlarına həsədlə baxa-baxa illərlə bu gözəl hüquqlardan məhrum olaraq yaşamaq o qədər də asan deyildi. Ona görə də insan hüquqlarına yüksək qiymət verən qayğıkeş İsveç dövləti bu insanlara vəkil ayırır,

onların bu ölkədə qalıb-qalmamaq məsələlərinə baxıb və həll etməyə çalışır. Lakin ölkədə yaşamaq hüququnu almaq o ölkənin vətəndaşı demək deyildi.

Bunun üçün də ölkənin başqa qanunları var idi. Mən bir işə valeh idim. Çünki burada vətəndaş sözünün böyüklüyü adi sözdə deyil, böyük əməldə meydana qoyulmuşdur. Buna görə də vətəndaş vətənin əsl daş-qaş idi.

*Vətən səni daş edəcək,*

*Torpağınçün yana bilsən.*

*Torpaq səni qaş edəcək,*

*Külünlə oyana bilsən.*

Yenə qayıdaq masa arxasına, necə deyərlər, üz-üzə, söz-sözə. Həm də insanları bir-birinə bağlayan amilə. Mənə elə gəlir ki, bu qaçqınlıq amilidir. Hamı əlindəki badələri qaldırıb deyilən sağlıqlara içirdilər. Birdən Rauf ayağa qalxıb sağlıq deməyə başladı. Rauf o gecə də sağlıq demək istəmişdi. Lakin başına gələn hadisədən sonra sağlamlığının 80 faizini itirmişdi. Allahın bir möcüzəsi, İsveç xalqının isə böyük qayğısı idi ki, o, sağ qalmışdı.

**Haşiyə:** Belə masalı gecələrin birində Rauf ayağa qalxıb sağlıq demək istəyir. Birdən erməni millətindən olan birisi onun sözünü kəsir. Əlində badə pərt olmuş Rauf üçün təhqir o idi ki, onun sözünü kəsən erməni olmuşdu. Bu hadisədən pərt olmuş Rauf onlara öz gücünü göstərir. Bundan bir neçə il sonra həmin erməni öz rus dostları ilə beş nəfər yığışıb Raufun yaşadığı mənzilə gəlirlər (Raufla söhbətdən məlum oldu ki, onların arasında gürcülər də olubmuş).

Qapı döyülür.

– Çıx səninlə sözümüz var. Əlbəttə, qapı döyənlərin kim olduğunu Rauf yaxşı bilirdi.

– Nə sözünüz var? Qapını açmadan dillənir.

– Çıx bilərsən. Rauf məsələnin yaxşı olmadığını görüb deyir: – Mənim sizinlə heç bir sözüm yoxdur. Bu zaman çağrılmamış qonaqlar güc tətbiq edərək içəri girirlər.

Raufun başından balta və bıçaqla, boğazından güllə ilə vururlar. Bir sözlə, onu ölmüş hesab edib gedirlər. Bu məsələdən, yəni səs-küydən xəbər tutan qonşu isveçlilər zəng edib polis çağırırlar. Bu hadisədən düz iki ay sonra zərərçəkən komandan ayılır və özünü xəstəxanada hiss edir. İndi o, ölüm pəncəsindən qurtardığı üçün bir olan Allaha, bir də isveç xalqına minnətdarlıq duyğuları keçirirdi. Yəqin ki, bu İsveç ölkəsi olmasaydı, Rauf öz həyatıyla vidalaşmalı olacaqdı. Sağ olsun isveçlilər, milyon-larından keçib bir azərbaycanlı oğluna qayğı göstərir, ona həyat bəxş etməklə bərabər həm də bu ölkədə yaşamaq hüququ verirlər.

Demək olar ki, ona atalıq qayğısı göstərirlər. Əlbəttə, belə faktlar isveçlilərin həyatında çox idi. İnsan hüquqlarının qorunmasında mən deyərdim ki, İsveç dünyada tayı-bərabəri olmayan bir ölkədir. Burda hər kəsin şüuru və əqidəsi hələ körpəlikdən belə tərbiyə olunur və bu cür həyata yönəldilir.

Beləcə Rauf altı ay xəstəxanada müalicə olunur. İndi bədəninin üçdənbir hissəsi işləsə də, o, əlil arabasında deyil, özü-özünü idarə edə bilirdi.

## “Ədəbiyyat qəzeti”nə məktub

Hörmətli qəzetimiz və əziz iş yoldaşlarım, cismən “Ədəbiyyat qəzeti”ndən ayrı düşsəm də, ürəyim həmişə qəzetimiz və kollektivimizlədir. Siz bilirsiniz ki, mən “Ədəbiyyat qəzeti”nin mənəviy-yatımız və ümumən ədəbiyyat üçün olan ən böyük mənasını və gözəlliyini, vacibliyini həmişə dərk etmiş və bu doğma qəzetimizlə fəxr etmişəm. Adətən gözəllik daima gözlərinin qarşısında olan insan, onun varlığını adi hal kimi qəbul edir və bəlkə də düşünməyə macal tapmır. Bu adiliyi aradan qaldıran amil zənnimcə, həsrətdir. İndi mən də, ədəbiyyat dünyamızın qaynağı olan “Ədəbiyyat qəzeti”nə demək olar ki, həsrətəm. Və bu həsrət məni öz dünyasına, yəni ədəbiyyata daha da sıx bağlayır. Ürəyim və fikrim həmişə ədəbi dünyamızdadır.

Mən ilk növbədə Anar müəllim başda olmaqla, sizi və bütün Azərbaycan Yazıçılar Birliyinin üzvlərini, Birliyin növbəti qurultayının uğurla başa çatması münasibəti ilə təbrik edirəm. Azərbaycan Yazıçılar Birliyinə uğurlar diləyirəm. Bir də sizdən mənim təbrikimi bütün dostlara çatdırmağınızı rica edirəm. Mən Avropada, İsveçin paytaxtı Stokholm şəhərindəyəm. Bu ölkənin çox gözəl florası, faunası, təmiz ekologiyası var. Zəngin gözəlliyə malik, şəhəri ilə kəndi arasında demək olar fərq olmayan İsveç ölkəsinin vətəndaşları gündəlik qayğıları ilə yaşayır və çalışırlar. Bu səyahət qələm adamı kimi mənim qarşımda yeni bir dünya açdı. Bir daha əmin oldum ki, dünyanın hər yerində gözəlliyi və çirkinliyi yaradan məhs insanların özüdür. Əsl insanı isə yalnız gözəlliklər valeh edir. Mənə vətənimdən qiymətli və əziz heç nə yoxdur. Mən hələ vətənimdən kənara çıxmadığım dövrlərdə yazdığım şeirlərimdə həmişə vətən eşqimi tərənnüm etmişəm və buna görə özümü xoşbəxt sayıram. Hər dəfə qarşıma çıxan valehedici gözəllikləri görəndə düşünürəm: Vətənimdən gözəli varsa, deyim ki, elə yalnız vətənimdir və yadıma Rəsul Həmzətovun “Mənim Dağıstanım” əsəri düşür. Dünyanın ən böyük təmtərağını öz kiçik auluna və xırdaca daxmasına dəyişməyən şairin böyük ürəyini alqışlayıram. Vətənimin hər qarışına və dostlarıma ürəyimin bir hissəsi yox, bütöv varlığı deyirəm. Ulu Tanrıma minnətdaram ki, bütün hisslərimi şeirlərimlə çatdırmağa mənə imkan verir. Bu qərib diyarda yeganə təsəllim yalnız və yalnız şeirdir:

*Ağacdan alma dərdim,*

*Demə almaydı dərdim;*

*Dərdin məni almışdı,*

*Almanı dərdim, sərdim.*

*Dolaşdım dünyanı*

*qarış-qarış mən,*

*Yüksəkdə görmədim*

*Heç nə vətəndən.*

*Ən böyük zirvədə*

*ürəyim, duyğum*

*Yaşadı həmişə*

*sənlə tən, Vətən!*

*Vətənimin aranı da, dağı da,*

*Ağlamasın qərib-qərib yağıda;*

*Şad gün gələ sitəmləri dağıda, –*

*Daha gedib ürəyimin yağı da.*

*Vətənimin hər qarışı*

*havası, torpağı, cənnətdi*

*suyu sərvətdi;*

*Bu sərvəti duymayana deyərdim;*

*Vallahi dünyada*

*böyük bədbəxtdi.*

Əzizlərim, yazmağa söz çoxdur. Vaxtınızı çox almaq istəmirəm. Lakin bir şeirdə min fikir olar, – deyiblər. Sizə bir neçə şeirimi göndərirəm. Əgər məni "ədəbiyyat qəzeti"nin oxucuları ilə bir daha görüş-dürsəniz, böyük şərəfə nail olaram. Kollektivimizə və dostlarımıza mənim salamımı çatdırın. Hamınızı bağrıma basıb öpürəm. Hələlik bu qədər. Allah qoysa, yaxın vaxtlarda görüşərik.

Sağ olun!

**KİTABIN İÇİNDƏKİLƏR**

Qürbətdə vətən qoxusu – E.İsgəndərzadə............ 3

Pedaqoji düşüncələr – Şahrza Ağayev...................... 6

**Vurulsan həmişə irəli yıxıl,**

**Xilas et torpağı öz boyun qədər**

Hər şeir yazadan sonra........................................ 11

Yaşadım............................................................. 12

Dolana-dolana.................................................... 13

Torpağa himn...................................................... 14

Şeir yazmasam əgər............................................... 15

Bakının payızı..................................................... 16

Vətəndə qəribəm ata-anasız................................ 17

Şəhidlərə himn.................................................... 18

Bakı küləyi.......................................................... 20

Çərşənbə axşamı, Novruz gecəsi.......................... 21

Xəzərim.............................................................. 23

Novruzun gəlişində................................................ 24

Döşü şüarlı Bakım............................................... 26

Uzaq dur............................................................. 27

Ürəyimdə Göygölüm............................................ 28

Ata ocağı............................................................ 29

Şəhidlər xiyabanında........................................... 32

Kirpiyimdə yaşı gördüm........................................ 33

İnsanı qoru.......................................................... 34

Sən məni unutma.................................................. 35

Müqəddəsdir şəhid ruhu....................................... 36

Şamaxıda............................................................. 39

Şamaxı balaca, məzarlar uca................................. 40

## Qürbətin gülü

Kədər yağışı............................................................ 42

Nərgizim................................................................... 44

Baltik sahilində......................................................... 46

Qərinələr önündə..................................................... 48

Şimal gecəsi............................................................. 50

Sədaqətdən qəm üzərsən......................................... 52

Durna qatarı tək köçür buludlar.......................... 53

Bakı......................................................................... 55

Ana vətən................................................................ 57

Günəşin nur şəlaləsi............................................... 58

Şimalda bahar........................................................ 59

Qəm buludu............................................................ 60

Avropada bahar...................................................... 61

İsveçin gözəlliyi...................................................... 63

Dünyanın min sirri var........................................... 62

Şimalda qış.............................................................. 66

Sevən ürək.............................................................. 67

## Külünlə oyana bilsən

Buludlar.................................................................. 68

Əsl sevgi.................................................................. 69

Qalivaridə qar......................................................... 70

Ağ çəmənlik............................................................ 71

Sözlə söhbət........................................................... 72

Külünlə oyana bilsəm............................................ 73

Göylərin bəzəyi....................................................... 74

İşıqlı ürək........................................................ 75

Dost cığırı.............................................................. 76

Günəş................................................................... 77

Bilmirəm............................................................... 78

Alim və elm.......................................................... 79

Diri-diri öləsiyəm.................................................. 80

Bu şeir nədir......................................................... 81

Aşıq atdım............................................................ 82

Şəhid – vətən........................................................ 83

Meşə..................................................................... 84

Yağış..................................................................... 85

Körpülər................................................................ 86

Maralgöldə............................................................ 87

Kəpənək ömrü....................................................... 88

Baxdı bənövşə........................................................ 89

Sevəndə, öləndə..................................................... 90

İnsan və bürclər.................................................. 91

Fəvvarələr bağı...................................................... 92

Bəxt də təsadüfdür................................................. 93

Əl atmayın............................................................. 94

Məhəbbət,.............................................................. 95

Şəlalə vüsalı........................................................ 96

Sirdaş olan yoldaş qalsa.................................... 97

Ərsiz qalar.......................................................... 98

Vətənim................................................................ 99

Vətən..................................................................... 100

Dərdim.................................................................. 101

Yeni il axşamı..................................................... 102

Qəlbin günəşsə...................................................... 103

Dedin şeir yazma.................................................... 104

Üzü vətənə............................................................ 105

Yer üzündə............................................................ 106

İnsan və məhəbbət................................................ 107

İnsan – dünya........................................................ 108

Azadlıq.................................................................. 109

Qürbət gülü, çörəyi................................................ 110

“Vətənimin aranı da, dağı da”............................. 111

Gələrəm................................................................. 112

Bir ağzıgöyçəyə cavab........................................... 113

Gəlməz................................................................... 114

Övladım Abuzərə.................................................. 115

Ağaclar, insanlar.................................................... 116

Bülbül, ilham pərisi................................................ 117

İnsan – körpü........................................................ 118

Şeirimin qönçə bəxti.............................................. 119

Bir əlimdə çömçə, birində qələm.......................... 120

Bəxtiyar ol............................................................. 121

Böyüyün önündə.................................................... 122

Qıymadın............................................................... 123

Gələn payızdı........................................................ 124

Sən olmasan, neylərəm......................................... 125

Soruş kiməm......................................................... 126

Bənnalar................................................................ 127

Könlüm.................................................................. 128

Ağlayır.................................................................. 129

İlk kitabım............................................................ 130

Dağlara duman gəlib........................................... 131

Süzüldü............................................................... 132

Müqəddəs torpağam............................................... 133

Mən eşqimin quluyam.......................................... 134

Dağ çayı............................................................. 135

Uşaq və qar........................................................ 136

Dünya boyda eşqim oyadır məni

Aylı gecə, bir də mən.......................................... 140

Durnalar............................................................. 141

Əgər sevirsənsə.................................................... 142

Meşədən keçirdim bir payız çağı........................... 143

Gəlmişəm............................................................ 144

Gözəllik dünyanı xilas edəcək.............................. 145

Bilmədim............................................................. 147

Sevgim................................................................ 148

Gəl görüm səni.................................................... 150

Gəldi.................................................................. 151

Tənha bulud........................................................ 152

Tanıdım.............................................................. 153

Burdan bahar keçib.............................................. 154

Baharın gəlişi...................................................... 155

Soraqlar.............................................................. 156

Bənövşə.............................................................. 157

Məni xəyallarda axtarma daha.......................... 158

Tanrım belə yol açdı............................................ 159

Insan ömrü......................................................... 160

Dostumuz getmiş................................................. 161

Dəymə şair qəlbinə............................................... 162

İstedaddan çox uzaqsan....................................... 164

Sən mənimçün deyilsən........................................ 165

Mən də yaşamışam.................................................. 168

Səni tanıyım necə................................................... 170

Dedim.................................................................... 171

Yaxşılıq – pislik..................................................... 172

Kür də bayram eləyir............................................. 173

Qar altından çıxan çiçək....................................... 174

Ürəyim dənizdir..................................................... 175

Yaşa o qədər ki....................................................... 176

Nigarançılıq........................................................... 177

Mənim göz yaşlarım çevrildi daşa......................... 178

Taledən necə qaçım.............................................. 179

Gecə, tənha işıq..................................................... 180

Səndən ağrıya-ağrıya............................................. 181

Axın, ürəyimdən axın, a çaylar............................. 182

Qəfil görüşlər......................................................... 183

Aləm eşqə bürünə.................................................. 184

Dünya və insan...................................................... 185

Simuzər – P.Dağlaroğlu........................................ 188

Dağlaroğluna......................................................... 189

Qəbiristanda qızılgül............................................. 191

Görüşə geciksən..................................................... 192

Bu yaz yaman gecikdi............................................ 193

Qışdan çıxaq.......................................................... 194

Uşaq qəlbi ağrımasın............................................. 195

Təzə ilə söz............................................................ 196

Ürək birinci........................................................... 197

Ana xoşbəxtliyi, səadət sözü.................................. 198

Həkimlər otağa ülüşlə gəlir.................................. 200

İsidir məni.............................................................. 202

Yeddi nəsil, yedi fəsil........................................... 204

Şeirim və mən........................................................ 207

Həsrətim............................................................. 208

Nəğməli ayım, ilim

Bir Allah................................................................ 209

Həmişə yazdı..................................................... 211

Oqtay Rza.............................................................. 213

Ölüm ağır səfərdir................................................. 214

Hamı telli sazın, mizrabın sənin........................... 216

Mehri balam.......................................................... 218

Ay oğul balam....................................................... 220

Əzizlərim............................................................... 222

Səma balam........................................................... 224

Şövkətim................................................................. 226

Cəvahirim.............................................................. 227

Səmam mənim....................................................... 228

Fidanım............................................................... 230

Sərgi salonunda...................................................... 231

Müəllim önündə..................................................... 232

“Nəvaxtsa balaca vir qız idim mən”..................... 233

Qadın adımızla yüksəlirik...................................... 234

Aytənim................................................................. 239

Abuzərin dünyası................................................... 241

Müşfiq........................................................................ 243

Əminə xanım............................................................. 245

Müşkinazım............................................................... 246

Xəzərdə şəklim.......................................................... 247

Gülərim..................................................................... 249

Ləmpə şam deyil....................................................... 250

Bu heç vaxt olmayıb sirr,

Fil fildi, şir də ki, şir

Söz sənətin............................................................... 252

Kəbutər...................................................................... 253

Kəklik......................................................................... 254

Çaqqal........................................................................ 255

Çəməndə qızılgül dərdimi dərd

Bayatılar.................................................................... 256

Qürbətdə yaşayan balalarıma bayatı...................... 271

Rübailər..................................................................... 278

Dördlüklər................................................................. 285

Qürbətin uzun gecəsi

Yollar uzun, ellər uzaq............................................ 287

Qürbətin uzun gecəsi................................................ 294

İsveçin bəyaz qarı..................................................... 304

**Bu yaranın izi getməz................................................ 311**

**Qaçqınlar.................................................................. 317**

**Üz-üzə....................................................................... 327**

**Ədəbiyyat qəzetinə məktub...................................... 336**